**AZƏRBAYCAN RESPUBLİKASI**

**TƏHSİL NAZİRLİYİ**

**BAKI BİZNES UNİVERSİTETİ**

***"Menecment və marketinq" kafedrası***

# «BİZNESİN TƏHLÜKƏSİZLİYİ»

fənni üzrə

# DƏRS VƏSAİTİ

(Bakalavr pilləsi üçün)

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 08.12.2015-ci il tarixli 11.08 saylı əmrinin tələblərinə uyğun olaraq, Bakı Biznes Universitetinin rektorunun 03.05.2017-ci il tarixli 71 saylı əmri ilə təsdiq edilmişdir.

**BAKI 2017**

# Giriş

Biznes fəaliyyətində biznesin təşkili və idarəedilməsi kimi vacib məsələlərdən biri də biznesin təhlükəsizliyinin təmin olunmasıdır. Biznesin təhlükəsizliyinin təmin olunması isə olduqca mürəkkəb və çətin bir proses olmaqla bərabər, həm də yarana biləcək təhlükələrin müxtəlif, qeyri – müəyyən, bəzən də qarşısının alınması mümkün olmayan proseslərdir.

Buna görə də biznesin təhlükəsizliyinin təşkili zamanı ən vacib şərt təhlükələrin mənbəyinin və səbəblərinin müəyyənləşdirilməsidir. Təhlükələrin mənbəyi və yaranma səbəbləri müəyyən edildikdən sonra bu təhlükələrin qarşısının alınması istiqamətində bəzi tədbirlərin görülməsi və ya bu təhlükələrdən qismən yayınmaqda mümkündür.

Onu da qeyd etmək lazımdır ki, biznesin təhlükəsizliyinin tamamilə təmin olunması mümkün deyil. Çünki təbiətdə və cəmiyyətdə elə hadisələr və təhlükələr mövcuddur ki, onların qarşısının alınması nəinki bir sahibkarın, biznesmenin, hətta dövlətin, yaxud bəşəriyyətin iqtidarında deyil. Belə təhlükələrə son vaxtlar daha tez – tez baş verən zəlzələləri, sunamiləri, daşqınları və s. kimi təbii hadisələri misal göstərmək olar.

Lakin biznesin idarə olunmasında elə təhlükələr və elə hadisələr var ki , onları proqnozlaşdırmaq, qarşısını almaq və yaxud bu təhlükələrdən ümumiyyətlə yayınmaq mümkündür.

Bu kitabda sizə biznesin təhlükəsizliyinin təmin edilmə istiqamətində yuxarıda qeyd olunan təhlükələrin formaları , onların yaranma səbəbləri, aradan qaldırılması yolları, bu təhlükələrdən yayınmağın üsulları , təhlükələrin

proqnozlaşdırılması, risklərin idarə edilməsi və s. məsələlər barədə geniş məlumat veriləcəkdir.

# FƏSİL 1.TƏHLÜKƏ ANLAYIŞI , ONUN YARANMA SƏBƏBLƏRİ VƏ İQTİSADİ TƏHLÜKƏSİZLİK.

## 1.1.TƏHLÜKƏ VƏ TƏHLÜKƏSİZLİK ANLAYIŞLARI.

Bizi əhatə edən aləmdə tez – tez gözlənilməyən hadisələr baş verir ki , nəticədə insanların mülkiyyətinə çoxlu ziyan dəyir. Belə hadisələr bəzən insanların özlərinin məsuliyyətsizliyi nəticəsində, bəzən digər insanların bilmədən və ya bilərəkdən törətdikləri hadisələrdən , bəzi hallarda isə gözlənilmədən təbiətdə baş verən hadisələr nəticəsində meydana çıxır.

Təbiidir ki, insanların sağlamlığına və mülkiyyətinə ziyan verə bilən hadisələr xoşagəlməz hadisələrdir. Belə hadisələr insanların həyatına və əmlakına təhlükə yaradır. Yəni təhlükə insan sağlamlığına, onun normal həyat fəaliyyətinə , eləcə də onun əmlakının yararlılığına maneəçilik törədən hadisədir və qabaqcadan planlaşdırılan fəaliyyət istiqamətinə maneə yaradan amildir.

İndi isə təhlükə anlayışının mahiyyətini yuxarıda qeyd olunanların əsasında dəqiqləşdirək. Deməli "təhlükə" müəyyən bir istiqamətə və məqsədə yönəlmiş fəaliyyətin kənar qüvvələr tərəfindən dəyişdirilməsi və ya buna maneə olunması prosesinə deyilir. Təhlükənin baş verməsinə isə "qəza" halı deyilir. Qəza fəaliyyət istiqamətinin dəyişməsi , yaxud müəyyən bir əmlakın yararsız hala düşməsidir. Qəza halı artıq təhlükənin baş verməsinin

nəticəsidir. Onu da qeyd etmək lazımdır ki, qəzanın aradan qaldırılması, yəni təkrar fəaliyyət istiqamətinin bərpa olunması, yaxud əmlakın bərpa olunub əvvəlki vəziyyətinə qaytarılması bəzən mümkün olsa da, çox vaxt nəticə təəssüf ki, dönüşsüz olur.

İdarəetmənin mürəkkəb bir proses olduğu məlumdur. Ümumiləşdirilmiş şəkildə idarəetmə prosesini aşağıdakı formada ifadə etmək olar. (şəkil 1 )




Burada 1 – idarə olunan obyekt, 2 – idarəedici amillər, 3 – həyacanlandırıcı təsirlər, 4 – məqsəddir.

İdarəetmə prosesində fəaliyyət idarə olunan obyekti (1) idarəedici parametrlərin (2) vasitəsi ilə məqsədə (4) çatdırmaqdır. Lakin burada həyacanlandırıcı təsirlər (3) fəaliyyətin istiqamətinin dəyişdirilməsinə, yəni fəaliyyətin (4) -dən yayınmasına yönəlmişdir.

Yəni burada (3) istənilən halda (4) - ə çatmaq üçün təhlükələrdir.

Bir çox hallarda idarəetmə prosesində baş verə biləcək təhlükələrin qabaqcadan proqnozlaşdırılması mümkün olur və bu təhlükələrdən yayınmağa imkan verir. Bütün bu təhlükələrin qarşısının alınması və təhlükələrdən yayınılması hallarına "təhlükəsizlik" deyilir.

Təhlükəsizliyin təmin olunmasının bir çox üsulları vardır. Bu hadisələrin, yəni təhlükələrin proqnozlaşdırılmasından sonra müvafiq tədbirlərin görülməsindən ibarətdir. Bu tədbirlər isə riskin sığortalanması , riskin bölüşdürülməsi və riskdən imtina etmə metodlarından ibarətdir.

## 1.2. Təhlükələrin yaranma səbəbləri və mənbələri

Biznes fəaliyyəti yarandığı gündən təhlükələrlə üzləşmişdir. Bu təhlükələrin yaranma səbəbləri müxtəlifdir.

Hələ qədim zamanlarda ticarət karvanlarına quldur basqınları, ticarət gəmilərinə dəniz quldurlarının hücumu, malların saxlandığı anbarların soyulması, baş verən yanğınlar nəticəsində malların yanıb tamamilə məhv olması, işçilər tərəfindən malların və ya satışdan əldə edilən vəsaitin oğurlanması, ticarət üçün alınan və ya istehsal olunan malların bu və ya digər səbəbdən xarab olub sıradan çıxması, məhsul bolluğu nəticəsində satışa çıxarılan malların qiymətdən düşməsi və s. kimi təhlükələrin mövcudluğu biznes sahəsindəki daimi təhlükələrdir.

İqtisadiyyat, ticarət, elm, texnika və texnologiya daim inkişafda olduğundan bunlar da öz növbəsində yeni təhlükələrin yaranmasına səbəb olmuşdur. Belə ki, istehsalın artması, sənayenin inkişafı, rəqabətin artması eyni zamanda qiymətlərin aşağı düşməsi kimi təhlükələri yaradır. Ticarətin genişlənməsi, beynəlxalq biznesin və qloballaşmanın, rəqabətin yeni mərhələyə keçməsinə təsir göstərməklə yeni təhlükələr yaratmışdır.

Elm və texnikanın inkişafı, daimi dinamik yeniliklərin meydana gəlməsi, əmtəələrin daha da mükəmməlləşdirilməsi təlabatını yaratmış və yeni texnologiyaların tətbiqi, istehsal həcminin artırılması ilə bərabər kütləvi əmtəə istehsalına əsas yaratmaqla yeni rəqabət münasibətləri formalaşdırmışdır.

Yuxarıda qeyd olunanlardan başqa təhlükələrin yaranmasına təsir göstərən əsas amillərdən biri də təbii hadisələrin baş verməsidir ki, bu hadisələri proqnozlaşdırmaq vəqabaqcadan qarşısınıalmaq mümkün deyil.

Təhlükələrin yaranma səbəblərindən biri də insan psixologiyasinda formalaşan  və qədim zamanlardan mövcud olan mala hərislik, başqasında olanı zor və hiylə ilə ələ keçirmək arzusu, başqalarının müvəffəqiyyətinə qısqanclıq və paxıllıq hissinin insan psixologiyasında mövcudluğu rəqabətin yaratdığı qeyri – qanuni metodlarla mübarizə formaları da biznes təhlükələrinin yaranmasına səbəb olmuşdur.

Bütün bu yuxarıda qeyd olunanlar biznesdə yaranan təhlükələrin əsas səbəbləridir.

Ümumiləşdirilmiş şəkildə biznesdə yaranan təhlükələrin mənbələrini aşağıdakılara bölmək olar:

1. Texnogen təhlükələr. Bu təhlükələr insanlar tərəfindən yaradılan, qəsdən və ya bilmədən törədilən təhlükələrdir.

2. Təbii təhlükələr. Bu təhlükələr isə təbiətdə baş verən gözlənilməz hadisələrin nəticələri kimi  təzahür etməklə özündə zəlzələ, daşqın, sunami, yanğın, sel, leysan və dolu yağışları kimi hadisələri əks etdirir.

3. Sosial təhlükələr. Sosial təhlükələr cəmiyyətdə baş verən təhlükələr olub, sosial vəziyyət, əhalinin ağır dolanışığı, alıcılıq qabiliyyətinin aşağı olması, ölkə iqtisadiyyatının çökməsi, işsizliyin artması, sosial partlayışlar, inqilablar və s. ilə bağlı təhlükələrdir.

## 1.3.İqtisadi təhlükəsizliyin mahiyyəti, milli və beynəlxalq təhlükəsizlik.

İqtisadi təhlükəsizlik dedikdə, bu özlüyündə inkişafın hansı səviyyədə olduğunu əks etdirən bir amildir. Bu eyni zamanda təhlükəsizliyin 3 əsas səviyyəsini özündə əks etdirir:

1. Beynəlxalq səviyyədə, yəni qlobal və regional səviyyədə iqtisadi təhlükəsizlik;
2. Hər bir ölkənin özünün iqtisadi təhlükəsizliyi, başqa sözlə milli iqtisadi təhlükəsizlik;
3. Müəssisə səviyyəsində iqtisadi təhlükəsizlik.

Beynəlxalq iqtisadi təhlükəsizlik anlayışı ölkələrarası iqtisadi münasibətlərdə hər bir ölkənin mənafeyinin beynəlxalq səviyyədə hüquqi, iqtisadi, sosial və s. kimi məsələlərdə qorunmasının təmin olunmasını tələb edir. Bu isə o deməkdir ki, siyasi quruluşundan, idarəçilik formasından , inkişaf səviyyəsindən asılı olmayaraq dünya birliyinin üzvü olan hər bir ölkənin iqtisadi mənafeyi eyni dərəcədə qorunmalıdır.

Ölkənin milli iqtisadi təhlükəsizliyi isə, hər bir ölkənin apardığı iqtisadi siyasətin nəticəsi kimi özünü təzahür etdirir. Yəni, bu təhlükəsizlik hər bir ölkənin ali idarəetmə orqanlarının fəaliyyətinin nəticəsi olaraq

müəyyənləşdirilir. Milli iqtisadi təhlükəsizlik ölkənin iqtisadi cəhətdən digər ölkələrdən asılı olmaması, strateji məhsulların, enerji resurslarının kifayət qədər dövlətin əlində cəmləşməsi və ölkəni tamamilə təmin edə biləcək miqdarda olması, idxal və ixrac proseslərinin məqsədəuyğun təşkil olunması, kifayət qədər valyuta ehtiyatlarının mövcudluğu və s. kimi amillər ölkənin iqtisadi təhlükəsizliyini, yəni milli təhlükəsizliyi təmin edir.

Xüsusi iqtisadi təhlükəsizlik və ya müəssisənin iqtisadi təhlükəsizliyi təşkilatlar üzrə maliyyə, kommersiya, elmi-texniki, texnoloji informasiyaların, kadr potensialının, müəssisənin istehsal imkanlarının və s.kimi amillərin mövcud vəziyyətini özündə əks etdirir.

Yuxarıda iqtisadi təhlükəsizliyin obyektləri haqqında ümumi məlumatları qeyd etdik.

İndi isə bu iqtisadi təhlükəsizlik obyektləri haqqında daha geniş məlumatlarla tanış olaq.

Milli iqtisadi təhlükəsizliyin təmin olunması barədə akademik L.Abalkin aşağıdakı üç şərtin ödənilməsinin vacibliyini qeyd edir:

1. Ölkənin iqtisadi sərbəstliyi, yəni dövlətin bütün milli ehtiyatlara, istehsala nəzarəti, sərbəst, düzgün iqtisadi qərarlar qəbul edə bilməsi.

2. Milli itqisadiyyatın dayanıqlılığı və sabitliyin təmin olunması, mülkiyyətin bütün formalarının qorunması, hər cür iqtisadi fəaliyyətə şərait yaradılması, vəziyyəti poza biləcək addımların qarşısının alınması.

3. Ölkənin özünü inkişaf etdirmə qabiliyyətinin olması şərtinin təmin olunması.

Milli iqtisadi təhlükəsizliyin səviyyəsini müəyyən etmək üçün monitorinq sistemindən istifadə olunur ki , iqtisadi monitorinq sistemi inkişaf göstəricilərinin səviyyələrini təyin etməyə imkan verir. Bu göstəricilər isə aşağıdakılardan ibarətdir:

- Ümummilli, ümumdaxili, xalis milli məhsulların və milli gəlirin səviyyələri;
- İdxal və ixracın səviyyəsi;
- İşsizlik səviyyəsi;
- Ölkənin xarici borcu;
- Büdcə kəsrlərinin səviyyəsi və s.

### 1.4. İqtisadi təhlükəsizliyə təsir edən amillər

İqtisadi təhlükəsizliyə təsir edən amillər çoxsaylı olmaqla müxtəlif xüsusiyyətlərə malikdirlər. Bu amillər əsasən aşağıdakılardan ibarətdir:

1. <u>Daxili təhdid amilləri:</u>

- Sosial – iqtisadi inkişaf proqramının olmaması,
- Hüquqi – normativ bazanın yarıtmaz vəziyyətdə olması,
- Pul – kredit siyasətinin düzgün qurulmaması,
- Vergi sisteminin real şəraitə uyğun qurulmaması,
- İstehsal potensialının aşağı səviyyədə olması,
- İnnovasiya siyasətinin zəifliyi,
- İqtisadi strukturun adekvat olmaması,
- Texnoloji gerilik,
- İqtisadiyyatın inhisarlaşması,
- Rüşvətxorluq,
- Daxili ekstremizmin yüksəkliyi.

2. Xarici təhlükələr:
- Xarici firmaların daxili bazarı ələ keçirməsi,
- İdxalın artıqlığı ,
- Xarici müəssisələrin çoxluğu,
- Müharibə təhlükəsi,
- Ekoloji problemlərin çoxluğu.

## 1.5. Beynəlxalq iqtisadi təhlükəsizlik.

Beynəlxalq iqtisadi təhlükəsizlik təkcə bir ölkənin fəaliyyəti ilə tənzimlənə bilməz. Bu məsələnin həlli ümumbəşəri məsələ olduğundan burada bütün ölkələrin iştirakı vacibdir. Buna görə də beynəlxalq səviyyədə iqtisadi təhlükəsizliyin təmin olunmasında BMT – nin iştirakı vacibdir.

BMT Baş Məclisinin, "Beynəlxalq İqtisadi Təhlükəsizlik" konsepsiyası adlı məruzəsində beynəlxalq iqtisadi problemlərin araşdırılmış və iqtisadi təhlükəsizliyin beynəlxalq, milli mənbələri təsnifləşdirilmişdir.

Beynəlxalq iqtisadi təhlükəsizlik (BİT) özündə beynəlxalq müqavilələri əks etdirir ki , bu da ölkələrə sərbəst iqtisadi strategiya seçmək, onu yerinə yetirmək, heç bir kənar və daxili təsir olmadan sərfəli əməkdaşlıq fəaliyyətinə imkan verir.

BİT heç bir ölkəyə məcburi modellərdən istifadə etmə, iqtisadi və siyasi zor tətbiq edilmədən, ölkələrin maraqlarına toxuna bilən hər hansı bir şərtin irəli sürülməsinin qarşısını almaqla bərabər, beynəlxalq iqtisadi təh-

lükəsizliyin təmin olunmasına şərait yaratmağa cəhd göstərir.

Lakin buna baxmayaraq bəzən yeni müstəqillik əldə etmiş bir sıra ölkələr aşağıdakı xarici təsirlərə məruz qalırlar:

- Xarici firmaların daxili bazarı zəbt etməsi,
- Xaricdən mal idxalının çoxluğu,
- İstehsal müəssisələrinin xarici ölkə vətəndaşları tərəfindən ələ keçirilməsi,
- Mübadilə prosesində təhlükələr,
- Ekoloji təhlükələr.

# FƏSIL 2. BİZNESDƏ YARANAN TƏHLÜKƏLƏRİN ƏSAS FORMALARI.

## 2.1.İqtisadi təhlükələr.

İqtisadi təhlükələr istənilən səviyyədə daxili və xarici təhlükələrə bölünür.

Xarici təhlükələrə əsasən aşağıdakılar aid edilir:

1. Digər ölkələrin kəşfiyyat xidməti təşkilatlarının aşağıdakı istiqamətlərdə fəaliyyəti:

- dünya praktikasında hələ mövcud olmayan elmi tədqiqat işlərinin nəticələrinin əldə edilməsi istiqamətində fəaliyyət;
- firmanın beynəlxalq bazarlarda strateji mövqeyinə ziyan gətirə biləcək ona məxsus məlumatların toplanması və müxtəlif yollarla əldə edilməsi.

2. Digər ölkə firmalarının milli iqtisadiyyata və onun inkişafına maneəçilik fəaliyyəti:

- ölkədə istehsalın inkişafına təsir edən maneəçiliklər;
- ölkə iqtisadiyyatını zəiflətmək məqsədi ilə strateji məhsulların, beynəlxalq valyutaların, elmi - texniki işləmələrin və s. ölkədən daşınıb çıxarılması istiqamətində fəaliyyət;
- ölkə iqtisadiyyatını idxaldan asılı vəziyyətə salınması.

3. Milli iqtisadiyyata xarici cinayətkar qrupların vəsaitlərinin, müxtəlif maliyyə fırıldaqlarının daxil olmasının tətbiq edilməsi.

Daxili təhlükə mənbələri isə əsasən aşağıdakılar hesab edilir:

1. Ölkədaxilindəki hakimiyyət orqanlarında rüşvətxorluq, qohumbazlıq, yerlibazlıq, korrupsiya hallarının baş alıb getməsi;

2. Ölkə iqtisadiyyatında cinayətkarlığın yaranması, kontrabanda, valyuta, strateji məhsulların qeyri-rəsmi ixracı, dövlət əmlakının talan edilməsi və s;

3. Ölkə iqtisadiyyatında inhisarçılığın baş alıb getməsi, dövlət səviyyəsində mütəşəkkil cinayətkarlıq,maliyyə, biznes sahələrinin xüsusi adamların əlində cəmləşməsi və s.

Yuxarıda qeyd olunanlar makroiqtisadi sahədə təhlükələri özündə əks etdirir. Mikroiqtisadi sahədə isə biznes və sahibkarlıq fəaliyyəti üçün də təhlükələr mövcuddur və aşağıdakılardan ibarətdir:

1. Ölkədaxili bazarda haqsız rəqabətin mövcudluğu;

2. İqtisadi sahədə cinayətkarlıq,biznesmenlərə və sahibkarlara qarşı dövlət orqanları və kriminal insanlar tərəfindən zor tətbiq edilməsi;

3. Vergi orqanlarının qeyri – qanuni fəaliyyəti və əsassız yoxlamaların aparılması;

4. İnformasiya mübadiləsi qaydalarının pozulması;

5. İqtisadiyyatda sənaye casusluğuna qarşı mübarizənin zəifliyi və s.

Ümumiləşdirilmiş formada iqtisadi təhlükələr içərisində daxili təhlükələri aşağıdakı kimi sinifləşdirmək olar:

1. İşçilərin peşəkarlığının aşağı səviyyədə olması və ya qəsdən xəyanətkar fəaliyyəti;

2. Personalın bilməyərəkdən törətdiyi hadisə və yaxud xətalar;

3. İstifadə olunan avadanlıqların, yaxud texniki vasitələrin sıradan çıxması;

4. İstifadə olunan kompyuter sisteminin işin öhdəsindən gəlmək iqtidarında olmaması.

Daxili və xarici təhlükələrin müqayisə göstəriciləri şərti olaraq % - lə aşağıdakı kimidir:

- 81,7 % təhlükələr əməkdaşların bilərəkdən və ya səhvi nəticəsində yaranır
- 17,3 % təhlükə kənar təhlükələr yaxud cinayətkar hərəkətlərdir.
- 1 % təhlükələr isə təsadüfi hadisələrdir.

Biznes fəaliyyətində təhlükə mənbəyi kimi aşağıdakılar çıxış edirlər:

1. İşçi qüvvəsi, kadrlar , şəriklər, tərəfdaşlar və s;
2. Texniki vasitələr, maddi dəyərlər,avadanlıqlar və s;
3. Kapital , maliyyə vasitələri və s;
4. Məlumat ehtiyatları, buna program işləmələri, layihə sənədləri və s. aiddir.

İşçilərə və ya firmada çalışan kadrlara qarşı təhlükələr isə əsasən aşağıdakılar hesab olunurlar :

- faktiki olaraq fiziki məhv etmə;
- müəssisədə çalışan aparıcı mütəxəssislərin ailə üzvlərinin və yaxınlarının oğurlanması;
- hədələmək, ölümlə qorxutmaq, şantaj kimi psixoloji təhlükələr.

Maddi dəyərlərə təhlükələr isə aşağıdakı vasitələrlə yaradılır:

1. Maddi dəyərlərin oğurlanması, xarab edilməsi, yandırılması, mütəlif yollarla sıradan çıxarılması;

2. Rabitə və kommunikasiya sisteminin sıradan çıxarılması;

3. İstifadədə olan nəqliyyat vasitələrinin sıradan çıxarılması və ya oğurlanması.

Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, biznes və sahibkarlığa qarşı cinayətkarlıq fəaliyyətinin formaları

| | | |
|---|---|---|
| 1 | Şəxsiyyətə qarşı cinayətlər | 4.3% |
| 2 | Dələduzluq | 7.2% |
| 3 | Oğurluq | 49.9% |
| 4 | Soyğunçuluq və quldurluq | 7.0% |
| 5 | Etibar olunmuş əmlakın mənimsənilməsi | 1.3% |
| 6 | Maliyyə fırıldaqları | 2.5% |
| 7 | Digər cinayətlər | 28.3% |

aşağıdakı cədvəldə göstərilən faiz nisbətindədir.

(cədvəl 1)

Biznesin idarəedilməsində və sahibkarlıq fəaliyyətində əsas təhlükələrdən biri də ədalətsiz rəqabətdir.

Ədalətsiz rəqabət dedikdə, rəqiblərə qarşı qanundan kənar, rəqabət ənənələrinə uyğun gəlməyən, qarşı tərəfə ziyan vura bilən bütün vasitələrdən istifadə etməklə aparılan mübarizə forması başa düşülür.

Ədalətsiz rəqabətin əsas məqsədi qarşı tərəfin bazarda mövqeyinin zəiflədilməsi yolu ilə alıcılarının sayını aşağı salmaqla öz mövqeyini qorumaq və daha da artırmaqdan ibarətdir.

Ədalətsiz rəqabət hərəkətlərinə əsasən aşağıdakıları aid etmək olar :

1. Rəqibi sıradan çıxarmaq məqsədi ilə məhsulun maya dəyərinə və ya biraz da aşağı qiymətə bazarda təklif olunması;

2. Rəqibi sıxışdıra biləcək kommersiya şərtlərinin tə-yin olunması;

3. Satışlarda gizli sövdələşmələrin aparılması;

4. Təbliğat reklamlarına müvafiq olmayan məhsulun alıcılara təklif olunması;

5. Qarşı tərəfin istehsal etdiyi məhsulun surətinin çıxarılaraq istehsalının təşkili;

6. Rəqibin ticarət nişanından istifadə edərək öz məh-sulunu satma.

Aşağıdakı cədvəldə ən çox yayılmış haqsız rəqabət formaları əks olunmuşdur :

(cədvəl 2)

| | | |
|---|---|---|
| 1.İqtisadi təzyiqlər. | | |
| 1.1 | Sövdələşmə və digər sazişlərin pozulması | 48% |
| 1.2 | Dövlət orqanları və KİV vasitəsi ilə rəqib firmalara təzyiqlər | 31% |
| 1.3 | Ədalətsiz reklamla rəqib fəaliyyətinin zəiflədilməsi | 11% |
| 1.4 | Şantaj, işçilərin ələ alınması yolu ilə rəqiblərə təsir etmə | 10% |
| 2.Fiziki təzyiqlər. | | |
| 2.1 | Oğurluq, ofislərə, anbarlara basqınlar | 73% |
| 2.2 | Fiziki yolla təzyiqlər | 22% |
| | | |
| 3.Sənaye casusluğu | | |

| | | |
|---|---|---|
| 3.1 | Əməkdaşların ələ alınması | 43% |
| 3.2 | Sənəd və layihələrin əldə edilməsi | 10% |
| 3.3 | Proqram və məlumatların surətinin əldə edilməsi | 24% |
| 3.4 | Firmanın kompyuter sisteminə daxilolmalar | 18% |
| 3.5 | Danışıqlara qulaq asma | 5% |

Biznes fəaliyyətində sahibkarlığa ən çox təhlükə fırıldaqçılıqdan yaranır. Sahibkarlar adətən yalan vədlərlə şirnikləşdirilir, onların etibarından istifadə edərək fırıldaqçılar müxtəlif yollarla əmlaka sahib olurlar. Fırıldaqçılar əmlakı girov formasında ələ keçirir və ya malı pulun ödənişindən əvvəl aparmaqla sonradan ödənişdən imtina edərək müxtəlif bəhanələr gətirirlər.

Fırıldaq - sahibkarı aldatmaq yolu ilə əmlakın onun tərəfindən könüllü olaraq digər tərəfin, yəni cinayətkarın sərəncamına keçirilməsidir.

Biznesmenlərin və sahibkarların aldadılması məqsədi ilə tətbiq edilən yalan hərəkətlərin formaları aşağıdakılardır:

- yalan informasiyaların ötürülməsi;
- saxta əməllərlə inandırma;
- yalançı sahibkarlıq, yəni sahibkarlıq imicinin imitasiya olunması və s.

Müxtəlif fırıldaqçılıq növləri aşağıdakı qaydada təsnifləndirilmişdir :

1. Kassalardan pul vəsaitlərinin müxtəlif formalarda oğurlanması :

- çek formasında olan vəsaitin oğurluğu;

- pul vəsaitinin təyinatı üzrə xərclənməməsi;
- kassa qeydiyyat kitabının saxtalaşdırılması;
- bank hesablarında vəsaitlərin saxtalaşdırılması;
- saxta çeklərdən istifadə;
- təqaüd-fond vəsaitlərinin təyinatı üzrə xərclənməməsi.

2. Hesabların saxtalaşdırılması:
- nəqliyyat qaimələrinin saxtalaşdırılması;
- şişirdilmiş fakturalar.

3. İnventarın oğurlanması:
- alıcılarla və kontragentlərlə gizli razılaşmalar;
- iş görülməsi qarşılığında hədiyyələr qəbul etmə (rüşvət);
- “yalançı”malgöndərənlərin tətbiqi;
- qiymətin şişirdilməsi.

4. Saxta veksellərin verilməsi.
5. Firma əmlakından şəxsi məqsəd üçün istifadə:
- rüşvət almaqla işin verilməsi;
- maliyyə məsələlərində fırıldaqlar.

6. Mühasibatlıqda saxta sənədlərin tərtibatı:
- fəaliyyətin nəticələrinin yüksək göstərilməsi;
- mənfi fəaliyyəti ört – basdır etmək.

7. Firma mülkiyyətinin qanunsuz satışı, əmlakın avadanlığın , istehsal tullantılarının və s.
8. İşçilərə haqq ödənilməsi ilə bağlı :
- tələb edilməyən çeklərin nağd formaya salınması;
- müəssisədə fəaliyyət göstərməyən işçilərə əmək haqqı hesablanması.

## 2.2. Sosial Təhlükələr

Biznesdə yaranan təhlükələrdən biri və ən vacib olanı sosial təhlükələrdir. Sosial təhlükələrin yaranmasına səbəbölkədə iqtisadi və siyasi qeyri – sabitlikdir ki, bunun nəticəsində işsizlik yaranır, cəmiyyətdə yoxsullaşma baş verir, ölkədə sosial iqtisadi təbəqələşmə prosesi sürətlənir.

Hakimiyyət iqtisadiyyatı və xalqı idarə edə bilmir. Nəticədə ölkədə qeyri–sabitlik yaranır. Əhali öz narazılığını mitinqlər və hökümət əleyhinə çıxışlar və digər formada ifadə edir.

Sosial təhlükələr bir sıra amillərə əsasən təsnifləşdirilir:

1. Biznesmenlərin sosial baxımdan maraqlarının əks istiqamətinə görə;
2. Təhlükələrin miqyası üzrə ( yerli , lokal, firmadaxili və s. );
3. Baş vermə səbəblərinə görə: mülkiyyətin, gəlirin, hakimiyyətin ədalətsiz bölgüsü.

Sahibkarların sosial maraqlarının əks istiqamətinə görə təhlükələr dedikdə, bu, əhalinin alıcılıq qabiliyyətinin aşağı düşməsi, işsizlik səviyyəsinin artması, bilavasitə biznesin inkişafına mənfi təsir göstərir. Ümumiyyətlə sosial problemlərin artması biznes fəaliyyətinin zəifləməsinə gətirib çıxarır.

Təhlükələrin miqyası dedikdə bu, yerli, yəni müxtəlif ölkələr üzrə yaranan təhlükələrdən biznesə təsir başa düşülməlidir. Yəni, ölkənin hər hansı bir ərazisində fövqəladə bir hadisənin nəticəsində həmin bölgədə təbiidir

ki, fəaliyyət göstərən biznesə mənfi təsirlər olacaqdır. Məsələn: Ölkənin kiçik bir bölgəsində güclü yağışların 3 gün ərzində dayanmadan yağması bu ərazidə mövsümi məhsul yığımına təbiidir ki, mənfi təsir göstərəcəkdir.

Lokal təhlükə dedikdə bu, yerli miqyasdan daha kiçik olan bir ərazidə baş vere bilən təhlükə forması kimi təzahür edir. Bu, kiçik bir ərazidə xirda bir neçə sahibkarlıq fəaliyyətinə təsir edən təhlükədən ibarətdir.

Firmadaxili təhlükələr isə firmanın daxilində bu və ya digər səbəbdən baş verən təhlükələrdir ki, belə təhlükələrə əmək haqqının gecikməsi ilə bağlı narazılıqlar, iş vaxtından əlavə işçilərin işə çağırılması, digər ödənişlərin gecikdirilməsi ilə bağlı olan sosial təhlükələr aid edilə bilər.

Səbəblərə görə təhlükələr isə gəlirlərin işçilər arasında qeyri – bərabər bölünməsi, yaxud şəriklər arasında gəlirin qeyri – mütənasib bölünməsi, idarəetmədə hakimiyyətin və onun səlahiyyətlərinin qeyri – münasib bölünməsi də sayıla bilər.

## 2.3. Hüquqi təhlükələr

Hüquqi təhlükələr biznes fəaliyyətində hüquqi məsələlər ilə bağlı yaranan təhlükələrdir. Belə təhlükələr əsasən iki istiqamətdə yaranır:

1. Biznes fəaliyyətində hüquqi məsələlərin dərindən öyrənilməməsi nəticəsində hüquqi normativlərdən xəbərsiz olaraq biznesmenlər tərəfindən qanun pozuntularına yol verilməsi;

2. Qanunların layihələndirilməsində və qəbul edilməsində buraxıla bilən boşluqların yaratdığı problemlər.

Hüquqi xarakterli təhlükələr mövcud qanunvericilikdə boşluqların mövcudluğu mənfəətin, real gəlirin gizlədilməsi, təsərrüfat fəaliyyətində müxtəlif manevrlərin edilməsinə və sahibkarlığa birbaşa kriminal təsir olunmasına gətirib çıxarır. Hüquqi təhlükələrin əsas formaları isə aşağıdakılardır :

- başqalarının əmlakına yiyələnmə;
- regionlararası əmtəə hərəkətinin qarşısının alınması;
- qiymətlərin qeyri – qanuni tənzimlənməsi;
- firmaların fəaliyyətinə kənar müdaxilələrin mövcudluğu;
- firmaların fəaliyyətinin inzibati tənzimlənməsinə cəhdlər.

Bəzi hüquqi tənzimlənmələrdə təhlükələr dövlət orqanlarınınqeyri – qanuni fəaliyyəti nəticəsində yaranır. Məlum olduğu kimi bəzi fəaliyyət növlərinin dövlət orqanları tərəfindən lisenziyalaşdırılması tələb olunur. Dövlət orqanları tərəfindən bəzən bu lisenziyaların verilməsində rüşvət almaq məqsədi ilə müxtəlif maneələr, süründürməçiliklər və s. halların yaradılması müşahidə olunur. Belə ki, lisenziyalaşdırma zamanı lisenziyaların qısa müddətli, aylıq, rüblük, illik müddətlərində verilməsi, vaxt bitdikdən sonra sahibkarın yenidən lisenziya almaq üçün müraciət etməsi tələb olunur. Bu zaman sahibkardan lisenziyanın yeniləşdirilməsi üçün müəyyən qədər qeyri – rəsmi ödənişlər tələb olunurdu. AR – da bu məsələnin həlli ilə bağlı 2015 – ci ildə lisenziyaların birdəfəlik veril-

məsi haqqında qərar qəbul edildikdən sonra artıq hüquqi baxımdan belə təhlükələr aradan qaldırıldı.

Bəzən nəzarət orqanlarının işçilərinin qeyri-peşəkarlığı nəticəsində sahibkarlarla qarşılıqlı münaqişələr də yarana bilir. Bu halda işin hüquq mühafizə, yaxud məhkəmə orqanlarına qədər gəlib çıxması, onsuzda öz fəaliyyət sahəsində gərgin iş rejimi olan sahibkarların vaxt itkisinə, bilavasitə onların biznes fəaliyyətinə zərbə vurur.

## 2.4. Siyasi təhlükələr.

Biznes fəaliyyətinə mənfi təsir göstərən amillərdən biri də siyasi təhlükələrdir.

Siyasi təhlükələrə iki aspektdən yanaşmaq lazımdır:

1. Daxili siyasi təhlükələr;
2. Xarici siyasi təhlükələr.

Daxili siyasi təhlükələr ölkə daxilindəki siyasi qüvvələrin mübarizəsinin kəskinləşməsi, yəni hakimiyyətdə olan qüvvələrlə müxalifət qüvvələri arasında mübarizənin kəskinləşməsidir. Belə siyasi durum təbiidir ki, daha da gərginləşərsə ölkədə mitinqlərin, tətillərin başlanmasına, gərginlik bir qədər də kəskinləşərsə inqilablara, vətəndaş müharibələrinə və dövlət çevrilişlərinə gətirib çıxara bilər ki, bu da biznes fəaliyyətinə olduqca mənfi təsir göstərir. Belə ki, iş dayanır, ticarət əlaqələri pozulur, istehsal ritmi aşağı düşür, infliyasiya baş verir, valyuta kursları dəyişir, milli valyutanın dəyəri aşağı düşür və s.

Xarici siyasi təhlükələrə isə ölkələr arası münasibətlərdə gərginliyin yaranması səbəb olur. Bu təhlükələr

proqnozlaşdırılması çətin olan təhlükələrdir. Bəzən ölkələrarası münasibətlərdə yaranan gərginliklər müharibələrə gətirib çıxarır ki, onun nəticəsi nəinki müharibə şəraitində olan ölkələrə, eyni zamanda bu ölkələrlə coğrafi, siyasi və iqtisadi yaxınlığı olan ölkələrin iqtisadiyyatına da mənfi təsir göstərir.

Siyasi gərginlik yarandıqda bu gərginliklə və bu ölkələrin heç də siyasi kursu ilə əlaqəsi olmayan ölkələrin də iqtisadiyyatı təhlükə ilə üzləşir. Hər hansıbir ölkəyə embarqo qoyulduqda embarqo predmeti olan məhsul göndərən bütün ölkələr bu siyasi gedişdən təbii ki, iqtisadi ziyan çəkməli olurlar. Onsuz da daimi bazar axtarışında olan sahibkarlar yeni bazar tapmalı (bu o qədər də asan məsələ deyil), yeni müqavilələr bağlamalı və hazır məhsulları bu ölkəyə daşımalıdır. Bu prosesin nə qədər çətin olduğu isə hamıya məlumdur.

Aşağıda siyasi təhlükələrin yaratdığı problemlər əks olunmuşdur:

1. İstehsalın tempi aşağı düşür;
2. Satışın həcmi azalır;
3. Valyuta kursları dəyişir;
4. İnvestisiya qoyuluşu azalır;
5. Xarici ölkələrlə müqavilə bağlanmasında risk artır;
6. İqtisadiyyatın inkişafı aşağı düşür.

Göründüyü kimi siyasi təhlükələr biznesmen və sahibkarlara digər təhlükələrə nisbətən daha çox mənfi təsir göstərir.

## 2.5. Biznes fəaliyyətində baş verən digər təhlükələr.

Biznes fəaliyyətində baş verən digər təhlükələrə aşağıdakılar daxildir:

1. Korrupsiya cinayətkarlığı;
2. Kriminal təhlükələr;
3. Təsərrüfat fəaliyyətində cinayətlər.

Dünya praktikasında inkişaf etməmiş, zəif inkişaf etmiş və inkişafda olan dövlətlərdə biznesə yaranan təhlükələrdən biri də korrupsiyadır. Korrupsiya biznesin və sahibkarlığın inkişafına dağıdıcı zərbələr vurur. Bəzən korrupsiya bəzi ölkələrdə dövlət səviyyəsində hakimiyyətin bütün təbəqələrində, aşağıdan yuxarıya doğru bütün idarəetmə orqanlarında mütəşəkkil formada təzahür edir. Təbiidir ki, belə olan halda bu ölkələrdə sahibkarlığın inkişafından söhbət gedə bilməz.

Bu zaman mənfi təsirlər iqtisadiyyatın bütün sahələrində hiss olunur və iqtisadiyyata əks təsirlər özünü aşağıdakılarda göstərir:

1. Ölkənin ərazisində olan bütün bazarlarda rəqabət mexanizmi pozulur;
2. Sahibkarlar və biznes adamları hakimiyyətin ədalətli bazarın formalaşdırılması istiqamətində fəaliyyətinə inamı itirir;
3. Qeyri – hökumət orqanlarında da korrupsiya güclənir;
4. Qiymətlər korrupsion "qaimə xərcləri" (yəni, qeyri-rəsmi tələb olunan xərclər) hesabına son həddə çatır;
5. Kölgə iqtisadiyyatı formalaşır.

Belə olduqda dövlət büdcəsinə daxil olmalı olan vəsaitin böyük hissəsi rəsmi ödənişlərdən gizlədilir və qeyri-rəsmi olaraq rüşvət formasında aşağıdan yuxarıya doğru məmurlar “ordusunun” şəxsi gəlir mənbəyinə çevrilir.

Dövlət səviyyəsində korrupsiyanın baş alıb getdiyi ölkələrdə mənimsəmələr milyardlarla hesablanır. Bəzən bu mənimsəmələrin həddi ölkənin büdcəsini dəfələrlə üstələyir. Korrupsiyanın sosial nəticələri isə aşağıdakılardan ibarətdir:

1. Əhali arasında təbəqələşmə sürətlənir və əhalinin böyük hisəsi yoxsul həddinə düşür;
2. Mütəşəkkil cinayətkarlıq artır, kölgə iqtisadiyyatı güclənir, inhisarçılığa meydan açılır;
3. Əhali arasında və ölkədə sosial gərginlik artır;
4. Əhalinin iqtidara inamı azalır;
5. Ölkənin beynəlxalq bazarlardan təcrid olunması təhlükəsi yaranır;
6. Ölkədə yeni oliqarxlar meydana gəlir ki, ölkənin bütün iqtisadiyyatı onların əlində cəmləşir.

Biznes və sahibkarlıq fəaliyyətinə qarşı yönələn kriminal təhlükələr həmişə mövcud olmuşdur. Kriminal təhlükələrin mənbəyi insanlardır. İnsanlar ya fərdi qaydada, ya da qruplar şəklində bu təhlükələri yaradırlar. Kriminal təhlükələrin mahiyyəti ondan ibarətdir ki, bəzi insanlar asan yolla, zəhmət çəkmədən, heç bir ictimai, fiziki, zehni fəaliyyət (təbii ki, qanun çərçivəsində) göstərmədən mənfəət əldə etmək istəyirlər. Qanuni yolla mənfəət əldə etmək daha çox zəhmət tələb etdiyindən belə insanlar asan yolla gəlir əldə etmək məqsədi ilə kriminal

üsullara əl atırlar. Kriminal təhlükələrin yaranmasına səbəb olan amillər iki qrupa bölünür:

1. Xarici təsir amilləri:

- beynəlxalq səviyyədə terrorizmin geniş yayılması;
- qonşu ölkələrdə sosial, iqtisadi, siyasi qeyri-sabitliyin mövcudluğu, həmçinin bəzilərində silahlı münaqişələrin yaranması;
- xarici xidmət orqanlarının və ya terrorçu təşkilatların ölkə ərazisində pozucu fəaliyyəti;
- ölkə ərazisinə giriş-çıxışın kifayət qədər nəzarət altında olmaması;
- ölkə ərazisinə qadağan olunmuş kontraband məhsulların daxil olmasını təmin edən qeyri-leqal kanalların mövcudluğu;
- ölkədən kənar mühacirətdə olan siyasi fəaliyyət göstərən diasporanın və ya qurumların fəaliyyəti.

2. Dolayı təsir amillərinə isə aşağıdakılar daxildir:

- ölkə daxilində leqal və qeyri-leqal silah satışının mövcudluğu, silah əldə etməyin rahatlığı;
- hərbi təlim keçmiş ölkə vətəndaşlarının işsizliyi və onların sosial problemlərinin mövcudluğu;
- ölkənin hüquq-mühafizə orqanlarının fəaliyyətinin zəifləməsi və bu sahədə korrupsiyanın artması;
- ölkə ərazisində ekstremist qrupların mövcudluğu və onların fəaliyyətinə dövlət orqanlarının nəzarət edə bilməməsi;
- əhalidə müdafiəsizlik hissinin kəskinliyi;
- ölkə ərazisində keçmiş cinayətkarların qrup şəklində birləşib fəaliyyət göstərməsi.

Təsərrüfat fəaliyyətində baş verən cinayətlərlə digər cinayətlər arasında fərqlər mövcuddur. Təsərrüfat fəaliyyətində baş verən cinayətlər üç qrupa bölünür:

1. Səbəbindən, mülkiyyətin sahibinin kimliyindən asılı olmadan sahibkarın maraqlarına ziyan vurmaq məqsədi ilə törədilən cinayətlər;
2. Sıravi vətəndaşların, eləcə də xalq təsərrüfatının təşkilinə qarşı vurulan ziyan xarakterli cinayətlər;
3. Həm dövlətin, həm də vətəndaşların maraqlarına ziyan vurulması ilə baş verən cinayətlər.

Fəaliyyət dairəsinə görə təsərrüfat cinayətləri aşağıdakı kimi təsnifləşdirilir:

1. Biznes mühitində törədilən cinayətlər;
2. İnhisarçılıq əlehinə və başqa qanunların pozulması ilə törədilən cinayətlər;
3. Alıcı hüquqlarının pozulması ilə bağlı törədilən cinayətlər;
4. Vergi məsələləri ilə bağlı cinayətlər;
5. Valyuta sferasında törədilən cinayətlər;
6. Bank-kredit və s. sahədə törədilən cinayətlər;
7. Beynəlxalq ticarət əməliyyatlarında törədilən cinayətlər və s.

# FƏSİL 3. BİZNESDƏ RİSKLƏR VƏ ONLARIN TƏSNİFATI

## 3.1. Risk anlayışı və onun mahiyyəti

İnsanlar bütün yaşadığları müddətdə daim risk altında olurlar. Onlar çox vaxt bu risklərin fərqinə belə varmırlar.İnsan həyatı risklərlə doludur. Bu risklər o qədər sonsuz saydadır ki, onun hər birini nəzərə alıb qərar qəbul etmək praktiki olaraq mümkün deyil.Digər tərəfdən bu risklərin çoxunun baş vermə ehtimalı da o qədər kiçikdir ki, onları nəzərə almamaq da olar.

Məsələn: Biz hər gün işə getmək məcburiyyətindəyik və bu zaman hansı riskləri edirik? liftdən istifadə etdikdə liftin trosunun qırılması ehtimalı,binaların arasından keçdikdə yuxarıdan başımıza hər hansı bir əşyanın düşməsi ehtimalı, yolda gedərkən avtomobil qəzası ehtimalı,yolu keçərkən qarlı havada sürüşüb yıxılma ehtimalı mövcuddur və beləliklə xeyli risk etmiş oluruq. Lakin bu ehtimallar çox aşağı olduğundan insanlar belə riskləri nəzərə almırlar.

Biznes və sahibkarlıq fəaliyyətində də çoxlu sayda risklər mövcuddur. Ona görə də əvvəlcə riskinnə olduğunu,onun necə yarandığını, yaranma səbəblərini və s. aydınlaşdıraq.

Ümumiləşdirilmiş şəkildə desək risk birbaşa təhlükə ilə bağlı olan bir amildir.Əgər hər hansı bir təhlükə yoxdursa, deməli burada risk də yoxdur. Beləliklə, risk təhlükələrin nəticəsi kimi təzahür edir.

Buradan aydın olur ki, insanlar təhlükənin baş verə biləcəyini ehtimal edərək,onu bilərək riskə gedirlər.

Riskin bir neçə tərifi mövcuddur.Bunlardan bəzilərini araşdıraq:

1. Risk hər hansı bir arzuolunmaz hadisə və ya təhlükə ehtimalı ilə bağlıdır;

2. Riskli vəziyyət əlverişsiz şəraitin mövcudluğu ilə bağlıdır.

Lakin ümumiləşdirilmiş formada riskin təhlükə ilə bağlılığını nəzərə almaq və riskə aşağıdakı kimi tərif vermək olar:

Risk – insanların qarşıda müəyyən bir təhlükənin olduğunu bilərək məqsədə doğru fəaliyyətlərini davam etdirmələridir. Biznes və sahibkarlıq fəaliyyətində sahibkarların əsas vəzifəsi riskdən yayınmaq deyil,riskin baş vermə ehtimalını qiymətləndirib onu idarəetməkdən ibarətdir. Məlum olduğu kimi risk hər hansı arzuolunmaz hadisə, uğursuzluq və ya təhlükə ehtimalı ilə bağlıdır.Bu hadisələrin mövcudluğu isə “riskli vəziyyət” adlanır.Riskli vəziyyət əlverişsiz şəraitin mövcudluğudur.

Bütün bunları nəzərə alaraq risk anlayışını hər hansı bir istiqamətlənmiş fəaliyyətin son nəticəyə çatmasına törədilə bilən maneəçiliklərin ehtimal dərəcəsi kimi də qiymətləndirilə bilər.

Riskli vəziyyət əsasən aşağıdakı üç amillə şərtləndirilir:

1. Qeyri-müəyyənlik;
2. Alternativ variantların seçilməsi;
3. Seçilmiş alternativlərin dəyərləndirilməsi.

Onu da qeyd edək ki, riskli vəziyyət qeyri-müəyyənlikdən mahiyyət etibarı ilə xeyli fərqlidir.Qeyri-müəyyənlikdə hadisələri dəyərləndirmək və qərar qəbul etmək praktiki olaraq mümkün deyil,çünki əldə heç bir informasiya yoxdur və vəziyyət qeyri-müəyyəndir.Lakin riskli vəziyyətdə hadisələrin nəticələrini görmək mümkündür və əldə kifayət qədər məlumat var,lakin fəaliyyət istiqamətində təhlükələr də mövcuddur.Buna baxmayaraq qərar qəbul etmək mümkündür.

Biznesin istənilən formasında risk etmədən müvəffəqiyyət əldə etmək mümkün deyil.Biznes birbaşa risklə bağlı olan fəaliyyətdir və risk işin başlanğıcından mövcuddur.Hansı biznesmen risk etmirsə, o fəaliyyətini dayandırmış olur və demək olar ki, qısa müddətdən sonra iflasa uğrayır.

Lakin onu da qeyd etmək lazımdır ki,risk itki etimalıdır, planda nəzərdə tutulmuş, ehtimal olunan mənfəətin əldə olunmamasıdır.Riskləri müxtəlif əlamətlərinə görə təsnifləşdirmək olar:

1. Əmələ gəlmə, yəni yaranma səbəblərinə görə risklər.Belə risklər də öz növbəsində iki yerə bölünür:

a)İnsanın şəxsiyyəti ilə bağlı olan təsərrüfat riskləri;

b)Təbii amillərlə bağlı olan risklər.

2.Başvermə səbəblərinə görə risklər:

a)gələcəyin qeyri-müəyyənliyi ilə bağlı olan risklər;

b)informasiya çatışmazlığından yaranan risklər;

c)tərəfdar davranışlarının proqnozlaşdırılmasının nəticəsindən yaranan risklər.

Biznes fəaliyyəti daimi inkişafı tələb edən fəaliyyətdir. İnkişaf artdıqca təbii olaraq bazarda rəqabət

də güclənir və hər bir firma yeniliklər axtarmaq məcburiyyətində qalır.Hər bir yeniliyin tətbiq olunması isə yeni risk mənbəyi kimi çıxış edir.Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, biznes inkişaf etdikcə risk ehtimalları da mütənasib olaraq artmağa başlayır.

Biznes fəaliyyətində riskdən qaçmaq fəaliyyəti zəiflədir.Ona görə də biznes fəaliyyətində riski mümkün hallarda qəbul etmək lazımdır.Lakin riski qəbul edərkən hadisələri proqnozlaşdırmaq,baş verə biləcək nəticələri qiymətləndirmək, yol verilə bilən, yaxud mümkün risk həddini keçmədən qərar qəbul etmək lazımdır.Bu məsələlərin həll olunması isə riskin təhlili ilə bağlıdır.Riskin təhlili risk mənbələrinin,onun səbəblərinin aşkarlanması ilə bərabər,hansı mənbənin üstünlük təşkil etməsinin aşkarlanmasını müəyyənləşdirməyə imkan verir.

Təhlil nəticəsində mümkün ola bilən itkilərin həcmi,gəlirlərin miqdarı və onların müqayisə edilməsi mümkün olub-olmadığı aşkarlanır və müvafiq qərarların qəbul olunmasına imkan yaranır.

Təhlil və hesablamalara əsaslanmayan, ani qəbul edilən risklər ağır maliyyə itkilərinə gətirib çıxara bilər.Lakin düşünülmüş və hərtərəfli təhlil olunmuş, dəqiq informasiyalara əsaslanan risklər çox vaxt,demək olar ki, əksər hallarda uğurla nəticələnir.

Bəzən risk biznesmenin və ya sahibkarın qəbul etdiyi intuitiv qərarlara əsaslanır.Bu elə risklərdir ki, əldə heç bir informasiya yoxdur və ya informasiyalar çox azdır.İntuisiya insanların öz hissiyyatlarına əsaslanan hiss etmə qabiliyyətidir.Bu da mütəxəssislərin və ya sahibkarın uzun illər fəaliyyət təcrübəsinin və ya fərdi biliyinin təza-

hürüdür.Risk hər hansı bir hadisənin baş verməsi ehtimalıdır.Hər bir biznesmen onun edə biləcəyinə müvafiq formada risk edir.

Hər bir sahibkar fəaliyyətində risk etməyin həddini bilməklə bərabər, həm də biznes sahəsini yaxşı biməlidir ki, harada, nə qədər risk etməyin mümkün olduğunu dəyərləndirə bilsin.

Məsələn:Avtomobilin altına düşmək təhlükəsindən ehtiyatlanaraq küçəni keçməkdən imtina etmək olmaz.Lakin yol hərəkəti qaydalarını bilərək piyada keçidindən, svetaforun icazəsi ilə küçəni təhlükəsiz keçmək mümkündür.

Biznesin idarə olunmasında risklərin hansı səviyyədə itkilər yarada biləcəyi ehtimalı qiymətləndirilir.Hər hansı biznes fəaliyyətini həyata keçirərkən layihələndirmə və ya planlaşdırma mərhələsində sahibkar itki ehtimallarını qabaqcadan görməli, qiymətləndirməli və hesablamalıdır.Təbiidir ki, bu hesablamaların nəticəsi olaraq əldə olunan gəlirdən itki həddinin yüksək olması aşkarlanarsa onda sahibkar bu biznes fəaliyyətindən əl çəkməlidir.

Qeyd etmək lazımdır ki, digər planlaşdırma formalarında olduğu kimi risk strategiyasında da "qızıl orta" nəzəriyyəsinin tətbiq olunması məqsədəuyğun hesab edilir. Risk dərəcəsini fəaliyyətin daha az təhlükəli və ya məqsədəuyğun variantını seçməklə, mümkün əməliyyatları diqqətlə tədqiq etməklə aşağı salmaq mümkündür. Riskdən həmişə yayınmaq mümkün deyil. Lakin mümkün riskləri qabaqcadan görmək, onu öyrənmək və ən aşağı səviyyəyə salmaq mümkkündür.Risk dərəcəsi natural və

yaxud dəyər ifadəsi ilə ölçülən mümkün itkilərin mütləq və nisbi həddi ilə qiymətləndirilir.

Biznes fəaliyyətində risk itkiləri aşağıda qeyd olunan formalara bölünür:

1. Əmtəə ehtiyatları, maddi resurlar və vaxt itkiləri;
2. Əmək və pul şəklində olan itkilər.

Onu da qeyd etmək lazımdır ki, itkilərin bir sıra növləri vardır ki,onlar əhalinin həyat və sağlamlığına,ekologiyaya, sahibkarın nüfuzuna zərər gətirilməsi şəklində meydana çıxır,xoşagəlməz sosial və mənəvi-psixoloji nəticələrə gətirib çıxarır.Belə itkilərin gəlir, yaxud pul ifadəsi ilə dəyərləndirilməsi mümkün deyil.

Risk həddi sahibkarın bütün əmlakının dəyərini ötüb keçərsə və sahibkar bu riski qəbul edib fəaliyyəti davam etdirərsə belə riskləri "fəlakətli risk" adlandırmaq olar. Real olaraq bu o deməkdir ki,sahibkar bu zaman təkcə əməliyyata qoyduğu vəsaitlə yox, o bütün əmlakı ilə risk etmiş olur.

Risk kateqoriyalarının keyfiyyət təyin etmələrindən hər biri onun kəmiyyət parametrlərinin xarakteristikalarına uyğun gəlir.Belə göstəricilər aşağıdakılar ola bilər:

1. İtkinin müəyyən hədd səviyyəsi ehtimalı;
2. İtkinin müəyyən olunmuş həddən yuxarı səviyyədə olması.

Biznes fəaliyyətində riskin mümkünlüyünün və məqsədəuyğunluğunun haqqında qərar qəbulu zamanı müəyyən itki həcminə əsaslanmaq düzgün deyil.Nəzərdə saxlamaq lazımdır ki, əslindəhesablamalardan kənar, nəzərə alınmayan və qəflətən meydana çıxa bilən hadisələrin də baş verməsi mümkündür. Ona görə də riskin hesablan-

ması zamanı aşağıdakı şəkildə göstərilmiş müəyyən itkini üstələyən ehtimal əyrisinin də nəzərə alınması vacibdir(şəkil2).




Riskin qiymətləndirilməsi sahibkarın şəxsi keyfiyyətlərindən, onun idarəetmə bacarığından,iş təcrübəsindən,savadından və qərarqəbuletmə keyfiyyətlərindən asılıdır.Biznesmenlərin riskə getmək meylliliyi onların şəxsi xarakterindən asılı olmaqla,seçdiyi fəaliyyətə inamının yüksəkliyindən və ya zəifliyindən asılıdır.

## 3.2. Risklərin növləri.

Öz təbiətinə,fəaliyyət sahəsində və risk dərəcələrinə görə biznes sahəsində risklər müxtəlif formada sinifləndirilirlər.Təbiətcə risklər üç qurupa bölünürlər və bunlar aşağıdakılardır:

1.Ölkədə inflyasiyanın səviyyəsindən, bazar rəqabətindən,statistik tədqiqatlardan və ekoloji vəziyyətdən asılı və ya bu kimi amillərlə bağlı olan risklər mövcuddur ki,bunlar şirkətin özündən asılı deyil;

2.Firma və müəssisələrdə istehsal imkanları,məhsulun keyfiyyəti,texnoloji ixtisaslaşmanın səviyyəsi, həmçinin firmada əməyin təşkili ilə bağlı ortaya çıxa bilən risklər.Belə risklərin dəyərləndirilməsi subyektiv qiymətləndirilmələr əsasında baş verir,çünki yuxarıda qeyd olunanlar firmanın öz fəaliyyəti və ehtiyat resursları ilə bağlıdır;

3.Alternativlərin seçilməsi və reallaşdırılması əsasında həm obyektiv, həm də subyektiv ehtimalların mövcudluğu.

Yuxarıda bu risklərin müxtəlif amillərə görə yaranmasının şahidi olduq.Lakin risklər təkcə yaranma amillərinə görə fərqlənmirlər.Qeyd edək ki,risklər həmişə eyni vaxtda və eyni yerdə yaranmırlar.Onlar gözlənilmədən müxtəlif zaman kəsiyində mövcüd olurlar.Ona görə də riskləri bu baxımdan aşağıdakı kimi təsnifləşdirmək olar:

1. <u>Yaranma vaxtına görə:</u>

a) retrospektiv risklər;

b) cari risklər;

c) perspektiv risklər.

2. Yaranma amillərinə görə:

a)siyasi risklər;

b)iqtisadi və ticarət riskləri.

Onu da qeyd edək ki,fəaliyyət sahəsinə və digər amillərə görə riskləri müxtəlif növlərə bölmək olar:

1. İstehsal prosesi ilə bağlı olan risklər.Bu risklər müəssisələrin fəaliyyətində bu və ya digər səbəbdən yarana bilən əmtəə, xidməti və istehsal ilə bağlı yaranan risklərdir.İstehsal risklərinin mənbələri əsasən aşağıdakı amillərlə bağlıdır:

a) nəzərdə tutulan istehsal həcminin aşağı düşmə ehtimalı.Belə risklərin də yaranma səbəbləri müxtəlif amillərdən asılıdır.Məsələn istehsalın səviyyəsinin aşağı düşməsinə səbəb xammal çatışmazlığı, və ya digər səbəbdən nəzərdə tutulan planın yerinə yetirilməsinin qeyri-mümkünlüyü ola bilər

b) material  və yaxud digər istehsal xərclərinin artması.Belə hallar valyuta kurslarının dəyişməsi,xarici ölkələrdə xammalın qiymətinin artması,rüsumların artması və s.kimi gözlənilməz hadisələrlə bağlıdır.

c) artırılmış vergi tutumlarının ödənilməsi.Təbiidir ki,gözlənilmədən vergi tutumlarının artması firmanın maliyyəsinin bölüşdürülməsinə birbaşa təsir göstərir.Bu halda xammal xərcləri və əmək haqqının ödənilməsi və s. proseslərdə problemlər yaranır və bu istehsala mənfi təsir göstərir.

2.Kommersiya fəaliyyətində risklər.Bu risklər əmtəə və xidmət sahələrində satış prosesində yarana bilən risklərdir.Kommersiya riskində ən çox yayılmış risk formaları aşağıdakılarla bağlıdır:

a) satışda olan analoji əmtəə qiymətlərinin yüksəlməsi;

b) əmtəələrin alqı-satqısında aralıq proseslərdə əmtəə itkisinin baş verməsi;

c) əmtəələrin alqı-satqısı zamanı tədavül xərclərinin yüksəlməsi;

d) kommersiya fəaliyyətində bu və ya digər səbəbdən satış həcminin aşağı düşməsi.

3.Maliyyə riskləri. Biznesin idarəedilməsində maliyyə riskləri borc vəsaitlərinin biznesmenin şəxsi vəsaitlərinə nisbətindən asılıdır. Qeyd etmək lazımdır ki,əgər borc vəsaitlərinin biznesmenin şəxsi vəsaitlərinə nisbəti nə qədər böyük olarsa,onda biznesmenin maliyyə riski daha yüksək olar.Göründüyü kimi hər bir biznesmen çalışmalıdır ki, borc vəsaitlərinin həcmi mümkün qədər aşağı olsun. Belə olduqda sahibkarın əlində vəsaitin toplanması daha rahat olur. Çünki, o, gəlirdən borcun ödənilməsinə az vəsait ayırır.Əldə olunan gəlirin borca sərf olunmasının əvəzinə biznesin inkişafına sərf edə bilir.

4.Kredit riskləri. Kredit riskləri alınmış borcların qaytarılmasında yaranan təhlükə amilləri ilə şərtlənir.

Təbiidir ki,kredit alınarkən onun qaytarılması maliyyənin planlaşdırılmasında öz əksini tapır.

Lakin çox təəssüf ki, bəzən qarşıya qoyulan məqsədə çatmaq mümkün olmur, yəni gözlənilən nəticələri həmişə əldə etmək olmur.

Risk etmək hər hansı bir fəaliyyət nəticəsində itkiyə uğramaq ehtimalının mümkünlüyüdür.Biznes fəaliyyəti ilə məşğul olan hər kəs aydın məsələdir ki, çox şeylə risk et-

miş olur.Lakin sahibkarlar və biznesmenlər daha çox riski iki halda etmiş olurlar.

1. Biznes fəaliyyətinə başladıqda hər hansı bir ideyanın həyata keçirilməsi haqqında qərar qəbul etdikdə;

2.Biznes fəaliyyətinin təmin olunması üçün lazım olan maliyyə vəsaitlərinin əldə olunması üçün öhdəliklərə imza atdıqda.

Bir şeyi yadda saxlamaq lazımdır ki, risk onun dəqiq proqnozlaşdırılmasını və idarə edilməsini tələb edir.Ona görə də biznesin idarəedilməsində risklərin düzgün qiymətləndirilməsi üçün biznesmenlər ilk növbədə ideyanın özünü və biznesmenin onu həyata keçirmək imkanlarını dəyərləndirməlidir.

Biznesmenləri risk etməyə vadar edən səbəbləri araşdırsaq, bu səbəbləri böyük bir qrup formasında sinifləndirmək mümkündür:

1.Təşkilatın idarə olunması ilə bağlı səbəblər;

2.Biznesmenlərin fərdi xüsusiyyətləri ilə bağlı olan psixoloji səbəblər.

Biznes fəaliyyəti ilə məşğul olan sahibkarlar adətən aşağıdakı hallarda daha çox risk edirlər:

1.Firmalara böyük sifarişlər təklif olunduqda.Bu zaman sifarişlərin qəbulu üçün əlavə texniki vasitələr,işçi qüvvəsi,istehsal və ehtiyatların alınması tələb olunur;

2.Firmaya əlavə işçilər cəlb etdikdə.Belə ki,firmaya yeni əməkdaşlar cəlb edildikdə əmək haqqı ödənilməsinə və sığortalamanın bütün növlərinin tətbiq edilməsinə ehtiyac yaranır;

3.Yeni istehsal fəaliyyətinə başladıqda və mövcud istehsalı genişləndirdikdə.Yeni istehsalın başlaması üçün

yeni avadanlıqların alınması və yeni işçilərin cəlb olunması tələb olunur ki, bunların hər biri yeni risklər yaradır.İstehsalın genişləndirilməsində isə həmin risklər ortaya çıxır;

4.Rəqabət prosesində.Hər kəs öz biznesi ilə əvvəlki vəziyyətdə davam edərkən o heç kəsin diqqətini cəlb etmir,sadəcə öz işi ilə məşğul olur.Lakin firma yeni bazara daxil olduqda, o rəqabət aparmaq məcburiyyətində qalır və öz rəqiblərinin diqqətini çəkir.Təbiidir ki, rəqabət buna reaksiya verməK məcburiyyətindədir.Ona görə də firma bu rəqiblərlə mübarizə aparmaq riskini "qazanmış" olur.

## 3.3.Risklərin əsas cəhətləri

Biznesin idarə edilməsində meydana çıxan risklərin əsas xüsusiyyətlərinin bilinməsi vacib amillərdəndir. Risklərin əsas və xarakterik cəhətləri aşağıdakılardır:

1.Ziddiyyətlilik xüsusiyyəti;

2.Alternativlik xüsusiyyəti;

3.Qeyri-müəyyənlik xüsusiyyəti.

Ziddiyyətlilik xüsusiyyəti dedikdə, mövcud olan real riskli hərəkətlər və həmin risklərin sahibkar biznesmenlər tərəfindən subyektiv qiymətləndirmələri arasındakı ziddiyyət başa düşülməlidir. Müasir dövrümüzdə elm və texnikanın inkişafı ilə bağlı ictimaiyyətə təsir göstərən yeni fəaliyyət sahələrinin meydana gəlməsi ilə bərabər yaranan yeni təşəbbüslərlə yanaşı, təbii olaraq mühafizəkarlıq,ehkamçılıq,subyektivizm kimi meyllər də qalmaqdadır ki, bu da ziddiyyətliliyin əsasını təşkil edir.

Riskin varlığının, ifadə formasının, həm də onun tərkibinin yekcins olmaması risklərin meydana gəlməsinin qeyri-müəyyənliyi ilə bağlıdır.

Biznes mühitinin xarici aləmdə qeyri-müəyyənliklərlə əhatə olunması (iqtisadi,siyasi,sosial və s) hərəkətlərin və fəaliyyətin münasib, yaxud olduğu kimi dəyərləndirilməyən bir sıra dəyişən kəmiyyətlərin, tərəfdaşların qarşılıqlı təsiri altında həyata keçirilməsi risklərin qeyri-müəyyənliklərinin əsas səbəblərindən sayıla bilər.

Yaranma mənbəyinə görə risk insan fəaliyyəti və düşüncə tərzi ilə bağlı olmaqla təbii amillərlə şərtlənən təsərrüfat fəaliyyəti kimi,yaranma səbəbinə görə isə gələcək tərəfdaşlarının hərəkətlərinin qeyri-müəyyənliyinin və əldə olan informasiyaların yetərsizliyinin nəticəsi kimi qiymətləndirilir.

Risklərin alternativliyi bilavasitə qəbul olunan qərarların,müəyyənləşdirilmiş istiqamətlərin, fəaliyyətin iki və ya daha çox mümkün variantların içərisindən seçilməsi imkanı ilə bağlıdır.

Əgər seçim etmək imkanı mövcud deyildirsə, onda riskli vəziyyət də olmur və buradan belə nəticə çıxır ki, risk də yoxdur.

Qeyri-müəyyənlik idarəetmə prosesində qərar qəbul edilmək üçün nə obyektin hazırki vəziyyəti, nə də gələcəkdə gözlənilən hadisələr haqqında əldə kifayət qədər məlumatın olmaması, yaxud məlumatların natamamlığı və ya qeyri-səlis məlumatların əldə edilməsi ilə bağlıdır.

## 3.4.Risklərin əsas mənbələri

Risklərin əsas yaranma səbəbləri haqqında yuxarıda xeyli məlumat vermişdik. Risklərin mənbələri isə əsasən qeyri-müəyyənlikdən yaranan hadisələrdir. Risklərin əsas yaranma mənbələri isə aşağıdakılardır:

1.Baş verən hadisələrin və proseslərin qeyri-müəyyənliyi;

2.Baş verən hadisələrin qabaqcadan proqnozlaşdırıla bilməməsi və hadisələrin təsadüfiliyi;

3.Müəyyən ziddiyyətli maraqların toqquşmasının nəticələri.(müharibə, milli və ya ölkələrarası münaqişələrin baş verməsi);

4.Elmi-texniki tərəqqi nəticəsində yeni kəşflərin meydana çıxması və nəticələrin biznes fəaliyyətinə kəskin təsiri;

5.Baş verən proseslər haqqında məlumatların yetərsizliyi və ya natamam olması;

6.Qərar qəbulu zamanı və ya işin icrası prosesində maddi,maliyyə,əmək vəsaitlərinin məhdudluğu və yetərsizliyi;

7.Elmi-tədqiqatların mövcud vəziyyəti və tədqiqat metodlarının birmənalı olaraq öyrənilməməsi;

8.İnsan qavrayışının məhdudluğu, amal, məqsəd, qayə, niyyət, dəyərləndirmə kimi amillərdə və fərdi yanaşmalarda olan fərqlərin riski daha da artırması;

9.İnsan amilindən başqa yuxarıda adları çəkilən amillərin qarşılıqlı təsirinin nəticələri;

10.İnsan fəaliyyətinin nəticəsində müəyyən mənada qeyri-müəyyənliyin aradan qaldırılması və ya layihənin dəyişdirilməsi;

11.Lahiyələrin yerinə yetirilməsi və yaxud qərarların qəbul olunması dövründə meydana çıxa bilən risklər.

## 3.5.Siyasi və iqtisadi risklər

Biznesin idarə edilməsində proqnozlaşdırılması çətin və mürəkkəb, eyni zamanda qeyri-müəyyən olanı siyasi risklərdir.

Ölkə səviyyəsində siyasi risklər ölkə iqtisadiyyatının tənzimlənməsi,büdcə kəsrlərinin doldurulması və s.məqsədlərlə lisenziyalaşdırma, idxal və ixracın tənzimlənməsi,kvota tətbiq olunması və s. kimi amillərlə bağlı proseslərlə əlaqəli ola bilər.

Digər məsələ isə sahibkarın vətəndaşı olduğu ölkənin iqtisadi əlaqədə olduğu ölkə ilə siyasi qarşıdurma,geosiyasi gərginlik yaranması ilə bağlı münasibətlərin pozulması nəticəsində risklər yarana bilər.

Ölkədən xaricdə baş verə bilən siyasi təhlükələr, beynəlxalq vəziyyətin gərginləşməsi, hərbi müdaxilələrin baş verməsi,tərəfdaş ölkənin siyasi kursunun dəyişməsi,ticarət aparılan ölkəyə embarqo tətbiq edilməsi, beynəlxalq valyuta kurslarının dəyişməsi və s.amillərin təsiri altında yarana bilir.Təbiidir ki,siyasi risklərin proqnozlaşdırılması çox çətin və mürəkkəb bir prosesdir.Burada baş verən hadisələr bəzən gözlənilmədən,bəzən isə uzun illər ərzində tədricən baş verir.Ölkə miqyasında sabitliyin pozulması, tətillərin və mitinqlərin baş verməsi,inflyasiya həddinin

artması, hakimiyyət dəyişikliklərinin baş verməsi, bəzən də vətəndaş müharibələrinin ortaya çıxması kimi amillərlə müşayət olunur.Vergi qanunvericiliyində baş verən əks təsir dəyişiklikləri də iqtisadiyyatda siyasi gediş kimi qiymətləndirilməli və siyasi risklərə daxil edilməlidir.

İqtisadi risklər istehsal, kommersiya, maliyyə, vasitəçilik və s. amillərlə bağlı olmaqla formal olaraq aşağıdakılara bölünür:

1.Daxili risklər - bu risklər müəssisələrin istehsal fəaliyyəttində baş verən risklərdir;

2.Təşkilati risklər - idarəetmə fəaliyyətində yaranan risklərdir;

3.Ehtiyat riskləri - ehtiyatların əldə edilməsi və təchizatla bağlı olan risklərdir;

4.Zərf riskləri-maliyyə,qiymətli kağızlarla müəssisəyə qoyulmuş səhmlərlə bağlı olan risklərdir;

5.Kredit riskləri - faizlə banklardan maliyyə ehtiyaclarının ödənilməsi üçün götürülən vəsait riskləridir;

6.İnnovasiya riskləri-biznesdə texnoloji və ya əmtəədə dəyişikliklərin aparılması prosesində baş verən risklərdir.

Qeyd etmək lazımdır ki,təşkilati risklər idarəetmə ilə bağlı risklərdir ki, buna səbəb aşağıdakılardır:

1.Aşağı təşkilat səviyyəsi:

- planlaşdırma və layihə səhvləri;
-işin əlaqələndirilməsindəki qüsurlar;
-tənzimləmənin zəifliyi;
-kadrlarla bağlı olan səhvlər.

2.Marketinq sistemində yaranan nöqsanlardan doğan risklər:

-məhsulun seçilməsində buraxılan səhvlər;
-əmtəənin keyfiyyətsizliyi;
-bazar həcminin səhv müəyyən olunması;
-qiymət siyasətinin səhv seçilməsi.

3.Maliyyə səbəbindən yaranan risklər:

-vəziyyətin dəyişməsi ilə bağlı ehtiyatlar üzrə dayanıqsızlıq;
-əmək müqaviləsinin olmaması;
-material çatışmazlığı;
-məhsul çatışmazlığı və s.

# FƏSİL 4. RİSKLƏRİN İDARƏ EDİLMƏSİ

## 4.1. Risklərin idarə olunmasının əsas prinsipləri

Riskin idarə edilməsi dedikdə, bu əsasən baş verə biləcək riskli proseslərin meydana çıxmasının qabaqcadan proqnozlaşdırılması yolu ilə onlardan yarana biləcək ziyanın aradan qaldırılması və ya bu ziyanın həddinin aşağı salınmasına imkan verən təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi kimi başa düşülməlidir.

Riskin idarə edilməsi fəaliyyət sahəsinin xüsusiyyətlərini daha dərindən bilən,bu sahədə uzun müddət çalışan və xeyli təcrübəyə malik olan,təsərrüfatçılıqda yarana bilən təhlükəli məqamlarda düzgün qərar qəbul etməyi bacaran, sığorta sistemini, idarəçilik psixologiyasını daha yaxşı bilən, peşəkar mütəxəssislərə etibar edilməlidir.

İdarəetmə fəaliyyətində hər bir sahibkar risklə mənfəətin optimal nisbətini təmin edən ən optimal variantı seçməyi bacarmalıdır.Onu da qeyd edək ki,daha mənfəətli layihələr,həmişə böyük risklərə bağlıdır.

Risklərin idarə olunmasının əsas prinsipləri isə aşağıdakılardan ibarətdir.

1. Əldə olan kapitalın imkan verdiyindən çox risk etmək olmaz;
2. Riskin nəticələrinin qabaqcadan düşünülməsi vacibdir;
3. Çox şeyi azın naminə qurban vermək,yəni riskə qoymaq olmaz.

Qeyd olunan prinsiplərdən belə nəticə çıxarmaq olar ki,əgər sahibkar hər hansı bir riskə getmək istəyirsə,onda o əlində olan vəsaitdən,yəni öz şəxsi mülkiyyətindən artıq

risk etməməlidir.Bunu belə izah etmək olar ki,əgər nəticə gözlənilən olmasa, yəni uğursuz olarsa, onda sahibkar yalnız öz əmlakını itirmiş olar və heç kəsə borclu qalmaz.Əks təqdirdə o, həm öz əmlakını itirər, həm də başqalarına borclu olaraq məsuliyyət daşımaq məcburiyyətində qalar.

İkinci prinsipin mahiyyəti ondan ibarətdir ki,biznesmen riskin nəticələrini qabaqcadan hesablamadıqda və düşünmədikdə,işin sonunda elə bir hadisə baş verə bilər ki,o əvvəlcədən məlum olsa idi, biznesmen bu riski qəbul etməzdi.

Üçüncü prinsipin mahiyyəti isə çox cüzi miqdarda gəlir əldə etmək üçün böyük məbləği riskə qoymaq düşüncəsiz hərəkətdir.Tutaq ki,ayda 100 manat gəlir əldə etmək üçün 10.000 manatlıq vəsaitin riskə qoyulması tələb olunur.Təbiidir ki,heç bir ağıllı sahibkar bu riski qəbul etməz.

Yuxarıda qeyd olunan prinsiplərin əsasında riskin idarə olunmasınınəsas üsullarını qeyd etmək olar:

1. Riskdən yayınmaq;
2. Risk dərəcəsini aşağı salmaq;
3. Riski olduğu kimi qəbul etmək.

Riskdən yayınmaq risklə bağlı olan həmin layihədən, riskin qəbuledilməz olduğunu əsaslandıraraq imtina etmək deməkdir.Belə qərarlar yuxarıda qeyd etdiyimiz prinsiplər gözlənilmədikdə,yəni mümkün olan itkilərin həcmi gəlirdən yüksək olduqda qəbul edilir.

Riskin dərəcəsini aşağı salmaq dedikdə, riskin paylaşdırılması, yəni riskin tərəfdaş, yaxud şəriklərlə bölüşdürmək kimi başa düşülməlidir.

Riskin olduğu kimi qəbul edilməsiisə heç bir tədbir (sığortalama, riskin azaldılması və s.) görmədən riskə getmək kimi anlaşılmalıdır.

Onu da qeyd edək ki,bu prinsip qeyri müəyyənlikdən və mümkün itkilərdən yaxa qurtarmağa imkan verir.

## 4.2. Kəmiyyət və keyfiyyət amillərinin təhlili

Məlumatlar keyfiyyət və kəmiyyət baxımından mühüm əhəmiyyətə malikdirlər.Yəni əldə olunan məlumatların keyfiyyətli olması,obyekt haqqında dəqiq,düzgün və kifayət qədər məlumatın toplanması idarəetmə prosesində, eləcə də risklərin idarə olunmasında vacib əhəmiyyət kəsb edir.

Keyfiyyət təhlili dedikdə, risklərin mənbələrinin, meydana gəlmə səbəblərinin aşkarlanması,yarana biləcək yeni risklərin müəyyənləşdirilməsi,riskin ortaya çıxdığı mərhələlər, risklə bağlı qəbul edilən qərarlar, görülən işlərin aydınlaşdırılması və sair məsələlər haqqında yekun fikrin formalaşdırılması başa düşülür.

Keyfiyyət təhlili zamanı təkcə layihəni təhdid edən bütün risk növlərinin müəyyənləşdirməsi, qəbul edilən qərarların nəticələri, riskli hadisələrin baş verməsini müşayət edən ehtiyat itkilərin də aşkar edilməsi mümkün deyil. Keyfiyyət təhlili kəmiyyət təhlili aparmaq üçün zəruri ilkin məlumatlardır.

Kəmiyyət təhlili risklərin keyfiyyət təhlilindən sonra aparılan təhlil olmaqla baş verə biləcək təhlükələrin, eləcə də riskin qəbul edildiyi halda risk ehtimallarının, itkilərinin, mənfəətin, itki və mənfəət amilləri arasındakı nisbətin kəmiyyətinin müəyyən edilməsi prosesidir.

Qeyd etmək lazımdır ki, kəmiyyət amillərinin tədqiqatı aparılmadan və nəticənin qəbul edilən olmadığı halda riskin qəbul edilməsi böyük fəlakətə,iqtisadi cəhətdən iflasa gətirib çıxara bilər

Riskin idarə olunmasının blok-sxemi aşağıdakı şəkildə əks olunmuşdur:

(şəkil 3)



Burada:

1. Məlumatın toplanması;
2. Risklərin keyfiyyət təhlili;
3. Risklərin kəmiyyət təhlili;
4. Riskin məqbulluğunun qiymətləndirilməsi;
5. Riskin azalması variantının seçilməsi;
6. Riskin azalması üsulları;
7. Riskin artması ehtimalı və seçim;
8. Nəticələrin ötürülməsi;
9. Riskin artırılmasında məqsədəuyğunluğun təyini;
10. Riskin artmasında məqsədəuyğun variantın seçilməsi;
11. Riskin azalması variantının seçilməsi;
12. Layihənin həyata keçirilməsi;
13. Layihədən imtina.

Kəmiyyət təhlili elə bir prosesdir ki,o ayrı-ayrı risklərin və tam bir şəkildə layihə qərarının rəqəmlə ifadə olunan qiymətinin müəyyənləşdirilməsinə xidmət edir.Bu mərhələdə risklərin nəticəsində baş verə biləcək hadisələrdən sonra nəticələrin dəqiq olması ilə limitləndirilmiş, yəni reallığa daha yaxın qiyməti ortalığa çıxır.

Eyni zamanda kəmiyyət təhlili birbaşa riskin qəbul edilməsinin mümkünlüyünün və ya imtina edilməni müəyyənləşdirməyə imkan verir.

### 4.3. Risklərin idarəedilməsində statistik və ekspert üsullarının tətbiqi.

Mahiyyət etibarı ilə statistik üsul istehsalatda gəlir və itkilərin dəqiq statistik uçotunun aparılması yolu ilə

iqtisadi nəticələrin həcmi və əldə olunma tezliyini müqayisə edərək gələcək üçün daha çox ehtimal olunan hadisələrin proqnozlaşdırılması metodudur.

Statistik üsulun əsas vəzifəsi tədqiq olunan obyektdə hər hansı bir parametrin orta qiyməti,dispersiya,standart (orta kvadratik), vurma, variasiya əmsalı, tətbiq olunan miqdarın (parametrin) paylanması ehtimaldır. Statistik üsu lun vasitəsi ilə əvvəllər baş vermiş təhlükələr və bunun nəticəsində itkilərin miqdarı, nəticələrin müqayisəsi yolu ilə ehtimalların təxmini müəyyənləşdirilməsi üsulu ilə risklərin proqnozlaşdırılması mümkün olur. Statistik üsuldan istifadə edərək biznesmenlər bəzi yeni məlumatları toplamaq və bəzi yeni analitik nəticələri,bir sıra baha başa gələn informasiyaları əldə etmək məcburiyyətində qalırlar. Bu üsulun köməyi ilə biznesmenlər proqnozlaşmada əvvəllər baş vermiş hadisələr nəticəsində olan itkilərin nəticələrinin müqayisəsini və səbəblərini araşdıraraq müəyyən bir nəticəyə gələ bilirlər.

Onu da qeyd etmək lazımdır ki, statistik üsulun köməyi ilə aparılan proqnozlaşdırmalar heç də istənilən hal da eyni nəticəyə gətirib çıxarmır.Yəni bu metodun köməyi ilə tam və əminliklə riskdən yayınmaq mümkün deyil.

Nəzərə almaq lazımdır ki, əldə edilən nəticələr müxtəlif istiqamətlərə də apara bilər.

Ekspert üsulunun mahiyyəti isə təcrübəli sahibkarların və ya aparıcı mütəxəssislərin tədqiqatlarının nəticəsi əsasında riskin kəmiyyət qiymətinin müəyyənləşdirilməsindən ibarətdir.

Bu üsul çox vaxt məlumatların natamamlığı və yaxud qüsurlu, qeyri-dəqiq olduğu, bəzən də əldə edilməsi

mümkün olmayan halda, həmçinin statistik üsuldan istifadə edilməsi qeyri-mümkün hallarda tətbiq olunur.Lakin bu üsulun da özünəməxsus çətinlikləri vardır.Belə ki, mütəxəssislərin dəyərləndirmələrinin qeyri-dürüstlüyü ehtimalı, mütəxəssislərin sorğulanmasının çətin və mürəkkəb olması, əldə edilən məlumatların müqayisəsində yaranan problemlər və s. məsələlər qərar qəbul edilməsində çox diqqət tələb edir.

Yuxarıda qeyd olunanları nəzərə alsaq, risklərin idarə edilməsində həm statistik, həm də ekspert üsullarından birgə istifadə olunması daha səmərəli nəticələrin alınmasına səbəb ola bilər.Qeyd etmək lazımdır ki, riskin ölçülməsi üsullarından biri də "gözlənilən qərarın ölçülmüş miqdarı"nın tətbiqidir.Bu halda hər bir nəticənin ehtimalı müvafiq miqdarın tezliyi və ya xüsusi çəkisi olaraq ifadə olunur.Burada qəbul edilən qərar bütün mümkün nəticələrin orta ölçülmüş miqdarı kimi təyin olunur. Risklərin idarə olunmasında tətbiq olunan üsullardan biri də riyazi ehtimala əsaslanan üsuldur.

## 4.4. Riskin minimuma endirilməsi mərhələləri və metodları

Risk dərəcəsini dəyərləndirməyin müxtəlif üsul və metodları vardır. Risk dərəcəsinin dəyərləndirilməsi zamanı risk cədvəlinin tərtib olunması və bu cədvəldən istifadə etəklə səmərəli nəticələr əldə etmək mümkündür. Risk dərəcələri riskin xarakterindən və sahibkarın risklərə münasibətindən, yəni onun risk etmək arzusundan asılı olaraq "minimum", "kiçik", "orta", "yüksək", "maksimum" və "təhlükəli" kimi dərəcələrə bölünə bilər. Burada

ilk üç dərəcə, yəni “minimum”, “kiçik”, “orta” dərəcələrinə uyğun gələn risklər optimal, yaxud məqsədəuyğun hesab olunur. Digər dərəcələr isə əvvəlkilərə nisbətən təhlükəli hesab olunur və dərəcəli riskləri qəbul etmək məqsədəuyğun hesab edilmir. Çünki bu risklər sonda ağır nəticələrə gətirib çıxara bilər.

Riskin ümumiləşdirilmiş, səmərəli və geniş yayılmış azaltma yolları qabaqlama və azaltma üsullarıdır ki, bu da aşağıdakı qaydada aparılır:

1. Sığortalama;
2. Vəsaitlərin toplanması;
3. Diversifikasiya;
4. Limitləmə.

Biznes fəaliyyətində son zamanlar təhlükəsizliyin təmin olunmasında biznesin sığortalanmasına daha çox üstünlük verilir. Məlum olduğu kimi sığortalama prosesləri aşağıdakılara bölünür:

1. Şəxsi sığortalama;
2. Əmlakın sığortalaması;
3. Məsuliyyətin sığortalanması.

Şəxsi sığortalama hər hansı bir fərdin həyatına, yaxud sağlamlığına, yəni onun fiziki sağlamlığına və ya onun bədən orqanlarından hər hansı birinə ziyan dəydikdə və ya bu orqan öz fəaliyyətini dayandırdıqda sığorta edən tərəfin müəyyən olunmuş məbləğdə vəsait ödəməli olduğunu özündə əks etdirir.

Əmlakın sığortalanmasının mahiyyəti isə ondan ibarətdir ki, sığortaçı tərəf sığorta edən tərəfə onun sığorta predmeti olan əmlakına bu və ya digər tərəfdən ziyan

dəydikdə sığorta edən tərəf müqavilədə göstərilən şərtə müvafiq olaraq ödəniş aparır.

Məsuliyyət sığortasının mahiyyəti ondan ibarətdir ki, biznes fəaliyyəti zamanı hər hansı bir təhlükə nəticəsində itkilər baş verərsə, o zaman bağlanmış müqavilə şərtlərinə uyğun olaraq (əgər bu şərtlər ödənilirsə) prosesi sığortalayan təşkilat müqavilə şərtlərinə uyğun olaraq itkidən dəyən ziyanı ödəyir. Qeyd etmək lazımdır ki, bəzən risk ehtimalı böyük olduqda sığortaçı tərəf, yəni sahibkar fəaliyyəti nəticəsində ödəyə biləcək ziyanın yarısını və yaxud daha az məbləğin ödənilməsi şərtləri ilə də müqavilə bağlaya bilər, yəni bu şərt altında da razılaşma baş verə bilər. Sığortanın başqa bir forması riskin, layihədə iştirak edən tərəfdaşların və yaxud layihəyə sərmayə qoyan bütün tərəfdaşların cəlb olunması yolu ilə riskin paylanması formasıdır. Riskin bu qaydada paylanması təbiidir ki, yalnız ilkin mərhələdə tətbiq oluna bilər. Belə risk paylaşması formasından adətən kommersiya fəaliyyətində istifadə olunur. Məlumdur ki, kommersiya fəaliyyətində bəzən firmalar minimum satış həcmi tətbiq edirlər. Bu zaman bəzi alıcıların ya bu həddə məhsul almağa vəsaitləri çatışmır, ya da onlar bu həcmdə əmtəə almağa risk etmirlər. Bu halda onlar başqa bir neçə alıcı da cəlb etməklə həm əmtəə alışını təşkil edirlər, həm də riski paylaşmış olurlar.

Diversifikasiya formasında riskin azaldılması bəzi sahibkarların müəyyən bir sahədə riskə getməklə vəsaitlərin qalan hissəsini bu sahəyə yox, bu sahə ilə əlaqəsi olmayan başqa sahələrin arasında paylamaqla bir neçə biznes sahəsində fəaliyyət göstərməsidir. Belə

olduqda sahibkar daha təhlükəli və riskli sahədə uğursuzluğa düçar olsa da, yerdə qalan sahələrdə əldə etdiyi uğurlar hesabına bu sahədəki itkinin əvəzini təmin edə bilirlər.

Riskin azaldılması yollarından biri də limitləmədir. Limitləmə riyazi limitləmənin riskə tətbiqidir. Bu risk dərəcəsinə şərait yaradan amillərin hər birinə yuxarıdan və aşağıdan məhdudiyyətlərin qoyulmasıdır. Sahibkarlar limitləmə metodundan əksər hallarda malların satışında, kredit verilməsində, borc vəsaitlərinin verilməsində və s. kimi hallarda istifadə edirlər. Mahiyyət etibarı ilə limitləmə riskin minimallaşdırılmasına yönəlmiş bir metoddur. Bu zaman risk həm yuxarıdan, həm də aşağıdan sıxılmaqla minimum həddinə yaxınlaşdırılır.

**Aşağıda risk cədvəli əks olunmuşdur: (cədvəl 3)**

| N | Riskin həcmi | Riskin dərəcələri |
|---|---|---|
| 1 | 0.0 – 0.1 | Minimum |
| 2 | 0.1 – 0.3 | Kiçik |
| 3 | 0.3 – 0.4 | Orta |
| 4 | 0.4 – 0.6 | Yüksək |
| 5 | 0.6 – 0.8 | Maksimum |
| 6 | 0.8 – 1.0 | Təhlükəli |

Aşağıda digər bir cədvəlin vasitəsi ilə isə statistik metodla itkilərin əmələgəlmə tezliyinə görə ehtimalın proqnozlaşdırılması əks olunmuşdur (Cədvəl 4).

**Mədaxil funksiyasında itkilər. (Cədvəl 4)**

| İtki səviyyəsi | Verilmiş səviyyədə hadisələrin sayı | Hadisələrin əmələgəlmə sıxlığı |
|---|---|---|
| 20-ə qədər | 7 | 0.23 |
| 20 – 40 | 10 | 0.33 |
| 40 – 60 | 5 | 0.17 |
| 60 – 80 | 4 | 0.13 |
| 80 – 100 | 3 | 0.10 |
| 100 – dən yuxarı | 1 | 0.03 |

Göründüyü kimi verilmiş itki səviyyəsində mövcud olan itkilərin sayını 7, baxılmış hadisələrin sayına 30 bölməklə itki səviyyəsinin əmələgəlmə sıxlığını tapmaq olur:

$$7:30=0.23$$

İnsanlar öz həyatlarında və biznes fəaliyyətində qərar qəbulu zamanı bütün riskləri nəzərə almağı bacarmalıdırlar. Lakin, buna baxmayaraq proqnozlaşdırmada və fəaliyyət dövründə elə təhlükələr meydana çıxa bilər ki, gözlənildiyindən daha çox itkilərin yaranması baş verə bilər. Bu iqtisadi tərəddüd müştərilərin zövqünün dəyişməsi, rəqib fəaliyyətindəki yeniliklər, gözlənilməz hökumət qərarları və s. ən düşünülmüş qərarı, ən dəqiq proqnozlaşdırmanı pis nəticələrə gətirib çıxara bilər.

## 4.5. Riskin azaldılması mərhələləri və metodları.

Riskin müəyyən qədərdə idarəetmə sahəsində özünü idarəetmədən istifadə etməklə bir hissəsini azaltmaq mümkündür. Özünü idarəetmədə xüsusi ehtiyat fondlarının yaradılması yolu ilə müəssisə bu fonda gəlirin bir hissəsini toplayır. Toplanmış vəsait riskli şəraitləri, başqa sözlə risk nəticəsində yaranan itkilərin bağlanmasında istifadə olunur. Bu bir həqiqətdir ki, firmada yaradılan ehtiyat fondu özü də firmanın maliyyəsi olduğu üçün itki hesab oluna bilər. Lakin bu fondun əhəmiyyəti ondan ibarətdir ki, risk nəticəsində yaranan itkinin yerini doldurmaq üçün firma vəsait axtarmır, borc götürmür, kreditə girmir və öz vəsaiti hesabına digər maliyyə mənbələrinə toxunmadan itkilərin yerini bərpa etmək imkanına malik olur. Müəssisə digər fondlardan istifadə etmir və qənaət məcburiyyətində qalmır. Dünya praktikasında riskdən yayınmanın bəzi metodları vardır ki,bunlara aşağıdakılar daxildir:

1. Xarici ticarət əməliyyatlarında sığortalamalar;
2. Müddətli valyuta sazişləri;
3. Valyuta risklərinin dövlət sığortası;
4. Minimum riskləri örtmək üçün ehtiyatların yaradılması.

Azərbaycan Respublikasında bu metoddan çox az istifadə olunur.

Müəssisələrin özünü sığortalama formalarından biri də opsionların buraxılmasıdır. Opsionlar öz sahibinə müəyyən zaman ərzində təsbit edilmiş qiymətə təyin olunmuş miqdarda qiymətli kağız və əmtəə almaq və ya satmaq hüququ verən kağızdır.

# FƏSİL 5. BİZNES FƏALİYYƏTİNDƏ TƏHLÜKƏSİZLİK XİDMƏTİNİN TƏŞKİLİ

## 5.1.Təhlükəsizlik xidmətinin funksiyaları və vəzifələri

Hər hansı bir biznes sahəsində təhlükəsizliyin təmin olunması sistemi, bu biznes sahəsinin fəaliyyət dairəsindən və onun maliyyə,yaxud istehsal sahəsinə müvafiq formada təşkil olunmasından asılıdır. Qeyd etmək lazımdır ki, istənilən biznes fəaliyyətinin təhlükəsizlik sistemini başqa bir firma və müəssisədə olduğu kimi tətbiq etmək kökündən yanlışdır.

Əgər biznes sahəsi çox kiçikdirsə,burada yalnız əmlakın mühafizəsi və ya ofisin mühafizəsinə ehtiyac ola bilər və xüsusi mühafizə şöbəsi yaradılması məqsədəuyğun deyildir.

Lakin biznes sahəsi böyük və əhatəlidirsə, onda təbii olaraq burada mühafizə xidməti xüsusi struktur şəklində təşkil olunmaqla bərabər,müasir texnika və avadanlıqlarla da təchiz olunmalıdır.Bu zaman təhlükəsizlik xidməti öz üzərinə bir sıra funksiyaları götürür ki, bu funksiyalar da əsasən aşağıdakı istiqamətlərdə təhlükəsizliyin təmin olunmasından ibarətdir:

1.Biznesin iqtisadi,maliyyə,rəqabət və sairə baxımdan təhlükəsizliyin təmin olunması. Bu məsələdə iqtisadiyyatı,biznesi,rəqabəti,maliyyənin idarə olunması üzrə mütəxəssislərə ehtiyac vardır;

2.Əmlakın, daxili intizamın,kənar təxribatların qarşısının alınması, iş zamanı təhlükəsizlik məsələlərinin təşki-

li və bu sahəyə nəzarət xüsusi hazırlığı olan mütəxəssislərə tapşırılmalıdır;

3. Firma rəhbərliyinin, kadr potensialının, aparıcı kadrların mühafizəsi və görüşlərin təşkili zamanı təxribatların qarşısının alınması, rəhbərliyin danışıqlarının dinlənilməsinin qarşısının alınması və s. kimi məsələlərin həlli üçün xüsusi xidmət təlimi keçmiş mütəxəssislərin cəlb olunması vacibdir.

Göründüyü kimi təhlükəsizlik xidmətinin funksiyaları çoxsaylıdır.Təhlükəsizlik xidmətinin funksiyalarını bir qədər xırdalamaqla əsasən aşağıdakılara bölmək olar:

1.Müəssisənin bina və otaqlarına buraxılış sistemini təşkil edir, obyekt daxilində nizam-intizam yaradır, mühafizəni təşkil edir, müəssisəyə daxil olan kənar şəxslərin rejimə tabeçiliyini təmin edir;

2.Kommersiya sirrinin qorunması ilə bağlı hüquqi və təşkilati məsələləri həll edir;

3.Müəssisənin nizamnamə,kommersiya sirri,daxili nizam-intizam qaydaları, əmək müqavilələri və s. kimi sənədlərin tərtib olunmasında yaxından iştirak edir;

4.Digər bölmələrlə birlikdə kommersiya sirri,maliyyə və s. kimi qorunması tələb olunan sənədlərin işlənməsini və təhlükəsizlik tədbirlərinin hazırlanması,həmçinin yerinə yetirilməsi şərtlərini müzakirə və təsdiq edir;

5.Məxfi informasiyaların sızması mümkün olan kanalları aşkarlayır,təhlükəsizlik rejiminin pozulması hallarının təhlilini aparır,bədxah niyyətli hərəkətlərin haqqında məlumatlar toplayır və onların qarşısını alır;

6.Məlumatların yayılması,sənədlərin itirilməsi və firmanın təhlükəsizliyinin bu və ya digər formada pozulması faktları üzrə təhqiqatlar aparır;

7.Kommersiya sirri və məlumatların təhlükəsizliyinin pozulma halları üzrə xidməti tədqiqatlar təşkil edir;

8.Kommersiya sirri və məlumatların təhlükəsizliyinin təmini və mühafizəsi qaydalarını reqlamentləşdirən normativləri təmin edən siyahıların işlənib hazırlanması;

9.Kommersiya sirrinin qorunması istiqaməti üzrə normativlərə və qaydalara riayət edilməsinə nəzarət;

10.Tabeçilikdə olan təşkilatlarda təhlükəsizliyin təmin edilməsi qaydalarına riayət olunmasına nəzarət;

11.Kommersiya sirrlərinin qorunmasının mahiyyətinin işçilərə çatdırılması istiqamətində təbliğatın aparılması;

12.İçərisində məxfi sənədlər saxlanılan metal şkaflar və seyflərin təşkili və onlara nəzarətin təmin edilməsi;

13.Məxfi informasiyalar saxlanılan texniki vasitələrin,kompyuter avadanlıqlarının və sairənin nəzarətdə saxlanması;

14.Ətraf mühitdə baş verən kriminogen şəraitin öyrənilməsi məqsədi ilə təhlükəsizlik orqanları və qonşu müəssisələrin təhlükəsizlik orqanları ilə sıx əlaqə yaradılması.

Təhlükəsizlik xidmətinin vəzifələrinə gəldikdə isə bunlar aşağıdakılardan ibarətdir:

1.Müəssisənin fəaliyyətində istifadə olunan informasiyaların qorunması;

2.Kommersiya sirri hesab edilən mühəndis-texniki,hüquqi və təşkilati sənədlərin və informasiyaların qorunub saxlanmasının təşkili;

3.Kommersiya sirrini özündə əks etdirən məlumatların icazəsiz əldə edilməsinin qarşısını alan təşkilati məsələlərin həll edilməsi;

4.Kommersiya sirri sayılan məlumat bazasına icazəsiz daxil olmaların qarşısını ala bilən təhlükəsizlik sisteminin yaradılması;

5.Fəaliyyət prosesində və fövqəladə hadisələr baş verdikdə kommersiya sirri sayılan informasiyaların sızmasının qarşısının alınmasının təmin olunması;

6.Bütün növ danışıqlar aparılarkən təhlükəsizliyin təmin edilməsi;

7.Firmanın bütün növ mülkiyyətinin hər cür təhlükələrdən qorunmasının təmin olunması;

8.Rəhbərliyin və aparıcı mütəxəssislərin özünün və lazım gəldikdə ailə üzvlərinin mühafizəsinin təşkil olunması;

9.Alqı-satqı prosesləri,marketinq fəaliyyəti və s. istiqamətlərdə rəqiblərin bəd əməllərinin qarşısının alınması istiqamətində fəaliyyət.

Təhlükəsizlik xidməti öz fəaliyyətində aşağıdakı təlimatlara istinad edir:

1.Rejim və mühafizənin təşkili üzrə təlimat;

2.Kommersiya sirrinin mühafizəsi üzrə təlimat;

3.Kommersiya məlumatlarının siyahısına nəzarət;

4.Texniki işçilərin məxfi məlumatı üzrə siyahısı;

5.Məxfi informasiyaların arxivdə saxlanması üzrə təlimat;

6.İnformasiyaların mühəndis-texniki mühafizəsi haqqında təlimat;

7. Xarici nümayəndələrlə işin təşkili haqqında təlimat və s.

## 5.2. Təhlükəsizlik xidmətinin funksional quruluşu.

Təhlükəsizlik xidməti təbiidir ki,biznes və istehsal proseslərində iştirak etmir.Onun vəzifəsi biznesdə baş verə biləcək təhlükələri qabaqcadan görmək, proqnozlaşdırmaq və təhlükələrin baş verməsinin qarşısını almaq,əgər təhlükə baş verərsə təhlükədən minimum itki ilə qurtarmağın təmin edilməsidir.

Təhlükəsizlik xidməti müəssisənin digər qurumları kimi idarəetmə strukturuna daxil olunur, bu strukturlara və onlarla birlikdə təhlükəsizliyin təmin olunmasına nəzarət etməklə birbaşa rəhbərin özünə tabe olur.

Təhlükəsizlik xidmətinin funksional idarəetmə strukturu müxtəlif firmalar üçün,müxtəlif formada ola bilər.Bu strukturun təşkili adətən iki əsas amildən asılı olur:

1.Firma və ya müəssisənin iri, orta yaxud kiçik qrupa aid olmasından;

2.Firma və ya müəssisənin fəaliyyət istiqamətindən (kommersiya,istehsal,maliyyə və ya konsultativ ).

Təhlükəsizlik təşkilati baxımdan aşağıdakı struktur vahidlərini özündə birləşdirə bilər:

- rejim və mühafizə sektoru;
- məxfi sənədlər və “kommersiya sirri”olan sənədlərin işlənməsi sektoru;

- mühəndis-texniki qurğuların idarə olunması sektoru;

- kəşfiyyat,əks-kəşfiyyat və informasiya analitik fəaliyyət sektoru.

Firmanın əmlakının,kommersiya sirrinin,onun əməkdaşlarının maliyyə fəaliyyətinin,məxfi informasiyaların,apardığı danışıqların və bütün fəaliyyətinin təhlükəsizliyinin təmin edilməsi üçün xüsusi təhlükəsizlik strukturu yaradılmalıdır.

Ümumiləşdirilmiş şəkildə iri istehsal müəssisələrinin idarəetməsində tətbiq olunan təhlükəsizlik xidmətinin funksional quruluşu aşağıdakı şəkildə əks olunmuşdur:




Şəkil 4.

Burada: 1-firmanın rəhbəri, 2-təhlükəsizlik xidmətinin rəhbəri, 3-personalın mühafizəsi şöbəsi, 4-kəşfiyyat şöbəsi, 5-əks kəşfiyyat şöbəsi, 6-daxili rejim şöbəsi, 7-texniki mühafizə xidməti, 8-operativ iş bölməsi.

Yuxarıda qeyd olunan şöbələrin təşkili və strukturda yerləşdirilməsi xarici dövlətlərin təhlükəsizlik sisteminin

yaxından öyrənilməsinin nəticəsində formalaşdırılmasıdır. Burada:

1.Firmanın rəhbəri onun mühafizəsinin təşkilinin ən çox tərəfdarı olmaqla bu məsələdə ən maraqlı olan şəxsdir;

2.Firmanın təhlükəsizlik xidmətinin rəhbəri firmanın istənilən sahədə təhlükəsizliyinin təmin olunmasına cavabdeh olmaqla bərabər, təhlükəsizlik xidmətinin fəaliyyətini idarə edən və bu sahədə qərar qəbul etməklə bərabər onun icrasına nəzarət edən şəxsdir;

3.Personalın mühafizəsi şöbəsi-firmanın rəhərliyi onun ailə üzvləri, aparıcı mütəxəssisləri və onların ailə üzvlərinin mühafizə olunmasının təşkili ilə məşğul olur.Bu qurum əsasən cangüdənlərdən və şəxsi mühafizə xarakterli əməliyyatlarla məşğul olan mütəxəssislərdən ibarət olmaqla xüsusi hazırlığa malik mütəxəssislərdən təşkil olunur.Eyni zamanda həmin qurumun əməkdaşlarıkonfransların keçirilməsində,danışıqların aparılması proseslərində şəxsi heyətin və qonaqların mühafizəsini öz üzərinə götürür;

4.Kəşfiyyat şöbəsinin vəzifəsi firmaya lazım olan informasiyaların əldə edilməsi,xarici mühitdə firmaya qarşı hazırlanan əməliyyatları,firmanın fəaliyyətinə törədilə biləcək təhlükələrin qabaqcadan öyrənilməsi və bu fəaliyyətlər barədə tədbirlərin hazırlanmasında əks-kəşfiyyat şöbəsi ilə birgə fəaliyyətin təşkil edilməsindən ibarətdir;

5.Əks-kəşfiyyat şöbəsi firmaya daxil olmalar,firmanın əmlakına,əməkdaşlarına qarşı törədilə biləcək təhlükələrin,firmanın informasiya sistemlərindən məlumatların müxtəlif yollarla çıxarılmasının,firma əməkdaşları arasın-

dan işçilərin məlumatlar ötürülməsinə cəlb olunmasının,firma daxilində müxtəlif təxribatların aparılmasının və başqa təhlükələrin törədilməsinin qarşısının alınması məqsədi ilə yaradılır;

6.Daxili rejim sektoru firma daxilində müəyyənləşdirilmiş rejimin gözlənilməsinə nəzarət edir. Buraya işə gəlmə vaxtı,işçilərin işdən çıxıb getmələri,firmada icazə verilməyən yerlərdə siqaret çəkilməsi,bir sözlə daxili rejimin gözlənilməsinə nəzarət olunur.Eyni zamanda bu sektor sənədlərin müxtəlifliyinin təmin edilməsi,ziyarətçilərə və nəqliyyata nəzarəti,rejimin pozulması hallarının tədqiq edilməsi ilə də məşğul olur;

7.Texniki mühafizə xidməti binaların mühafizəsi, əmlakın mühafizəsi,daşımaların mühafizəsi,informasiya sızması kanallarının aşkar edilməsi,siqnalizasiya və rabitə təchizatı, yanğın əleyhinə vasitələrlə təchizat və s. məsələləri həll edir;

8.Operativ iş sektoru fövqəladə hadisələr baş verdikdə dərhal hadisələrə müdaxilə edir və təhlükənin tezliklə, itkisiz aradan qaldırılmasını təşkil edir.

Müasir dövrümüzdə biznesin təhlükəsizliyinin təmin edilməsi sahəsində fəaliyyət göstərən mütəxəssislər aşağıdakı sahələrdə biliklərə malik olmalıdırlar:

1.İnformasiyaların təhlil edilməsi metodlarını;

2.Kəşfiyyat və əks kəşfiyyat fəaliyyətinin xüsusiyyətlərini;

3.Operativ sorğu proseslərini və qaydalarını;

4.İnsan psixologoyasının əsaslarını;

5.Bank fəaliyyətini;

6.Mühasibat uçotunu;

7.Menecment və marketinqin əsaslarını;

8.Mülki və cinayət hüququnu və s. bilməlidirlər.

Biznesin təhlükəsizliyinin təmin olunması sahəsində çalışan hər bir bacarıqlı mütəxəssis fəaliyyəti zamanı aşağıdakıları yerinə yetirməyə borcludur:

1.Firmanın və onun rəhbərliyinin təhlükəsizliyini təmin etmək üçün tədbirlər planlarının hazırlanması;

2.Bütün məxfi informasiyaların qorunmasını təmin edən tədbirlərin işlənib hazırlanması;

3.Gizli kamera və diktofonların quraşdırılıb istifadə olunmasını;

4.Qarşı tərəfin gizli kamera və ya dinləmə cihazlarının müəssisədə və ya danışıqlar aparılan yerlərdə quraşdırılmasının qarşısının alınmasını;

5.Maliyyə məsələlərindən məlumatlı olmalı və bu sahədə hesabatların aparılması qaydalarını bilməlidir;

6.Daxili oğurluq,təxribat,sabotaj və s. məsələlərin qarşısının alınması istiqamətində fəaliyyət göstərməyi bacarmalıdır;

7.Firmada işçilərin etibarlılığının yoxlanmasını təşkil etməlidir;

8.Əməkdaşların rəqiblərlə əlaqə yaratmasının qarşısının alınmasını təmin etməlidir;

9.Cinayətlərin və bu kimi hadisələrin təhqiqatına kömək etməyi bacarmalıdır;

10.Sərbəst olaraq rəqiblərin maliyyə,potensial imkanlarının təhlilini aparmağı və s. məsələləri bacarmalıdır;

11.Fikirlərini aydın və qısa şəkildə ifadə etməyi bacarmalıdır.

## 5.3. Təhlükəsizlik xidməti rəhbərlərinin seçilməsi

Təhlükəsizlik xidməti rəhbərinin seçilməsi adətən iki istiqamətdə aparılır:

1.Professional keçmiş hüquq-mühafizə orqanları işçiləri arasından seçilir.

2.Müəssisə daxilində rəhbərliyə yaxın olan etibarlı işçilərin arasından təyin olunur.

Bu iki seçimdən hansının məqsədə uyğunluğunu dəqiqləşdirmək bir qədər çətindir.Ona görə ki, hər bir seçimin üstün və mənfi cəhətləri vardır.

<u>Birinci halda</u> təhlükəsizlik xidməti rəisinin hüquq-mühafizə orqanları işçiləri arasındakı seçilmiş namizəd-lər,təbiidir ki, firmanın təhlükəsizliyinin təmin edilməsində daha səmərəli fəaliyyət göstərə bilərlər.Bu onunla əsaslandırılır ki,bu kadrların aşağıdakı üstünlükləri vardır:

- onlar qanunu daha yaxşı bilirlər;
- təhlükəsizlik sahəsində təcrübələri çoxdur;
- bu sahədə mütəxəssisdirlər;
- bu kadrların hüquq-mühafizə orqanları ilə əlaqələri vardır;
- onlar hüquq-mühafizə orqanlarındakı keçmiş əlaqə-lərindən istifadə etməklə təhlükədən tez xəbər tuta bilər və ya baş vermiş hadisənin təhqiqatında istifadə edə bilərlər;
- bu kadrlar insanlarla psixoloji baxımdan işləməyi bacarırlar.

Lakin, bu namizədlər arasında müxtəlif adamlar ola bilər ki,onlara etibar etmək bir qədər çətin olsun.Çünki

firma rəhbərinin tanımadığı insanlara belə məsuliyyətli işin etibar etməsi bir qədər çətindir.

İkinci halda isə namizəd əgər müəssisənin özündən seçilirsə bu zaman etibarlılıq baxımından daha effektiv olsa da,lakin belə namizədlərin təhlükəsizliyin təmin olunmasında aşağıdakı çatışmayan cəhətləri də vardır.

1.Hüquq sahəsində təcrübələri azdır;

2.Təhlükəsizlik sahəsində təcrübələri azdır;

3.Hüquq-mühafizə orqanları ilə əlaqələri yoxdur;

4.Təhlükəsizliyin təmin olunmasında istifadə edilən metodları və psixologiyanı yaxşı bilmirlər;

5.Təhlükəsizlik texnikaları ilə yaxından tanış deyillər.

Göründüyü kimi hər iki namizədin üstün və çatışmayan cəhətləri vardır.Ən yaxşı namizəd isə firma rəhbərinin etibar edə biləcəyi və hüquq mühafizə orqanlarında çalışmış əməkdaşlardan seçilən namizədlərdir.

Təhlükəsizlik rəhbəri eyni zamanda aşağıdakıları da bilməlidir.

1.Xarici mühitlə işin təşkili:

- rəqiblərin öyrənilməsi;
- tərəfdaşların öyrənilməsi;
- kriminal ünsürlərə qarşı tədbirlərin hazırlanması;
- hüquq-mühafizə orqanları ilə işləmək bacarığı.

2.Daxili mühitlə iş:

- namizədlərin öyrənilməsi;
- əməkdaşlara nəzarət etmək bacarığı;
- çoxsəviyyəli mühafizə sisteminin təşkili;

- müəssisənin rejim təminatı;
- müəssisədaxili əmtəə hərəkətinə nəzarət;
- texniki casusluğa qarşı əks tədbir hazırlamaq bacarığı;
- kommersiya sirrini mühafizə etmək bacarığı.

## 5.4.Təhlükəsizliyin idarə edilməsi

Təhlükəsizliyin idarə edilməsi dedikdə, bu firmanın fəaliyyətində yarana biləcək və ya proqnozlaşdırılan bütün növ təhlükələrin qarşısının alınması məqsədilə yaradılmış qurumun bölmə və şöbələrinin birgə fəaliyyətinin təşkili kimi başa düşülməlidir.

Təhlükəsizliyin idarə edilməsi başqa sözlə müəssisənin sabit,ritmik, heç bir maneəçilik olmadan fasiləsiz fəaliyyətinin təmin edilməsidir.

Mahiyyətinə görə təhlükəsizliyin idarə edilməsi müəssisədə hər hansı bir təhlükənin yarandığı halda bu vəziyyətdən çıxmaq üçün qabaqcadan işlərin, hazırlanmış tədbirlərin dəqiqliklə yerinə yetirilməsindən ibarətdir.

Təhlükəsizliyin təmin olunması planlarının qabaqcadan düşünülmüş formada tərtib olunması heç bir şübhə doğurmamalıdır.Çünki müasir biznes aləmində istənilən vaxt,istənilən gözlənilməz hadisə baş verə bilər və hər bir firma bu hadisələrə qarşı hazır olmalıdır.

İnkişaf etmiş ölkələrdə polis orqanlarında mümkün cinayət hallarına qarşı hər bir obyektin müdafiə olunması,yaxud cinayətkarın yaxalanması üçün planlar qabaqcadan hazırlanmış olur və bu hallarda mühafizə orqanlarına siqnal daxil olunduqda kimin harada,hansı nöqtədə olacağı

və necə hərəkət etməli olduğu qabaqcadan planlaşdırılır. Məsələn:hər hansı bir banka basqın olarsa,onda basqınçıların bankdan çıxıb hansı yollarla gedəcəklərinin bütün variantları işlənilir və bütün hüquq-mühafizə orqanlarına bu mümkün variantlarda yolların tutulmasını təmin etməklə cinayətkarları ələ keçirirlər.

Təhlükəsizliyin idarə olunmasında tətbiq olunan və ya istifadə olunan əsas amillərdən biri böhran situasiyasıdır.

Böhran situasiyası- müxtəlif qrup və ya şəxslər tərəfindən təhlükənin törədilməsidir.Böhran situasiyaları cürbəcür şəkildə meydana çıxa bilər.Bu formalar aşağıdakılardır:

1.Yavaş formada;
2.Tədrici formada;
3.Ani formada.

Böhran situasiyasında firmanın rəhbərliyi və təhlükəsizlik xidmətinin rəhbəri birlikdə,həmçinin qısa vaxt ərzində böhranın qarşısını ala bilib-bilməyəcəyini müəyyən etməli, əks təqdirdə hüquq-mühafizə orqanlarının köməyindən istifadə etmək barədə qərar verməlidirlər.

İstənilən firma böhranlı situasiyaların yaranacağı ehtimalını proqnozlaşdırdıqda, yaxud böhran situasiyasını gözlədikdə, təcili olaraq təhlükəsizlik xidməti işçilərindən bu qurumun tərkibində böhran qrupu yaradır. Bu qrup təhlükəsizlik xidmətinin tərkibində daimi fəaliyyət göstərən qrup kimi də formalaşdırıla bilər.Təbiidir ki, böhran müxtəlif sahələri əhatə etdiyindən bu qrupun tərkibi də müxtəlif sahənin mütəxəssislərindən təşkil edilməlidir ki, təhlükə yarandığı zaman təhlükə yaranan

sahəni bilən mütəxəssis axtarılmasın və qrup təcili fəaliyyətə başlamaq imkanına malik olsun.Ona görə də belə qrupların tərkibinə adətən aşağıdakı mütəxəssisləri daxil edirlər:

1.Firmanın rəhbəri;
2.Hüquqşünas;
3.Maliyyə üzrə mütəxəssis;
4.Təhlükəsizlik xidmətinin rəhbəri.

Adətən böhran qrupuna rəhbərliyi firmanın rəhbəri icra edir.Qrupun üzvləri göstərilən sahədə ən yaxşı mütəxəssislər olmaqla bərabər,çətin anlarda qəti qərar qəbul etməli və böhrandan çıxmaq üçün lazım olan bütün vasitələri işə salmaq səlahiyyətlərinə malik olmalıdırlar.

Vəziyyətdən asılı olaraq, bu qrupun tərkibinə başqa mütəxəssislər də ehtiyac olduqda müvəqqəti fəaliyyət üçün əlavə edilə bilərlər.

Qeyd etmək lazımdır ki,böhran qrupu aşağıdakı məsələləri həll edir:

1.Mövcud vəziyyətin qiymətləndirilməsi;
2.Təhlükənin qarşısının alınması üçün təxirəsalınmaz tədbirlərin görülməsi;
3.Fövqəladə şəraitdə firmanın fəaliyyətinin əvvəlki qaydada davam etdirilməsinə çalışmaq;
4.Hüquq-mühafizə orqanları ilə birgə fəaliyyətin təmin edilməsi.

Böhran qrupunun yaradılmasının əsas məqsədi xarici təhlükəni yaradan tərəflərə əks təsir göstərmək olduğundan,bu qrupun fəaliyyəti və aparılan iclaslar mütləq şəkildə məxfilik şəraitində aparılmalıdır.

Bir qayda olaraq böhran qrupu planları sadə formada tərtib olunur.Müxtəlif situasiyalara uyğun planlarda müxtəlif formada tərtib olunur.Lakin, ümumiləşdirilmiş formada desək əsasən planlar aşağıdakıları əhatə edir:

1.Partlayış təhlükəsi zamanı fəaliyyət planı;

2.Zorakılıq tətbiq edildikdə fəaliyyət planı;

3.Əməkdaşların oğurlanması və ya girov götürüldüyü hala müvafiq fəaliyyət planı;

4.Firmaya hücum təşkil olunduğu hallara uyğun fəaliyyət planı;

5.İnkasatorlara hücum hallarında fəaliyyət planı.

Əgər planlar sadədirsə, bu halda təbiidir ki,burada az insanlardan istifadə olunur və xaraktercə bu sənədlər məxfi sənədlər siyahısına aid edilir.Məxfi sənədlər adətən iki və ya üç nüsxədə olmaqla təhlükəsizliyin təmin olunmasında aparıcı mütəxəssislərdə olur.

Planlaşdırma sadəcə müəyyən tədbirlərin həyata keçirilməsi deyil,o böhranlı vəziyyətdə təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl fəaliyyət formasıdır.İndi isə təhlükəsizlik sistemi fəaliyyətinin mümkün olan rejimlərinə diqqət edək.Mütəxəssislər tərəfindən bu rejimlər aşağıdakılara bölünür:

1.<u>Gündəlik fəaliyyət rejimi</u> - firmanın təhlükəsizlik sisteminin qanunauyğun fəaliyətinin nəticəsi olub normal fəaliyyətin davam etməsidir.Bu rejim özündə aşağıdakıları birləşdirir:

a) bütün gözlənilə bilən təhlükələrin proqnozlaşdırılması,aydınlaşdırılması,dəyərləndirilməsi və əks tədbirlərin görülməsi yolu ilə aradan qaldırılması;

b) təhlükəsizliyin təmin olunması istiqamətində plan və proqramların tərtib olunması;

c) kadr hazırlığı ilə bağlı(təhlükəsizlik üzrə) fəaliyyət.

2.Yüksək hazırlıq rejimi -bu təhlükələrin mövcud olması və bu təhlükələrin qarşısının alınması istiqamətində planların hazırlanması və başqa fəaliyyətin hərəkətə gətirilməsi deməkdir.

Bu yeni bir rejim olmaqla operativ idarəetmə qrupunun da fəaliyyət göstərməsi və firmanın mühafizə edilməsi üzrə istənilən zəruri tədbirləri həyata keçirir.

Bu rejimdə təşkil edilmiş gündəlik fəaliyyətlərlə bərabər aşağıdakılar da həyata keçirilir:

a) təhlükələrin qarşısının alınması planlarının bir daha dəqiqləşdirilməsi və mükəmməlləşdirilməsi;

b) köməkçi qüvvələrin hazırlığının yüksəldilməsi;

c) oprerativ qrupun fəaliyyətə başlamasının təmin edilməsi.

3. Fövqəladə vəziyyət rejimi-artıq bu rejimdə real təhlükə mövcuddur və təhlükəsizlik xidməti fəaliyyətə başlayır. Bu zaman aşağıdakılar baş verir:

1) Təhlükəsizlik şurası fasiləsiz daimi fəaliyyət rejiminə keçir;

2) Təhlükəsizlik xidməti işçilərinin hər biri öz fəaliyyəti istiqamətində hərəkətə keçir;

3) Dəstək qüvvələri cəlb olunur və firmanın işçi qüvvələri fəaliyyətlərini daha da artırırlar.

## 5.5.Müəssisənin təhlükəsizlik xidmətinin işinin dövlət orqanları ilə təşkili.

Müəssisələrin təhlükəsizlik xidmətinin fəaliyyəti nə qədər mükəmməl təşkil olunsa belə, o hüquq mühafizə orqanları səviyyəsində fəaliyyət göstərə bilməz.Buna səbəb hüquq-mühafizə orqanlarının dövlət səviyyəsində müəyyən səlahiyyətlərinin olması və dövlət adından çıxış etməsi ilə bərabər daha geniş şəbəkəli və daha mükəmməl bir sistem olmasıdır.

Ona görə də, hər bir firmanın təhlükəsizlik xidməti daha səmərəli və etibarlı fəaliyyət göstərmək üçün Daxili İşlər orqanları ilə əməkdaşlıq etmək məcburiyyətindədir. Bu formada qarşılıqlı fəaliyyətin təşkilati hüquqi əsası aşağıdakılardır:

- istənilən tip əmlakın mühafizə olunmasının konstitusiyaya uyğun bərabərliyi prinsipi;
- ölkənin polis,operativ axtarış,prokurorluq və başqa normativ-hüquqi aktları haqqında qanunları.

Əməkdaşlığın məqsədi ayrı-ayrı firmaların,müssisələrin heyətinə,pul vəsaitinə, əmlakına qarşı edilə biləcək və ya edilən qəsdlər barədə xəbərdarlıqdan,yaxud faktların üstünün açılmasından ibarətdir.

Müəssisənin təhlükəsizlik xidməti ilə ərazi üzrə hüquq-mühafizə orqanlarının əməkdaşlıq istiqamətləri əsasən aşağıdakılardır:

1.<u>İnformasiya mübadiləsinin əsas formaları</u>:

a) pul vəsaitlərinin saxta sənədlər tərtib etmək,saxta kredit kartlarından istifadə, yaxud başqa saxta sənəd tərtib etməklə oğurlanması;

b) müəssisədə fəaliyyət göstərən və qanun pozuntusunda şübhəli bilinən fiziki şəxslər haqqında məlumatların təqdim edilməsi.

Qeyd olunanlardan başqa ümumi cinayət faktlarının aşkarlanması,obyektlərin siqnalizasiya sisteminin təşkili, Daxili İşlər Nazirliyinin ərazi orqanları ilə qaynar xəttinin yaradılması,işgüzar münasibətlərdə qeyri-qanuni iştirakçılar  haqqında Regional Verilənlər Bankının formalaşdırılması istiqamətində fəaliyyət göstərilməsi və birgə tədbirlərin hazırlanmasında iştirak etmək.

2.Təhlükəsizlik xidməti kadrlarının seçilməsi, yerləşdirilməsi və peşəkarcasına hazırlanması istiqamətində:

a) Daxili İşlər Nazirliyinin informasiya imkanlarından istifadə edərək kadr potensialının etibarlılığının təmin edilməsi;

b) heyətin kommersiya sirrinin qanunsuz istifadə etmə və onun yayılması hallarının qarşısının alınması məsuliyyəti barədə qaydaların birgə hazırlanması;

c) təhlükəsizlik xidməti kadrlarının ixtisasartırma və öyrədilməsində polis orqanlarından istifadə olunması.

Firmanın təhlükəsizlik xidmətinin hüquq mühafizə orqanları ilə birgə fəaliyyət göstərməsinin vacibliyini əks etdirən digər səbəblər də mövcuddur:

1) Təhlükəsizlik xidməti bölmələrinin kifayət qədər gücə və texniki vasitələrə malik olmaması;

2) Kriminal şərait və mütəşəkkil cinayətkarlıq haqqında informasiya mənbələrinin çox zəif olması;

3) Material və maliyyə vəsaitlərinin uzaq məsafələrə daşınmasında mühafizə çətinliyi;

4) Firmaya və ya təhlükəsizlik xidmətinə daxil olan əməkdaşlar haqqında məlumatların əldə edilməsi zəruriliyi;

5) Hücum olduqda və ya cinayətkarların tutulmasında kömək almaq məqsədi ilə hüquq mühafizə orqanlarının müraciət etmək zərurətinin yaranması.

# FƏSİL 6. TƏHLÜKƏSİZLİYİN İDARƏ EDİLMƏSİNDƏ MÜHAFİZƏNIN TƏŞKİLİ

## 6.1. Müəssisədaxili rejim və buraxılış rejimləri

Hər hansı bir firmanın mühafizəsinin təmin olunması prosesində ilk növbədə təhlükəsizlik xidmətinin və firmanın digər əməkdaşlarının müvafiq normativ sənədlərə və tətbiq edilmiş qayda-qanunda nəzərdə tutulmuş qaydalara riayət etməsi vacibdir.

Ona görə də hər bir müəssisədə təhlükəsizliyin təmin olunması məqsədi ilə müxtəlif rejimlər tətbiq olunur. Bu rejimlərdən biri də müəssisədaxili rejim adlanır və aşağıdakı tələbləri vardır:

1.<u>Müəssisədaxili rejim</u>-müəssisənin təhlükəsizliyini təmin etmək məqsədi ilə,yəni maddi vəsaitlərin mühafizəsi,maliyyə vəsaitlərinin və informasiyaların qorunması məqsədi ilə daxili qaydalara riayət edilməsi üsulu ilə idarəetmə formasıdır.

Bu rejim əsasən aşağıdakı vacib tələbərin yerinə yetirilməsini nəzərdə tutur:

- əməkdaşlar üçün iş vaxtının, fasilələrin, nahar vaxtının və s. dəqiqliklə təyin olunması;
- əməkdaşların informasiya,iqtisadi,yanğın əleyhinə və texniki təhlükəsizlik qaydalarına ciddi şəkildə əməl etməsi;
- firmaya daxil olmaq arzusunda olan və ya dəvət olunmuş kontragentlərin qəbul edilməsi və onlarla iş aparılması qaydalarının tətbiqi;

- firmada təhlükəsizlik şəraitinin yaradılmasını təmin edən (rabitə,avtomatlaşdırma,nəzarət,mühafizə,siqnalizasiya,hasarlanma və s. kimi) texniki vasitələrlə təmin olunma;

- məntəqələrin mühafizəçindən-mühafizəçiyə təhvil-təslim edilməsi qaydaları;

- informasiyaların kommunikasiya sistemləri vasitəsilə ötürülməsi və qəbulu qaydaları.

2.Müəssisədə kontragent müəssisələrin əməkdaşları ilə iş aşağıda göstərilən qaydada təmin olunur:

- müəssisəyə görüş məqsədi ilə daxil olan mütəxəssis dəftərxana şöbəsində iş yeri,şəxsiyyəti,nəzərdə tutulan görüş vaxtı və s. qeyd olunmaqla ərizə ilə müraciət edir.

- dəvət olunmuş mütəxəssisin firmaya daxil olduğu gün,onun gəlişi qeydiyyat jurnalında qeyd olunur.

- danışıqlar prosesində otağın qapı və pəncərələri kip bağlanmalıdır.

- nümayəndələrlə iş bitdikdən sonra müəssisənin mütəxəssisi həmin nümayəndələri qapıya qədər ötürür və gediş vaxtını jurnalda qeyd edir.

- görüş xüsusi otaqlarda aparılır və firmanın nümayəndəsi bu görüş bitdikdə qapını bağlayıb açarı dəftərxanaya təhvil verməlidir.

Müəssisələrdə buraxılış rejimi dedikdə, müəssisəyə nəzarətsiz daxilolmaların və yaxud müəssisəyə hər hansı bir əşyanın nəzarətdən kənar daxil olması və ya çıxarılması halların qarşısının alınması məqsədi ilə tətbiq edilən rejim qaydaları başa düşülür.

Bu rejim əməkdaşların,qulluqçuların,kənar şəxslərin mühafizə edilən obyektə daxil olması və ya obyektdən

çıxıb getməsi,material və digər məhsulların gətirilib-aparılması, giriş keçidlərində xüsusi icazə vəsiqələri və icazə vərəqələri vaistəsi ilə icra edilməsi qaydalarının tətbiq edilməsidir.

Buraxılış rejimi dedikdə əsasən aşağıdakılar nəzərdə saxlanılır:

- əraziyə işçilərin və ziyarətçilərin buraxılması və çıxışını müəyyənləşdirən qaydaların tətbiqi;
- daxil olan və xaric edilən məhsulların daxilolma və çıxarılma qaydalarının işlənib hazırlanması və tətbiqi;
- hasarlama,işıqlandırma,nəzarət buraxılış məntəqələrinin yaradılması,rabitə və buraxılış,daxilolma rejimlərini təmin edən maddi texniki təchizatın və digər məsələlərin həlli ilə bərabər giriş-çıxış intervallarının müəyyən edilməsi;
- şəxsi əşyaların və şəxsi avtomobillərin mühafizəsinin təşkili.

Bütün bu yuxarıda qeyd olunanların hazırlanması və lazımi qaydaya salınması prosesinə buraxılış rejiminin təşkil edilməsi deyilir.

Müəssisəyə daxil olmaların tənzimlənməsi aşağıda qeyd olunanlardan ibarətdir:

- obyektə buraxılanların etibarlılığının obyektiv qiymətləndirilməsi;
- obyektə buraxılanların (kənar şəxslərin) sayının maksimum azaldılması;
- hər bir işçinin (və ya ziyarətçinin) zaman, məkan, fəaliyyət növü üzrə diferensiya edilmiş obyekt üzrə buraxılış hüququnun müəyyən edilməsi;

- sənəd qəbulu və sənədlərin rəsmiləşdirilməsi qaydalarının tənzimlənməsi;

- hər bir yaradılan giriş-çıxış məntəqəsində nəzarət buraxılış həcminin (gücünün)təyin edilməsi;

- nəzarət buraxılış məntəqələrinin fəaliyyətini tam şəkildə təmin edə biləcək texniki vasitələrlə təchiz edilməsi;

- nəzarət buraxılış məntəqələrinin işçi qrupunun yüksək hazırlıqlı olmasının təmin edilməsi.

Aşağıdakı cədvəldə müəssisənin rejimli zonaları təsvir olunmuşdur:

(cədvəl 5)

| Buraxılış rejimi kateqoriyaları | Adi | Funksional təyinatı | Əməkdaşların buraxılış şərtləri | Ziyarətçilərin buraxılış şərtləri | Mühafizənin mövcud olması | Mühafizənin Texniki vasitələrin mövcudluğu |
|---|---|---|---|---|---|---|
| 0 | Azad | Azad ziyarət zonası | Azad | Azad | Yoxdur | Yoxdur |
| 1 | Müşahidə edilən | Ziyarətçilərin qəbulu zonası | Azad | Azad | Məhdud | Müşahidə və yazı vasıtələri |
| 2 | Qeydiyyatlı | Xidməti otaqlar və əməkdaşların kabinetlərinin yerləşdiyi zona | Xidməti zərurət üzündən məhdudlaşdırılmış | Birdəfəlik buraxılış üzrə qeyd edilən | Ayrı-ayrı zonalarda | Mühafizə və nəzarət vasitələri |
| 3 | Rejimli | Rəhbər heyətin, xüsusi bölmələrin və maliyyə xidməti zonası | Ciddi şəkildə məhdudlaşdırılmış | Birdəfəlik buraxılış üzrə müşayətlə qeyd edilən | Gücləndirilmiş çox zonalı | Mühafizə nəzarət və müşahidə vasitələri |

Buraxılış rejiminin təşkilində vacib amillərdən biri də buraxılış sənədləridir ki, bunlar da adətən iki formada tərtib olunur:

1. Buraxılış vəsiqələri;
2. Buraxılış vərəqələri.

Buraxılış vərəqələri istifadə olunma müddətinə görə firmanın işçiləri üçün və tez-tez firmaya gələn tərəfdaşlar üçün daimi, müvəqqəti və birdəfəlik,eyni zamanda maddi qiymətlərin gətirilib-aparılması üçün material buraxılışı icazəsi vərəqi şəklində ola bilər.

Vəsiqə və buraxılış vərəqələrinə müvafiq möhür vurulur, eyni zamanda burada giriş zonasını,onun istifadə olunma müddətini və çanta, keys, qovluqların firmanın ərazisinə daxil olunması qaydalarını müəyyən edən rəqəmli işarələr qoyulur. Vəsiqələr və buraxılış vərəqələrinin nümunələri təhlükəsizlik rəhbəri tərəfindən hazırlanır, lakin müəssisə rəhbəri tərəfindən təsdiq olunur.

Təhlükəsizliyin təmin olunması məqsədilə,yəni vəsiqələrin saxta tərtib edilməsinin qarşısının alınması üçün 2-3 aydan bir vəsiqələrə nəzarət edilir, 2-3 ildən bir yenidən qeydiyyatdan keçirilir, 3-5 ildən bir isə dəyişdirilir.

Buraxılış sənədlərinin yenidən qeydiyyata alınması üçün hər il ilin başlanğıcında 01.yanvara qədər kadrlar şöbəsi tərəfindən firmanın təhlükəsizlik şöbəsinə əməkdaşların vəzifəsi,adı,soyadı və sənədin hansı nişanla işarələnməli olduğu (gecə,gündüz növbəsi,iş vaxtı, saat neçədənneçəyə kimi, çanta ilə yaxud çantasız,hansı zonaya daxil olması və s.) haqqında məlumatlar göndərilir.

Vəsiqə və daimi buraxılış vərəqələri firmada fəaliyyət göstərməyən kənar şəxslərə onların haqqında bütün

lazım olan məlumatlar əks olunmaq şərti ilə siyahı formasında da buraxılışı təmin oluna bilər.Bu siyahı buraxılış bürosunda saxlanılmaqla,onlar firmaya daxil olmaq istədikdə müvafiq sənədləri yoxlamaqla zonaya buraxılırlar.
Kənar şəxslərin firmaya daxil olmaları üçün təqdim olunmuş vəsiqələr vaxtı bitdikdə buraxılış bürosu tərəfindən götürülür.

Kənar şəxslərə buraxılış vərəqələri və ya müvəqqəti vəsiqələr yalnız onların işlədiyi müəssisə rəhbərlərinin təsdiq etdiyi və firmaya göndərdiyi müraciət əsasında verilir.

Müəssisəyə ezam olunmuş şəxslərə və ya burada az müddətə işə götürülən şəxslərə 3 aylıq müddəti olan buraxılış vərəqələri təqdim olunur.Belə buraxılış vərəqələrində həmin şəxslərin şəkili olmalıdır.Lakin bəzən qısa müddətli icazə vərəqələri də tətbiq olunur ki, bu 1 ay və ya daha az müddətə müəssisəyə ezam olunan şəxslərin rəsmi əks olunmur. Belə halda ezam olunan şəxslər onların şəxsiyyətini təsdiq edən sənədləri buraxılış məntəqəsinə təqdim etdiyi halda zonaya buraxılırlar. Müvəqqəti buraxılış vərəqələrinin müddəti yalnız 2 aya qədər artırıla bilər.

Birdəfəlik buraxılış vəsiqəsinin arxasında dəvət və ya qəbul edən firmanın aparıcı işçisinin, yəni xarici şəxslə görüşən personalın imzası və görüşün bitdiyi vaxtı göstərən rəqəm əks olunmalıdır.

Birdəfəlik buraxılış vərəqələrini buraxılış bürosu əməkdaşları günün sonunda birdəfəlik və material buraxılış vərəqələrinin uçotu jurnalında qeyd etməklə geri alırlar.

Sənədlərin buraxılış rejimi üzrə uçotu məqsədi ilə aşağıdakı uçot işləri,kitabları və jurnalları təşkil olunur:

1. Buraxılış üzrə əmək və ya göstərişlər üzrə işlər;

2. Bölmə əməkdaşlarının vəsiqələri,daimi və müvəqqəti buraxılış vərəqələri üzrə verdikləri ərizələrlə bağlı işlər;

3. Buraxılış sənədlərinin vaxtı keçməsi ilə bağlı bu sənədlərin məhv edilməsi ilə əlaqəli aktlarla iş;

4. Birdəfəlik buraxılış blankları üzrə məsrəflərin gündəlik uçotu kitabı;

5. Vəzifələrin, daimi və müvəqqəti buraxılış vərəqələrinin verilməsinin uçotu kitabı.

Bu qeyd olunanlardan əlavə buraxılış bürosu aşağıdakı möhür və ştamplara malik olmalıdırlar:

1. Birdəfəlik material buraxılışı vərəqələrinin dairəvi və ya üçbucaq şəkilli möhür;

2. Vəsiqə və daimi buraxılış vərəqələri üçün dairəvi möhür;

3. Rəqəmli nişan ştampları;

4. "ödənilmişdir", "nümunə", "müvəqqəti" ştampları.

Onu da qeyd etmək lazımdır ki,möhür və ştamplar yenisi ilə əvəz olunduqda köhnələr (aktla rəsmiləşdirilmək şərti ilə) məhv edilir.

## 6.2. Mühafizəçilər və mühafizə rejimi

Mühafizəçilər müəssisənin təhlükəsizlik sisteminin kadrlarının bir hissəsi olub, mahiyyət etibarı ilə təhlükəsizliyin təmin edilməsində əsasən obyektlərin daimi mühafizə olunmasına xidmət edirlər. Hər bir peşəkar mühafizəçi özündə intellekt, sağlamlıq, çevik düşünmə, məntiqi tə-

fəkkür, fiziki qüvvə,duyma qabiliyyəti,səbr və s. kimi keyfiyyətlərə malik olmalıdır.

Yuxarıda qeyd olunan keyfiyyətlər mühafizəçinin bütün fəaliyyətində əks olunmalıdır. Bu fəaliyyətlər isə əsasən aşağıdakılardan ibarətdir:

- daxili və xarici mühitdə,yəni müəssisənin daxilində, yaxud onun xaricində patrul nəzarətində fəaliyyət göstərdikdə;
- obyektdə fəaliyyətlərə nəzarət prosesində;
- təhqiqat aparıldığı zaman;
- əməkdaşların və ziyarətçilərin hərəkətlərinin müşahidəsi zamanı;
- məruzə, arayış və digər sənədlərin tərtib olunması vaxtı;
- müəssisəyə daxil olmaq istəyən kənar şəxslərin və digər bu kimi şübhəli şəxslərin izlənməsi zamanı;
- qonaqların və ya yüklərin müşayət edilməsi zamanı.

Mühafizəçilərə aşağıdakı hərəkətlər qadağan olunur:

1. Hazırlanan və ya həyata keçirilməsi planlaşdırılan cinayətlərin hüquq mühafizə orqanlarından gizli saxlanması;
2. Özünü hüquq-mühafizə orqanı nümayəndəsi kimi qələmə vermək;
3. İnsanların şəxsi həyatı,dini mənsubiyyəti,siyasi əqidəsi,ailə məsələləri ilə bağlı informasiya toplamaq və yaymaq;
4. Xidməti otaqlarda səlahiyyətli şəxslərdən icazə almadan video və audio yazıların,foto və kinoçəkilişlərin aparılması;

5. Vətəndaşların hüquq və əmlakına qəsdedici fəaliyyət göstərmək;

6. Vətəndaşların həyatını,sağlamlığını,şərəfini,ləyaqətini təhlükə və şübhə altına alacaq hərəkətlər etmək;

7. Öz səlahiyyətlərini başqa şəxsə istifadə etməyə imkan vermək.

Mühafizə rejiminin əsas məqsədi obyektin binalarının,otaqlarının,materiallarının və insanların qorunmasının,obyektdə olan müəssisə tərəfindən sirr hesab olunan məlumatların sızmasının,yanğın baş veməsinin qarşısının alınmasının təmin edilməsindən ibarətdir.Bu məsələlərin həll edilməsi üçün əsas məqsəd bu istiqamətdə informasiyaların toplanması,işlənməsi,təhlili və sonda müvafiq formada planlaşdırılmasından ibarətdir.

Mühafizə rejiminin idarə olunmasının əsas prinsipləri aşağıdakılardır:

1. Mühafizənin obyektə qarşı törədilə biləcək bəd əməllərdən vaxtında xəbərdar olmaq şərti ilə bu əməllərə qarşı hazırlıq işinin təşkili və xəbərdaredici xarakteri;

2. Obyektin mühafizə rejiminin təşkilinin məqsədəuyğunluğu, əsaslı olması,mühafizənin gücləndirilməsinin vaxtında həyata keçirilməsi, mühafizə vasitəlləri və güclərindən səmərəli istifadə edilməsi;

3. Firmanın öz imkanlarının hüquq-mühafizə orqanları ilə fəaliyyət istiqamətində birləşdirilməsi;

4. Mühafizənin birgə plan üzrə vahid istiqamətdə həyata keçirilməsi;

5. Şəraitə uyğun olaraq mühafizənin gizli, yaxud aşkar formada aparılması;

6. Mühafizəçilərin müəssisənin təhlükəsizliyini yüksək səviyyədə təmin etməsi üçün müəssisənin fəaliyyəti, əlaqələri, kontragentləri və s. haqqında məlumatlı olması.

Mühafizə rejiminin vəzifələrinə gəldikdə isə bu istiqamətdə fəaliyyət iki qrup məsələyə yönəlir:

- analitik və xəbərdarlıq məsələsi;
- prosedur-dəfetmə məsələsi

Analitik məsələnin həlli mühafizə olunan subyektlər və şəxsi mühafizə rejiminin haqqında gündəlik, fasiləsiz daxil olan informasiyaların sistematik toplanması və təhlili yolu ilə həll edilir.

Xəbərdarlıq məsələləri isə qarşı tərəfə, yəni firmanın fəaliyyətinə təhlükə yaratmaq niyyətində olan ünsürlərə firmanın təhlükəsizlik orqanlarının etibarlı mühafizə imicinin olması fikrini formalaşdırmaqla yerinə yetirilir.Bu obyektə qarşı süni formada yaradılan qəsdin qarşısının "uğurlu" əməliyyat nəticəsində alınmasının imtiasiyası ilə qarşı tərəfə təlqin edilə bilər.

Mühafizə rejiminin nəzərəçarpan elementləri obyektdə yerləşdirilən  kameraların görünməsi,müasir siqnalizasiya sistemi,polisin olması,mühafizəçilərin göz önündə olması və s. ilə tamamlana bilər.

Obyektin mühafizə rejiminin ikinci qrup məsələlərinin həll edilməsində qəsdin qabaqcadan aşkarlanması və əvvəlcədən hazırlanmış qüvvələrin vaistəsi ilə həll edilə bilər.Lakin bu zaman ən çətin məsələ qəsdin icra ediləcəyi vaxtın dəqiq müəyyən edilməsidir ki,praktiki olaraq bu mümkün olmur.Ona görə də bəzən buna süni "qıcığlandırma" yolu ilə nail olurlar.Məsələn: obyektdən qiymətli malların çıxarılacağı,yaxud külli miqdarda pul

vəsaitlərinin daxil olacağı barədə yalan məlumat ötürülməsi ilə qəsdin başlanması vaxtını təyin etmək imkanını əldə edilir.

Mühafizənin təşkili zamanı müəyyən bir təhlükənin baş verəcəyi halda bu hadisənin qarşısının alınmasının planlaşdırılmasından əlavə təhlükəsizlik xidməti obyektdə və ya onun ətrafinda baş verə biləcək digər fövqəladə hadisələrin də qarşısının alınması üçün əlavə təhlükəsizlik xidməti işçilərini cəlb etməlidirlər.

Bu hallarda mühafizəçilərin öhdəliklərinə aşağıdakı vəzifələr düşür:

- cinayətkarın ələ keçirilməsi üçün lazım olan bütün tədbirlərin təşkili və saxlanılan cinayətkarın hüquq mühafizə orqanlarına təhvil verilməsi;
- hadisə baş verdiyi ərazinin,dəllilərin,müxtəlif izlərin qorunması məqəsdi ilə polis əməkdaşları gələnə qədər mühafizə olunması;
- xəsarət alanlar olduqda tibb işçilərinin gəlməsinə qədər ilk tibbi yardım göstərilməsi. Hadisə şahidlərinin, həmçinin mühafizə xidmətinin hərəkətlərinə haqq qazandıra biləcək şahidlər bazasının müəyyənləşdirilməsi;
- obyektə yaxın yerləşən hüquq-mühafizə orqanlarına hadisə barədə məlumat verilməsi.

Mühafizə xidmətinin əsas vəzifələrindən biri də obyektdə işgüzar görüşlərin keçirilməsi və tərəfdaşlarla danışıqlar aparılması prosesində təhlükəsizliyin təmin olunmasıdır.

Bu zaman təhlükəsizlik xidməti işçilərinin əsas vəzifələri aşağıdakılardan ibarətdir:

- ziyarətçilərin və işgüzar danışıqlarda iştirak edəcək qonaqların qarşılanması;

- əsas mühafizə xidməti ilə qonaqların cangüdənləri arasında fəaliyyət istiqamətində qarşılıqlı əlaqənin qurulması;

- qonaqların vəsaitlərinin,avtomobillərinin ərazidə mühafizəsinin təşkili;

- işgüzar fəaliyyət və ya danışıqlar prosesində qonaqlar arasında münaqişə yarandıqda onun qarşısının alınması;

- qonaqlar üçün hazırlanmış qonaqlıqda istifadə olunacaq qida məhsullarının yararlığına nəzarət;

- qonaqlar arasında şübhəlilərin aşkara çıxarılması;

- görüşə, yaxud qəbula çanta, keys,bağlamalarla gələn,tədbirə audio-video kimi cihazlar gətirən qonaqlara nəzarət edilməsi;

- qəbul zamanı qonşu otaqlara nəzarət edilməsi;

- otaqlarda və telefon vaistəsilə tədbirin təşkilatçılarının və qonaqların dinlənilməsinə qarşı tədbirlərin təşkili.

## 6.3.Daşınmaz əmlakın mühafizəsnin təşkili

Stasionar obyektlərin mühafizəsində vacib olan əsas amillər bu obyektlərin texniki baxımdan möhkəmləndirilməsi, yəni müasir təhlükəsizlik texnologiyalarından istifadə olunmasıdır. Bu texniki vaistələr isə əsasən aşağıdakılardan ibarətdir:

1. Obyektin əhatə dairəsinin mühəndis-texniki vasitələri,qadağan olunmuş zona,bu zonaya daxilolmaya nəzarət vasitə və sistemləri,nəzarət izləmə zonaları və digər sistemlər;

2. İşıqlandırma sistemlərinin mövcudluğu;
3. Buraxılış-yoxlama məntəqələri;
4. Video-kamera sistemləri;
5. Rabitə-əlaqə və kommunikasiya sistemləri.

Müəssisənin ərazisinin mühafizə edilməsi onun bütün perimetri boyunca müxtəlif formada hasarlanma,xüsusi təchiz edilmiş giriş və keçid yerlərrindən,mühafizə siqnalizasiyası və işıqlandırmadan və ekran müşahidəsinin təşkilindən ibarətdir.

Qeyd etmək lazımdır ki,ərazinin və binanın mühafizəsi bir-biri ilə bağlı və ardıcıl olan tədbirlərin sistem şəklində qurulmasını tələb edir.Bu zaman ardıcıllıq təmin olunmaqla təhlükəsizlik baxımından ərazinin sərhədindən başlayaraq vacib qiymətli vəsaitlərin və kommersiya sistemlərinin saxlandığı otaqlara qədər getdikcə daha mükəmməl təhlükəsizlik sisteminin tətbiq olunması ilə formalaşdırılır.

Mühafizə üsulları və texniki avadanlıqların seçilməsinə təsir göstərən amillərə əsasən aşağıdakılar daxildir:

1. Qorunan obyektə qarşı tətbiq edilə biləcək cinayətin formaları;
2. Qorunan obyektin texniki baxımdan möhkəmliyi;
3. Yanğından mühafizə vasitələrinin obyektdə mövcudluğu və onların keyfiyyətinin yüksəklik dərəcəsi;
4. Obyektin möhkəmliyində təhlükəsizlik xidməti və mühafizəçilərə məlum olan zəif nöqtələrin olmasının mümkünlüyü;
5. Mühafizə obyektinin yerləşdiyi ərazinin forması;

6. Mühafizə obyektinin fəaliyyət istiqaməti,işin xüsusiyyətləri və obyektdə olan material və digər qiymətli vəsaitlərin mövcudluğu;

7. Tətbiq edilən mühafizə rejimi;

8. Mühafizə xidmətinin səriştəsi və sayının miqdarı;

9. Mühafizəçilərin texniki vəsaitlərlə təchizat olunmasının səviyyəsi.

Qeyd etmək lazımdır ki,daşınmaz əmlakın mühafizə olunması müxtəlif formalarda aparılır:

a) daimi mühafizə (sutqalıq,yəni gecə-gündüz mühafizə olunan obyektlər);

b) qismən mühafizə olunan obyektlər (yəni günün müxtəlif saatlarında,adətən gecələr).

İstifadə olunan qüvvə və texniki vasitələrin miqdarından,eyni zamanda nəzarət intervalından asılı olaraq mühafizə sadə və gücləndirilmiş ola bilər.

Bəzən elə obyektlər vardır ki,onların mühafizəsi epizodik olaraq təşkil olunur. Bu obyektlərə ev yiyəsinin ezamiyyətdə və yaxud ailəvi səyahətdə olarkən müvəqqəti mühafizəsi və ya müəssisəyə gətirilmiş lakin, hələ anbarlaşdırılmamış materialların müvəqqəti mühafizəsi aid edilə bilər.

Obyektlərin mühafizə olunmasında bir neçə formadan istifadə olunur ki,bunlar da aşağıdakılardan ibarətdir:

1. Mərkəzləşdirilmiş kamera sisteminin köməyi ilə əraziyə nəzarət forması;

2. Avtomatlaşdırılmış siqnalizasiya sistemlərinin köməyi ilə mühafizə;

3. Mühafizə məntəqələrinin qurulması və patrul xidmətli mühafizə forması;

4. Kombinələşdirilmiş mühafizə sistemləri.

Texniki vasitələrin köməyi ilə otaqların mühafizəsi və otaqlara nəzarət bir neçə"sərhəd" mərhələsinin təşkili ilə təmin oluna bilər. Bu zaman hərəkətə,tərpənişə və ya pəncərə, yaxud qapıların üzərində yerləşdirilən avadanlıqlar vasitəsi ilə onların yüngül tərpənişinə belə reaksiya verən cihazlardan istifadə olunur. Çoxhüdudlu belə mühafizə sistemlərində birinci sərhəddə tikinti konstruksiyaları, qapılar, pəncərələr,lüklər,ventilyasiya kanalları,isti və soyuq su,qaz üçün nəzərdə tutulan şaxtalar, o cümlədən dəmir barmaqlıqlarla əhatə olunmuş pəncərələr və s. qorunur.

İkinci sərhəd siqnalizasiya tətbiq edilməsi yolu ilə hərəkətə həssas cihazlarla binanın və otaqların icazəsində baş verən hərəkətin qeyd olunması yolu ilə mühafizə sisteminin təşkili hesab olunur.

Üçüncü sərhəd artıq qiymətli materialların,vəsaitlərin, maliyyə vəsaitlərinin özünün qorunmasını təmin edən sistemdir.

Kombinələşdirilmiş mühafizə sistemi ən mükəmməl sistem hesab olunur. Ona görə ki, bu mühafizə sistemində, bütün mühafizə sistemləri və onların müxtəlif formaları birləşdirilmiş və qarşılıqlı əlaqəli formada istifadə olunur.

## 6.4.Rəhbər heyətin və mühafizəsinə ehtiyac duyulan əməkdaşların mühafizəsinin təşkili.

Biznesin təhlükəsizliyində vacib amillərdən biri də rəhbər heyətin və ayrı-ayrı fərdlərin mühafizəsinin təşkilidir.Rəhbər heyətə və firmanın aparıcı mütəxəssislərinə

qarşı törədilən təhlükələr adətən ya rəqib firmalar tərəfindən ədalətsiz rəqabət yaradılması məqsədi ilə, ya da kriminal ünsürlərin pul əldə etmək məqsədi ilə aparılır.Firmanın aparıcı mütəxəssislərinə qarşı törədilən təhlükələrdə məqsəd onlardan lazım olan informasiyaların əldə edilməsinə çalışılmasıdır.

Ayrı-ayrı fərdlərin fiziki təhlükəsizliyinin təmin olunmasında aşağıdakılara daha çox diqqət yetirilməlidir:

1. Yerli və xarici əməkdaşların kriminal qruplardan həyatının mühafizə edilməsi;
2. Mühafizəsinə ehtiyac duyulan şəxslərin yaxınları və əmlaklarının mühafizəsi;
3. Mühafizə olunanlara qarşı törədilə biləcək halların qarşısının alınması;
4. Mühafizə olunanlara qarşı törədilə bilən təhlükələrin lokallaşdırılması;
5. Mühafizə olunanlar haqqında informasiyaların sızmasının qarşısının alınması;
6. Mühafizə edilənlərə qarşı törədilə biləcək təhlükələr haqqında informasiyaların əldə edilməsi.

Ayrı-ayrı fərdlərin mühafizəsində danışıqların dinlənilməsi,həmin əməkdaşların evlərində,iş yerində və avtomobillərində daimi nəzarət təşkil olunmalıdır.

Heyətin o cümlədən firmanın yuxarı vəzifəli şəxslərinin şəxsi təhlükəsizliyinin təmin edilməsi aşağıdakıların təşkilindən ibarətdir:

1. Mühafizəçi cangüdənlərdən ibarət mühafizə qrupunun təşkili;

2. Təhlükəsizliyinin təmin olunmasına ehtiyacı olan şəxslərin böhranlı situasiyalara reaksiya vermə üzrə psixoloji hazırlanmanın təşkili;

3. Şəxsin müdafiə olunması üçün icazə verilən bütün vasitələrdən istifadə olunması.

Ayrı-ayrı fərdlərin təhlükəsizliyini yalnız fiziki və psixoloji cəhətdən möhkəm olan, həm də xüsusi hazırlıq keçmiş böhran situasiyalarında qəti və düzgün qərarlar qəbul edə bilən mühafizəçilər təmin edə bilərlər.

Digər bir məsələ isə bu mühafizəçilərin müasir səviyyədə rabitə,müdafiə və silah baxımından təchiz olunmasıdır.Təbiidir ki, mühafizə olunan hər bir fərd ən azı hər gün evdən işə və işdən evə getməlidir.Eyni zamanda bu şəxslərin ailə üzvləri də bu qaydada fəaliyyət göstərməlidirlər.Buna görə də təhlükənin baş verməməsi üçün istifadə olunan avtomobil yaxşı olar ki,bronlaşdırılmış xüsusi sifarişlə hazırlansın. Mühafizə olunan şəxsin evinin ətrafında daimi mühafizə təşkil olunmalı və o binadan çıxarkən mühafizəçilərin əhatəsində maşına qədər ötürülməlidir.

Mühafizə altında olan fərd mümkün qədər az hərəkətdə olmalı,görüşdən,qonaqlıqlardan və digər bu kimi tədbirlərdən mümkün qədər uzaq olmalıdır.Evdə və işdə tez-tez yerini dəyişməməli,açıq pəncərə,qapı qarşısında dayanmamalı və əgər pəncərədə pərdə yoxdursa,çöldən içəri görünürsə belə yerlərdə açıqda hərəkət etməməlidir. Çünki, uzaq məsafələrdən belə ona qarşı təhlükə törədilə bilər.

Mümkün olduğu halda təhlükə mənbəyinin ələ keçirilməsinə kimi (bunun mümkünlüyü ehtimalı olduqda) mühafizə altında olanların başqa bir ünvanda və ya başqa

şəhərdə,yaxud ölkədə saxlanılması vacibdir.Lakin bu halda da onların mühafizəsinə ehtiyac vardır.

Mühafizəçilərdən və cangüdənlərdən daha çox mühafizəsi təşkil olunan şəxslər özlərini müdafiə etməyə çalışmalı və şübhəli yaxud böhranlı vəziyyətlərdə nə etməli olduqlarına düzgün qərar verməyi bacarmalıdırlar.

## 6.5. Maliyyənin mühafizəsi və inkassasiya şöbəsinin vəzifələri

Maliyyə vəsaitlərinin təhlükəsizliyinin təmin edilməsi dedikdə bu maliyyənin istifadə olunduğu bütün mərhələlərdə,bank əməliyyatlarında (təhvil vermə və alma) daşınma,müvəqqəti olaraq müəssisədə saxlanmada,qarşı tərəfə təhvil vermə zamanı və bu kimi əməliyyatlarda maliyyənin mühafizəsi başa düşülməlidir.

Müəssisə daxilində maliyyə vəsaitlərinin təhlükəsizliyinin təmin edilməsi əsasən kassa otaqlarının mühafizə olunmasının təşkilindən ibarətdir.

Burada nağd pul vəsaitlərinin müəssisədə hansı qaydada,hansı şəraitdə və necə saxlanması məsələlərinə baxılır.Etibarlı mühafizənin təşkil olunması əsasən aşağıdakıların yerinə yetirilməsindən keçir ki,bu da kassa otağının etibarlılığından asılı olan şərtlərin ödənilməsidir:

1. Kassa otağının digər istifadədə olan otaqlardan izolyasiya edilməsi;

2. Kassa otaqları möhkəm divarlara, döşəmə və tavana malik olmalıdır;

3. Kassa otaqları divara bərkidilmək şərti ilə möhkəm,oda davamlı, ağır seyflərlə təmin olunmalıdır;

4. Qapılar, pəncərələr, ventilyasiya çıxışları kassaya daxil olmaların qarşısını maksimum səviyyədə almaq imkanına malik olmalıdırlar;

5. Kassa otağı siqnalizasiya,yanğından mühafizə də daxil olmaqla minimum iki sərhəddən ibarət olmalıdır.

Nağd pul vəsaitlərinin daşınması əsas təhlükəli maliyyə əməliyyatlarından sayılır. Maliyyə vəsaitlərinin hərəkəti xüsusi təchiz edilmiş avtomobillər vasitəsi ilə həyata keçirilməlidir.Belə avtomobil nəqliyyatı aşağıdakı tələblərə cavab verməlidir:

1. Həddindən artıq qapalı, zirehlənmiş,güllə keçirməyən,təkərləri rezindən tökülmə və ya deşildikdə belə bir müddət hərəkət edə bilən və s. kimi fərqli üstünlüklərə malik olmalıdır;

2. Sürücü kabinəsi ilə ban arasında əlaqə sistemi, yaxud radio əlaqə olmalıdır;

3. Maliyyə vəsaitləri daşınan ban işıqlandırılmalı və istilik sistemi mövcud olmalıdır;

4. Bütün qapılar möhkəm, partlayışa davamlı olmaqla bərabər, içəridən kilidlənilə bilən olmalıdır.

Vəsaitlərin daşınmasını təmin etmək məqsədi ilə digər firmalardan və ya təşkilatlardan,yaxud fərdlərdən ixtisaslaşdırılmış avtomobillərin icarəyə götürülməsi qəti qadağandır.

Maliyyə vəsaitləri daşınması zamanı və ya digər hallarda inkassator avtomobillərində kənar şəxslərin daxil olması və ya birgə hərəkət etməsi qəti qadağan olunmalıdır.Avtomobilin texniki təmirə ehtiyacı olduqda,təmirin müəssisə ərazisində və xüsusi nəzarət altında aparılması vacibdir.

Hərəkət zamanı təhlükə nəticəsində və ya təsadüfən avtomobildə hərəkət edənlərdən hər hansı birinə tibbi yardım lazım olduqda belə avtomobili saxlamaq olmaz.Bu zaman yardım üçün inkassatorlar radio əlaqəsi vasitəsi ilə təhlükəsizlik xidmətindən yardım və məsləhət almaqla müvafiq qərara uyğun hərəkət etməlidirlər.

Çantanın inkassatorlara təhvil verilməsi prosesində vəsaiti təqdim edən şəxsdən başqa heç bir kənar şəxs yaxud firmanın öz əməkdaşları belə olmamalıdır.

İnkassator avtomobilinin obyektlərə hərəkəti zamanı hərəkət yollarında,daxil olduğu bütün ərazilərdə aşağıdakılardan heç birinə yol vermək olmaz:

1. Səliqəsiz giriş yolunun mövcudluğu;
2. Kriminogen bölgələrdən marşurutun keçməsi;
3. Qaranlıq,dar dəhlizlərin mövcudluğu;
4. İşıqlandırılmamış zonalar;
5. İnkossasiya obyektinə digər obyektlərin hərəkət hissələrindən keçid;
6. Avtomobil dayanacağının inkossasiya obyektindən kənarda,yaxud uzaqda saxlanması.

İnkassasiya obyektinin nümayəndəsi (bu adətən həmin firmanın təhlükəsizlik xidmətindən seçilir) inkasatorları obyektin qarşısında qarşılamalı və çanta ilə birlikdə geriyə, maşına qədər yola salmalıdır.

İnkasasiya obyektinin nümayəndəsi yalnız inkasatorları müşayət edə bilər və təhlükə baş verdikdə onlara yardımçı olmalıdır. Lakin pul vəsaitini, yaxud qiymətli malı,çantanı inkassator təhvil aldıqdan sonra yalnız özü daşımalıdır.

İnkasasiya edilən obyektlərə inkassasiya vaxtı və maşurutu gizli saxlamaq şərti ilə optimal vaxtda aparılmalı və tez-tez bu marşurutlar və vəsaitin qəbul vaxtı dəyişdi-rilməməlidir.

İnkasasiya şöbəsi təhlükəsizlik xidmətinin bölməsi olmaqla bərabər, təhlükəsizlik xidməti rəisinə tabedir.Bu şöbənin tərkibində bir neçə marşurut qrupu daxil olmaqla hər marşurut üzrə bir sürücüdən ibarət dəstə formalaşdırı-lır.Daxili inkassasiya qrupu baş inkasator və iki inkasator-dan ibarət olur.

İnkassasiya şöbəsinin əsas vəzifələri aşağıda qeyd olunanlardan ibarətdir:

1. Müqaviləyə uyğun olaraq firma və müəssisələrdən pul vəsaitlərinin yığılması,nəql edilməsi və banka çatdırıl-ması;

2. Bankın tapşırığı əsasında maliyyə vəsaitlərinin da-şınması istiqamətində fəaliyyətin yerinə yetirilməsi;

3. Müştərilərin tələbnamələri əsasında bankdan ay-rılmış vəsaitlərin onlara çatdırılmasının təmin edilməsi.

İnkassasiya qrupunun şəxsi heyətinin tərkibi inkasator adlanan mühafizəçilər, xüsusi təyinatlı avtomo-bil və sürücü ilə tamamlanır.

Daşınan maliyyə vəsaitləri və qiymətli əşyaları təhvil aldıqdan sonra onun təyinat yerinə tam və heç bir ziyan görmədən çatdırılıb təhvil verdiyi vaxta qədər inkasasiya qrupu birgə məsuliyyət daşıyır.

İnkasasiya şöbəsinin rəisi təhlükəsizlik xidməti rəisinin təqdimatı əsasında təyin olunur və aşağıdakılara görə cavabdehdir:

1. Maliyyə vəsaitlərinin müqavilələrə uyğun formada təhlükəsiz daşınmasının təmin edilməsi;

2. İnkassatorların obyektlərə daxil olması,marşurut qrafiklərinin tərtibatı;

3. Maliyyə vəsaitlərinin daşınmasının təmin olunması üçün inkassator briqadalarının təşkili;

4. İnkassatorların qayda və qanunlara düzgün riayət etmələrinin yoxlanması istiqamətində fəaliyyətin təşkili;

5. Əməkdaşların istifadəsi üçün alınmış silah-sursatın uçotu və istifadəsinin nəzarətdə saxlanılması;

6. Əməkdaşların peşəkarlığının artırılması istiqamətində işlərin təşkili.

İnkasasiya şöbəsinin rəisi eyni zamanda aşağıdakıların yerinə yetirilməsinə borcludur:

- qanunvericilikdə nəzərdə tutulmuş hüquqi norma və normativlərin, nizamnamə, silah saxlanması, istifadəsi qaydalarının,əsasnamə və başqa sənədlərdə əks olunan şərtlərin yerinə yetirilməsinə;
- işçilərə sistematik olaraq fəaliyyətlərindəki çatışmazlıqların aşkarlanması və düzəldilməsini təmin etməyə;
- odlu silahdan istifadə olunduğu hallarda dərhal təhlükəsizlik xidməti rəhbərini məlumatlandırmağa;
- şöbədə istifadə olunan texniki vəsaitlərin və avadanlıqların daimi işlək vəziyyətdə saxlanmasını təmin etməyə;
- şöbənin şəxsi heyətinin hazırlanması və yenidən hazırlanmasını təşkil etməyə.

İnkassatorlar təşkilat və müəssisələrdən qəbul olunmuş vəsaitlərin müəssisələrdən məsuliyyətini üzərlərinə götürərək banka təhvil verən vəzifəli şəxslərdir.

Onların vəzifələri əsasən aşağıdakılardan ibarətdir:

- müəssisələrdən vəsaitlərin qəbul edilib banka təhvil verilməsi;
- pul vəsaitlərinin ticarət mərkəzlərindən toplanıb firmanın baş ofisinə və oradan müvafiq banka çatdırılması;
- pul vəsaitlərinin işçilrin əmək haqqının ödənilməsi məqsədi ilə bankdan götürülüb müəssisənin kassasına təslim edilməsi;
- bankdan alınan kreditlərin istehlak məntəqəsinə çatdırılması və s.

İnkassatorlara aşağıdakılar qadağan olunur:

- inkasasiya və qiymətli vəsaitlərin daşınmasından kənar fəaliyyətlərin icrası;
- avtomobildən aralanmaq və avtomobilin yaxınlığında kənar şəxslərlə söhbət etmək;
- radiostansiya vasitəsi ilə lazım olan informasiyalardan kənar informasiyaların ötürülməsi və ya sorğulanması;
- xidmət göstərdiyi təşkilatlardan xidmət əldə etmək;
- öhdəsində olan əmanətləri nəzarətsiz qoymaq;
- kənar şəxsləri avtomobildə qəbul etmək və ya onların harasa aparılmasına icazə vermək;
- qaydalara uyğun gəlməyən hərəkətlərə yol vermək.

İnkassatorlar tabel silahlarından yalnız aşağıdakı hallarda istifadə edə bilərlər:

1. Öhdəsində olan vəsaitlərin qorunması üçün;
2. Cinayətkarların hücumu vaxtı və ya həyatı təhlükə altında qaldıqda;
3. Digər inkassatora və yaxud onların qoruduğu vəsaitlərə təhlükə yarandıqda.

İnkassatorlar silah tətbiq etmiş olduqda bu barədə inkasasiya üzrə növbətçiyə və Daxili İşlər orqanlarına təcili məlumat verməlidir.O, həmçinin hadisə yerini bank əməkdaşları və polis orqanları gələnə qədər tərk etməməlidir.

İnkassatorlara silahdan əhalinin çox olduğu yerlərdə, onların həyatına təhlükə yarana biləcəyi hallarda və qadınlara, uşaqlara,yeniyetmələrə qarşı silahdan istifadə etməyə icazə verilmir.

# FƏSİL7. KOMMERSİYA SİRRİ VƏ ONUN TƏHLÜKƏSİZLİYİNİN TƏŞKİLİ

## 7.1. Kommersiya sirri və onun mahiyyəti

Kommersiya sirri dedikdə müəssisənin kommersiya fəaliyyətində istifadə olunan elə informasiyalar nəzərdə tutulur ki,bu informasiyalar özündə yeni elmi-texniki layihələri, kəşfləri, müəssisənin maliyyə əməliyyatlarını, idarəetmə strukturu haqqında bəzi məlumatları,idarə heyəti haqqında gizli saxlanılan informasiyaları əks etdirir.

Kommersiya sirrinə aid edilən informasiyalardan biri də “nou-hau”-dur. Nou-hau mütəxəssislərin əqli fəaliyyətinin nəticəsi olub, kommersiya sirrinə aid edilən, sahibinin mülahizəsinə əsasən patentlə mühafizə olunmayan informasiyalardır.

Beləliklə, kommersiya sirri-hüquqi və fiziki şəxslərin istehsal, texnoloji, idarəetmə, maliyyə və başqa fəaliyəti ilə bağlı,sahibinin razılığı olmadan açıqlanması onun qanuni maraqlarına ziyan vura bilən məlumatlara deyilir.

Kommersiya məlumatları müəssisələrə və banklara aid olmaq şərti ilə iki qurupa bölünür:

1. Elmi-texniki məlumatlar;
2. İşgüzar xarakterli məlumatlar.

Elmi-texniki məlumatlar da öz növbəsində aşağıdakılara bölünür:

1. Texniki-texnoloji layihələr haqqında məlumatlar;
2. İstifadə olunan material və məmulatlar haqqında məlumatlar;

3. Kompyuterlərdə istifadə olunan proqram təminatları.

İşgüzar xarakterli məlumatlara isə aşağıdakılar daxil edilir:

1. Müştərilər, vasitəçilər, rəqiblər, onlarla qarşılıqlı münasibətlər, maliyyə vəziyyəti, aparılan əməliyyatlar, müqavilə şərtləri,müqavilələr və s. məlumatlar;

2. Reklam fəaliyyəti haqqında məlumatlar;

3. İstehsal olunan məhsulların rəqabət qabiliyyətliliyini əks etdirən təhlilin nəticələri;

4. İdxal və ixracın effektivliyini xarakterizə edən məlumatlar;

5. İstehsal və inkişaf planlarını özündə əks etdirən məlumatlar;

6. Müəssisənin maliyyə fəaliyyətini əks etdirən məlumatlar;

7. İstehsal həcmi barədə olan məlumatlar.

XX əsrin ortalarından başlayaraq kommersiya sirri məsələsinin tətbiqinə inkişaf etmiş dövlətlər tərəfindən başlandı.Buna səbəb hazır texnologiyaların və layihələrin digər firmalar tərəfindən qısa müddətdə tətbiqi, rəqabət aparan firmalar arasında birinin böyük xərclə əldə etdiyi,yaxud sifarişlə hazırladığı layihəni digərlərinin asanlıqla, heç bir xərc çəkmədən əldə edib istifadə etməsi idi.

Bu ədalətsizliyin qarşısının alınması məqsədi ilə ilk dəfə ABŞ-da 1974-cü ildə Ali məhkəmənin qərarı ilə kommersiya sirrinin qorunması barədə qərar qəbul olundu.1996-cı ildə isə yenə də ABŞ-da sənaye casusluğu haqqında qanun qəbul edilmişdir.

Lakin dünyanın bir sıra,məsələn: Rusiya, Almaniya, Tailand,Yaponiya, Çin və s. ölkələrində kommersiya sirri haqqında qanun 1990-cı ildə qəbul olundu.

Azərbaycan Respublikasında "Kommersiya sirri" haqqında qanun 2001-ci il dekabr ayının 4-də qəbul olunmuşdur.Bu qanun ölkədə kommersiya sirri ilə əlaqədar yarana biləcək münasibətlərin tənzimlənməsini təmin edir.

Konfidensial informasiya - hər hansı bir firma və ya müəssisəyə aid olmaq şərti ilə daxil olunması məhdudlaşdırılan, sənədləşdirilmiş informasiyadır.

Müdafiəsinin təmin olunması dərəcəsinə görə informasiyalar aşağıdakı kimi təsnifləşdirilirlər:

1. Açıq informasiyalar;
2. Ümumi istifadə üçün olan informasiyalar;
3. Məhdud istifadə üçün olan informasiyalar;
4. Konfidensial informasiyalar;
5. Dövlət sirrinə aid edilən informasiyalar.

Hər bir müəssisə üçün konfidensial informasiyalar aşağıdakılardır:

1. İşçi personal haqqında olan informasiyalar;
2. Sənədlər;
3. Nəşrlər;
4. İnformasiyanın texniki daşıyıcılarında toplanan məlumatlar;
5. İstehsal və əmək fəaliyyətinin təşkilindən yaranan informasiyalar;
6. Məhsul və onunla bağlı olan informasiyalar;
7. Sənaye və istehsalat tullantıları haqqında olan informasiyalar.

Ümumiyyətlə, kommersiya sirri dövlət məxfiliyini özündə əks etdirməyən istehsal prosesi,texnologiya,idarə-etmə,maliyyə və s. ilə bağlı olan,müəyyən bir subyektə məxsus olan və başqalarına açıqlandıqda sahibi üçün zərərli nəticələrə gətirib çıxara bilən məlumatlara deyilir.Müəssisə üçün kommersiya sirri hesab edilməyən informasiyalar aşağıdakılardır:

1. Dövlət tərəfindən mühafizə olunan informasiyalar;
2. Qanuni əsaslarla ictimai hesab olunan məlumatlar;
3. Patentlər,əmtəə nişanları və s;
4. Fəaliyyətin neqativ tərəfini əks etdirən məlumatlar;
5. Təsərrüfat fəaliyyətinin təsis sənədləri və digər məlumatlar.

## 7.2. Kommersiya sirri sayılan informasiyaların seçilməsi

Biznesin təhlükəsizliyinin təmin olunmasında əsas məsələlərdən biri də informasiya və ya kommersiya sirrinin təhlükəsizliyidir. Bu informasiyaları şərti olaraq iki qrupa bölmək olar:

1. İstehsal prosesi informasiyaları;
2. Kommersiya informasiyaları.

İstehsal prosesində təhlükəsizliyin təmin olunması tələb olunan əsas informasiyalar aşağıdakı kimi təsnifləşdirilir:

1. Əldə olunmuş elmi-kəşflərin və ya patentlərin tərtib olunması mərhələsində olan informasiyalar;

2. Layihə olunan obyektlərin konstruktur sənədləşməsi;

3. Elektrik avadanlıqları və cihazlarının layihə elektrik sxemləri;

4. Elektron-hesablama texnikası və kompyuter şəbəkələrinin proqram təminatı;

5. Məhsulun hazırlanma resepti və s.

Kommersiya fəaliyyətində təhlükəsizliyin təmin olunmasını tələb edən informasiyalar əsasən aşağıdakılardan ibarətdir:

1. Bank əməliyyatlarını özündə əks etdirən informasiyalar;
2. Kontragentlərlə bağlanılan müqavilələr haqqında informasiyalar;
3. Hazır məhsulun satış planı və təchizat planı haqqında məlumatlar;
4. Müştərilər haqqında əldə olunmuş məlumatlar;
5. Marketinq fəaliyyəti və tədbirləri haqqında məlumatlar;
6. Firmada fəaliyyət göstərən əməkdaşlar haqqında məlumatlar.

Qorunması tələb olunan informasiyalar seçildikdən sonra bu sənədlərin üzərində "Kommersiya sirri" (KS) qrifinin qoyulması vacibdir.

"Kommersiya sirri" qrifinin sənəd üzərində qoyulması qaydaları aşağıdakı kimidir:

Seçilmiş sənədlərin "saxlanma müddəti" üzərində sənədləri tərtib edən, yəni icraçı və sənədə imza atan şəxslə,nəşrin üzərində-müəlliflə, yəni tərtib edənlə və nəşri çapa təsdiqləyən rəhbərlə birgə, sənəddə olan kommersiya

sirrinin təsir müddəti hər bir konkret halda sənədi imzalayan şəxslə konkret tarixin "əmək müqaviləsi bağlanana qədər", yaxud "müddətsiz"şəkildə müəyyən edilir.

Kommersiya sirri sayılan hər bir sənədin son vərəqinin arxa tərəfində belə bir nişan çap olunur ki, burada da çap nüsxələrinin miqdarı,icraçının soyadı,telefonu, sənəddə olan sirrin təsiretmə müddəti (konkret vaxtı,yaxud "əmək razılığının bağlanmasına qədər",yaxud "müdafiəsiz") və çapa hazırlayan işçinin soyadı göstərilir.

"Kommersiya sirri" qrifinin ləğv edilməsi məsələsi xüsusi təşkil olunmuş komisiyanın səlahiyyətində olur ki,bu komisiyanın tərkibində təhlükəsizlik xidməti və uyğun struktur bölmələrinin nümayəndələri iştirak edirlər.

Bu komisiyanın qəbul etdiyi qərar sərbəst formada tərtib olunan aktlar formasında sənədləşdirilir və müvafiq bölmənin rəhbəri yaxud onun müavini tərəfindən təsdiq olunur.

Tərtib olunmuş aktın bir nüsxəsi işlə birlikdə müəssisənin arxivinə daimi saxlanmaq məqsədi ilə, digər nüsxəsi isə dövlət arxivinə təhvil verilir.

İnformasiyaların mühafizə olunması zamanı bir sıra amillərə diqqət yetirilməlidir ki, bu amillərdə aşağıdakılardan ibarətdir:

1. Mühafizəyə ehtiyacı olan informasiyaların seçilməsi;

2. Bu informasiyalar daha çox kimləri maraqlandıra bilər;

3. Bu informasiyaların hansı elementi daha maraqlıdır;

4. Həmin informasiyaların sirri "həyat dövrü" nə qədərdir?!

5. Bu informasiyaların saxlanmasına və qorunmasına nə qədər xərc tələb olunur.

Mühafizəyə ehtiyacı olan informasiyalara elə informasiyalar aid edilir ki,bu informasiyaların açıqlanması müəssisənin mənafeyinə ziddir. Yuxarıda qeyd etmişdik ki,belə informasiyalar kommersiya sirri adlanır.Həmin informasiyalar bildiyimiz kimi firmanın gəlirləri, strategiyası, maliyyə hesabatları, kadrlar haqqında məlumatlar, satış proqramları və s. kimi məlumatlardır.

Yuxarıda qeyd etdiyimiz kimi hər bir informasiyanın gizli saxlanması üçün müəyyən xərc tələb olunur.Bəzən informasiyanın gizli saxlanması üçün tələb olunan xərc onun açıqlanmasından gələn ziyandan qat-qat yüksək olur.Bu halda belə informasiyaların qorunmasına ehtiyac qalmır.Yəni onların mühafizə olunması məsələsi gündəlikdən çıxarılır.

Onu da qeyd edək ki,informasiyaların etibarlı mühafizəsini təşkil etmək üçün əsasən aşağıdakılara diqqət yetirmək lazımdır:

1. İnformasiyalardan istifadə etməyə icazəsi olan heyət.Yəni informasiyalardan istifadə edən heyətin tərkibi elə olmalıdır ki,onların sayı minimum olmaqla bərəbər, həm də hər biri kifayət qədər etibarlı olmalıdır ki,informasiya sızmasına yol verilməsin;

2. İnformasiya daşıyıcılarına nəzarət.Bu elə təşkil edilməlidir ki,informasiya daşıyıcılarına az sayda işçi müdaxilə etmək hüququna malik olsun,həmçinin bu mütəxəssislərin etibarlılığı olduqca vacibdir;

3. İnformasiya daşıyıcıları və emalı sistemlərinə nəzarətin təşkili səviyyəsi çox yüksək olmalıdır.Bu zaman

bu sistemlərə müdaxilə etmək və kənar şəxslərdən qorunması yüksək səviyyədə təşkil olunmalıdır.

## 7.3. Kommersiya sirri sayılan informasiyaların "sızması" yolları

Kommersiya sirri sayılan informasiyaların əldə edilməsi kəşfiyyat xarakterli fəaliyyət nəticəsində reallaşdırıla bilir. Bu bəzən firmalarda ehtiyatsızlıq və xidməti zərurətdən irəli gəlməyən səbəblərdən də baş verə bilir. Kommersiya sirrlərinin aşkarlanması adətən aşağıdakı səbəblərdən baş verir:

1. Sirrin açılması;
2. Sirrin sızması;
3. İnformasiyalara sərəncamsız daxil olmalar.

Kommersiya sirrinin açılması dedikdə, bu vəzifəli şəxslərin və yaxud kommersiya sirri sayılan informasiyalardan istifadə edən şəxslərin istifadə etmək hüququ olduğu informasiyaların xidməti zərurətdən irəli gəlməyən və yaxud vaxtından tez, bilərəkdən və ya bilmədən açıqlanması,yaxud belə məlumatların müxtəlif kanallarla ötürülüb aşkarlanması nəzərdə tutulur.

Bu məlumatların açıq nəşri dedikdə isə, onların mətbuat orqanlarında açıq şəkildə nəşr edilməsi, efirdə səslənməsi və ya göstərilməsi,qurultay və ya konfranslarda dinlənilməsi,dissertasiya işlərinin müdafiəsində səsləndirilməsi,birbaşa kənar şəxslərə ötürülməsi başa düşülməlidir.

Kommersiya sirrinin açıqlanmasına, onun nəşr olunmasına müqavilə və ya qarşılıqlı etibar əsasında əldə edil-

miş, birgə təsərrüfat fəaliyyəti nəticəsində qazanılmış məlumatların açıq nəşr olunması əməkdaşların birgə razılaşmaları yolu ilə icra oluna bilər.

Qeyd etmək lazımdır ki,kommersiya sirri sayılan informasiyaların xidməti təftiş, istintaq məqsədi ilə dövlət və ya mətbuat orqanlarına açıqlanması müvafiq qaydalara uyğun formada tənzimlənir.

Kommersiya sirrinin sızması dedikdə mühafizə edilən məlumatların müəssisədən kənara nəzarətsiz çıxışı başa düşülməlidir.

Konfidensial informasiyanın sızmasına şərait yaradan amillər aşağıdakılardır:

- əməkdaşların informasiyaları mühafizə etmək üsullarını yaxşı mənimsəməməsi və ya bu qaydaların icra olunmasında səhvlərə yol verməsi;
- informasiya emalı zamanı istifadə olunan texniki vasitələrin adekvat olmaması;
- qoyulmuş qaydalara və informasiyaların mühafizə olunmasına məsuliyyətsiz yanaşma.

İnformasiyaların sızma kanallarından biri də akustik (danışıq) kanallarıdır.Bu sızma kanallarını hava,vibrasiya,akustik-elektrik və parametrik kanallara bölmək olar:

1. Məlumatların hava-texniki sızma kanallarının yayılma mühiti havadır və bu informasiyaların əldə edilməsi,yüksək həssaslığa malik olan,xüsusi istiqamətlənmiş mikrofonlar vaistəsi ilə mümkündür.Belə mikrofonlardan istifadə edildikdə onlar binaya doğru istiqamətlənmiş olurlar.Binanın daxilində aparılan danışıqlar, əgər təmas üçün açıq pəncərə,nəfəslik və s. varsa informasiya dəqiq

və asanlıqla qəbul olunur.Əks təqdirdə informasiya qəbulu xeyli çətinləşir.

Digər informasiya əldə etmək metodu isə “ju eok” adlandırılan miniatür mikrofonlar vaistəsi ilə aparılır ki, buna bəzən “qoyma qurğuları” da deyirlər.Belə qurğulardan istifadə etmək üçün mütləq fürsət tapıb danışıqlar otağına kiminsə daxil olub qurğunu telefon aparatlarında, telefon xəttində və ya otaqda münasib yerdə yerləşdirməsi lazımdır. Bu sistem informasiya əldə etmək üçün ən etibarlı vasitədir, lakin onun təşkili olduqca çətindir.

2. Vibrasiyaya əsaslanan texniki sızma kanallarından istifadə zamanı akustik siqnallarının daşıyıcıları olan bina və tikililərin bərk konstruksiyalarından istifadə olunur.Bu zaman akustik rəqs dalğalarının tutulması üçün konkret mikrofonlar (stetoskoplar) istifadə olunur.

Bu tip sistemlər danışıqlar zamanı səs dalğalarının akustik olaraq bərk cisimlərə və oradan da vibrasiya formasında  quraşdırılmış ötürmə qurğularına və bu qurğular vaistəsilə informasiyanı əldə etmək istəyən tərəflərə ötürülür.Beləliklə informasiyanın sızması prosesi baş verir.

3. İnformasiyaların sızma kanallarından biri də akustik siqnalların elektrikə çevrilərək elektro-akustik rəqslərin tutulması ilə baş verən proseslərdir.

Müəssisədə istifadə olunan avadanlıqlar,transformatorlar,induktivlik  katuşkaları,elektromaqnit  cihazları,gündüz lampalarının drosselləri və s. akustik rəqslərin yaratdığı akustik sahənin təsirinə məruz qalırlar,eyni zamanda bu təsir nəticəsində parametrlərini də dəyişmək xüsusiyyətlərinə (həcm,induktivlik,müqavimət) malikdir.

Qeyd olunan cihazların bu xüsusiyyətlərindən istifadə etməklə danışıqların dinlənilməsi mümkündür.

Bu zaman verici cihaz danışıq otaqlarında istifadə olunan cihazların birində yerləşdirilir,danışıqlar zamanı akustik səslərin elektromaqnit dalğalarına göstərdiyi təsir bu cihazlar vaistəsi ilə qəbul olunur və elektromaqnit siqnalları vaistəsi ilə qəbulediciyə ötürülür.Beləliklə də informasiyaların sızması təmin olunur.

4. Optik-elektron texniki sızma kanalı lazer şüası ilə akustik sahədə vibrasiya edən nazik əksedici səthlərin (şüşələrin, şəkillərin, güzgülərin) şüalandırılması zamanı yaranır. Əks olunmuş şüa müəyyən amplituda və fazaya görə modelləndirilir ki, bu da qəbuledici vaistəsi ilə qəbul olunaraq, demodulyasiya edilərək, nitq informasiyasına çevrilərək informasiyanın sızmasına səbəb olur.

Konfidensal informasiyalardan istifadə cəhdi əsasən aşağıdakı formalarda təşkil olunur:

- əməkdaşlığa cəlb etmə,firmanın əməkdaşlarının öyrədilməsi,qulaq asma,şəkilçəkmə və s.
- müşahidə,oğurluq,sürətçıxarma,saxtalaşdırma,qeyri-aşkar tanışlıq və s.
- analitik emal, saxtalaşdırma, sürətçıxarma, məhvetmə, oğurluq (texniki vaistələrə qarşı).

## 7.4.Konfidensal informasiyalardan istifadə qaydaları

Təbiidir ki, müəssisənin kommersiya sirri kimi saxlanılan və mühafizə olunan informasiyalarından istifadə olunmalıdır. Eyni zamanda bu informasiyalardan bütün

əməkdaşların istifadə etməsi və ya məlumatlandırılması, təhlükəsizlik baxımından məqsədəuyğun deyil.

Ona görə də konfidensial informasiyalardan istifadə olunması üçün müəyyən qaydaların tətbiq olunması vacibdir.Bu qaydalar isə əsasən aşağıdakıların tətbiqindən ibarətdir:

- əməkdaşların tanış olduqları və istifadə etdikləri məxfi məlumataların açıqlanmaması barədə öhdəçilik götürmələri;
- konfidensial informasiyalardan istifadə etməli olan əməkdaşların hər hansı bir məhdudiyyətlərlə və ya hüquqlarının məhdudlaşdırılmamasının təmin edilməsi;
- əməkdaşın ona qarşı məxfi informasiyaların açıqlanması və ya sızması ilə bağlı yoxlama,yaxud nəzarət tədbirlərinin aparılmasına razılığın alınması;
- əməkdaş tərəfindən məxfi informasiyalardan istifadə edərkən onların saxlanma və mühafizə qaydalarına riayət olunmasının təmin edilməsi;
- əməkdaşın ölkə qanunvericiliyində kommersiya sirrinin açıqlanmasına görə məsuliyyət normaları ilə tanış edilməsi;
- sızma məlumatlardan xəbərdar olduqda bunu mühafizə üzrə mütəxəssisə xəbər verməsi;
- konfidensial xarakterli məlumatlara yiyələnmək haqda qərar qəbul edilməsi və s.

Kommersiya sirri sayılan informasiyalardan mütəxəssislərin istifadə etməsinə icazə direktor,onun bu sahə üzrə müavini,yaxud strukturun bölmə rəhbərləri tərəfindən verilir.

Bölmə və ya şöbə rəhbərləri kommersiya sirri hesab edilən informasiyalara mütəxəssislərin seçilməsinə cavabdehdirlər.Onlar yalnız xidməti borclarının yerinə yetirilməsi üçün vacib olan mütəxəssisləri konfidensial informasiyalardan istifadə etməyə icazə verməli və tez-tez onların fəaliyyətinə nəzarət aparılmasını təşkil etməlidirlər.

Kommersiya sirri sayılan informasiyalara  bu informasiyalardan istifadə etməsi vacib olan, mənəvi cəhətdən etibarlı,sirri qorumağı bacaran, eyni zamanda təhlükəsizlik xidməti bölmə və şöbəsinə yazılı öhdəlik götürdükdən sonra mütəxəssislər buraxıla bilər.

Kommersiya sirri ilə tanış olmağa səlahiyyətli dövlət orqanlarının nümayəndələri yalnız o halda buraxıla bilərlər ki, bu orqanlar tərəfindən göstərilmiş məktubda nümayəndənin fəaliyyət müddəti,apardığı işin istiqaməti, tapşırığın həcmi və s. kimi məlumatlar əks olunsun.Ezam olunmuş nümayəndə kommersiya sirri sayılan informasiyalardan seçilmiş yazıları elə bu cür qrifli dəftərlərə qeyd edir və məlumatdan istifadə edib yekunlaşdırdıqdan sonra həmin dəftəri müəssisəyə qaytarmalıdır.

Kommersiya sirrindən mühafizə etməyə icazə verilmiş şəxslər isə aşağıdakıları yerinə yetirməyə borcludurlar:

1.kommersiya sirrini ciddi şəkildə gizli saxlamalıdırlar.Kommersiya sirrinin sızması barədə məlumat əldə etdikdə,yaxud kommersiya sirri olan hər hansı bir sənədin itməsi barədə müəyyən məlumat əldə etdikdə dərhal öz rəhbərinə və təhlükəsizlik xidmətinə xəbər verməlidirlər;

2.“KS” (kommersiya sirri) qrifli sənədlərin hamısını təhlükəsizlik xidməti nümayəndələrinin tələbi ilə yoxlama üçün göstərməlidir.Bundan başqa özü tərəfindən

müəyyən təhlükəsizlik qaydaları pozulduqda təhlükəsizlik xidmətinə yazılı formada izahat verməlidir;

3.Bu əməkdaşlar yalnız onlara icazə verilmiş sənədlərlə tanış olmalı, kənar informasiyalara müdaxilə etməməli,başqa işlərlə məşğul olmamalıdırlar;

4.Kommersiya sirri sənədlərinin qorunması və istifadə qaydalarına uyğun olaraq onların əsassız yayılmasına yol verməməlidirlər;

5.Təhlükəsizlik xidməti işçilərindən,yaxud onun səlahiyyətli əməkdaşlarından alınmış qrifli sənədlərin hamısı dərhal sənədlərin daxili siyahısına daxil edilməlidir, (forma 55) bu siyahıda kommersiya sirrlərinin uçotu üzrə xüsusi bölmə ayrılır;

6.İcra olunmuş işləri, həmçinin paylanma, işə tikilmə, yaxud ləğv edilmə üçün toplanmış sənədləri təhlükəsizlik xidmətinə və ya xidmətin səlahiyyətli nümayəndəsi işçilərinə təhvil verilməlidir;

7. “KS” qrifli sənədlərə kənar müdaxilələrin həmçinin bu sənədlərdən istifadə etməyə səlahiyyəti və icazəsi olmayan öz əməkdaşlarına daxili rejimin tələblərinin icrasını yerinə yetirilməsinin təmin edilməsi;

8.Danışıqlar aparılarkən danışıqların uğurlu nəticələnəcəyinə əmin olduqda belə kommersiya sirri sayılan informasiyalardan minimal istifadə olunmasının təmin edilməsi;

9.Müəssisə informasiyalarından kommersiya sirrinin sahibinə ziyan vuran şəraitin yaradılmaması.

## 7.5.Danışıqların aparılmasının təşkili qaydaları

Biznes elə bir prosesdir ki,bu daim tərəfdaşların axtarılması,müzakirələrin aparılması və danışıqlar yolu ilə razılaşma əldə edilməsini tələb və təmin edən fəaliyyət sahəsidir.

Təbiidir ki,belə danışıqların aparılması zamanı bəzən kommersiya sirri hesab olunan bəzi informasiyalar da danışıqlar predmeti ola bilər.Yaxud tərəfdaşlıq əlaqələrinin müəyyən müddət gizlin saxlanılması məsələsi də medana çıxa bilər.

Belə olduqda danışıqların gizli və mühafizə oluna bilən bir şəraitdə keçirilməsi vacibdir.

Qeyd etmək lazımdır ki,kommersiya sirri ilə müşayət olunan danışıqların aparılmasına firmanın rəhbərliyi və onların səlahiyyət verdikləri şəxslərin icazə verməyə hüquqları vardır.Danışıqların keçirilməsinə rəhbərlik tərəfindən icazə verildikdən sonra iştirakçılar müəyyənləşdirilir.Bu tərkibə yalnız ən etibarlı mütəxəssislər seçilməlidir.Tərkibə daxil olan mütəxəssislər müəyyənləşdirildikdən sonra danışıq iştirakçılarının adı,soyadı, atasının adı,-vəzifəsi və müəssisənin də adı göstərilmək şərti ilə siyahı tərtib olunur.

Danışıqlara yalnız siyahıya adları daxil edilmiş şəxslər buraxılır.Danışıqlar başlamazdan əvvəl müəssisədən təyin olunmuş nümayəndə heyətinin rəhbəri bütün iştirakçılara kommersiya sirrinin qorunmalı olduğunu, hansı məsələlərin konkret kommersiya sirri olduğunu xatırlatmalı və informasiyanın yayılmasının yolverilməz olduğunu çatdırmalıdır.

Eyni zamanda bu informasiyanı kənara ötürən şəxslərin məsuliyyət daşıdığını qeyd etməlidir.Bütün danışıqlar qeydə götürülür və protokolda öz əksini tapmalıdır.

Danışıqların təşkili zamanı onun harada,nə vaxt aparılacağı son məqama qədər gizli saxlanmalı və danışıqlar başlanmasına qısa müddət qalanda iştirakçıların toplanmasına göstəriş verilməlidir.

Danışıqların aparılması üçün təyin olunmuş zal məxfi saxlanmalı və burada dinləmə,informasiya ötürülməsi cihazlarının olub-olmadığı yoxlanılmalıdır.Eyni zamanda burada vizual-optik,akustik və s. kimi cihazların istifadə oluna bilməsi və ya kənardan müxtəlif qurğular yerləşdirilməklə informasiya əldə edilməsinin qeyri-mümkünlüyü təmin edilməlidir.

Danışıqlar zamanı kommersiya sirri ilə bağlı olan suallarla,məruzələrlə, informasiyalarla,qərarlarla bağlı hər bir çıxış edənin soyadı protoqolda qeyd olunmalıdır.Eyni zamanda danışıqlar prosesi audio,video kamera vaistəsi ilə təhlükəsizlik xidməti əməkdaşlarının vaistəsi ilə qeyd olunmalıdır.

Bütün bu qeyd olunan vəsaitlər, texniki vəsaitlərlə birlikdə təhlükəsizlik xidməti orqanlarına ötürülür.

# FƏSİL 8. ƏKS-KƏŞFİYYATIN MAHİYYƏTİ, MƏQSƏDİ VƏ MƏRHƏLƏLƏRİ

## 8.1.Əks-kəşfiyyatın mahiyyəti,məqsədi və vəzifələri.

Qeyd etdiyimiz kimi kommersiya sirrinin əldə edilməsi məqsədi ilə rəqib təşkilatlar mümkün olan bütün vasitələrdən istifadə edirlər. Bu vasitələr firmada fəaliyyət göstərən əməkdaşların ələ alınması, firmaya xüsusi olaraq kəşfiyyat aparmaq məqsədi ilə işçi göndərilməsi, texniki vasitələrlə firmadan müəyyən informasiyaların ələ keçirilməsi, bu və ya digər formada isə namizəd, jurnalist, alıcı qismində firmaya daxil olmaqdan ibarətdir. Belə hərtərəfli müdaxilələrin və hücumların qarşısının alınması çətin olduğu qədər, həm də mürəkkəb prosesdir.

Müəssisə və təşkilatların kommersiya sirrlərinin sızmasının, oğurlanmasının və ya digər vasitələrlə bədniyyətli fəaliyyətlərin qarşısının alınması əks kəşfiyyat adlanır. Əks kəşfiyyat müəsisədə diversiya və təxribatların qarşısının alınmasına, nümunələrin oğurlanmasına, kommersiya sirri sayılan məlumatların firmadan çıxarılmasına, yenicə işlənmiş, lakin potentləndirilməmiş elmi-texniki nəaliyyətlərin nəticələrinin oğurlanmasına yönəldilmiş rəqib fəaliyyətinin aşkarlanması və zərərsizləşdirilməsi istiqamətində firmanın təhlükəsizlik xidməti şöbəsinin fəaliyyətidir.

Onu da nəzərə almaq lazımdır ki, əks-kəşfiyyat fəaliyyəti və kəşfiyyat fəaliyyəti bir-biri ilə sıx bağlıdır və ayrı-ayrılıqda heç biri səmərəli fəaliyyət göstərə bilməz.

Əks-kəşfiyyat fəaliyyətinin əsas məqsədi adından göründüyü kimi müəssisənin fəaliyyətinə qarşı yönəldilmiş hər hansı bir təhlükə yarada biləcək hərəkətlərin törədilməsi üçün aparılan kəşfiyyat xarakterli əməliyyatların qarşısının alınmasıdır.

Müəssisənin əks-kəşfiyyat bölməsinin qarşısında duran əsas vəzifələr isə aşağıdakılardan ibarətdir:

1. İqtisadi casuslara qarşı mübarizə.İqtisadi casuslara qarşı mübarizə rəqabət prosesində satış fəaliyyətində, təchizat prosesində, marketinq fəaliyyətində, maliyyənin idarə edilməsi, bank fəaliyyəti və bu kimi iqtisadi sahələrdə müəssisəyə qarşı törədilə bilən təhlükənin qarşısının alınması istiqamətində aparılan fəaliyyətdir;

2. Ayrı-ayrı əməkdaşlara qarşı cinayətlərin qarşısının alınması. Əks-kəşfiyyat bölməsinin vəzifələrindən biri də müəssisə rəhbərliyi, onların ailə üzvləri, aparıcı mütəxəssislərə və onların yaxınlarına qarşı törədilə biləcək cinayət xarakterli əməllərin, yəni fiziki olaraq məhv edilmə, oğurlanma, fiziki təzyiqlər göstərilməsi və s. halların baş verə biləcəyini qabaqcadan müəyyən etmək və belə halların qarşısının alınmasının təmin olunmasıdır;

3. Cinayət xarakterli, qanunazidd hərəkət edən şəxslərin fəaliyyətinin sənədləşdirilməsində polis, nəzarətedici və məhkəmə orqanlarına köməklik göstərmək. Müəssisənin təhlükəsizliyinə qarşı müəyyən hərəkət etmiş və ya təhlükə yaradan fəaliyyət göstərmiş şəxslər haqqında cinayət işi başlanıldıqda təbiidir ki, təhqiqat aparılarkən müəyyən dəlillərin əldə edilməsi və ya hadisə şahidlərinin olması, yaxud cinayətkar haqqında digər məlumatların toplanması tələb olunur. Əks-kəşfiyyat şöbəsinin əmək-

daşları bu istiqamətdə hüquq-mühafizə orqanlarına yardım göstərməlidirlər. Əks-kəşfiyyat bölməsi əsasən aşağıda qeyd olunanları təmin etməlidirlər:

1.Xüsusi təhlükəsizlik sisteminin tərkibində əks-kəşfiyyat xarakterli məsələlərin həll edilməsi;

2.Baş vermiş cinayət hadisələri zamanı, yaxud şübhəli halların yarandığı zaman təhlükəsizliyin təmin olunması məqsədi ilə tədqiqatların aparılması;

3. İnformasiyalarla iş üzrə sorğu və informasiya fondunun təşkili. Bu fondun tərkibində müəssisənin kadrları, onların şəxsiyyəti, fəaliyyəti haqqında məlumatlar tərəfdarlar, rəqiblər, bazar, müştərilər, ətraf mühiti təşkil edən infrastruktur barədə lazım olan məlumatlar toplanır;

4. Qanun pozanlara qarşı xəbərdarlıq müəssisə daxilində bəzən bilərəkdən və ya bilmədən qanun pozuntularına xəbərdarlıq edilməsi;

5. Əks-kəşfiyyat istiqamətində əməliyyatlar aparılması zamanı texniki vasitələrin təşkili vacib məsələlərdən biridir. Bu əməliyyatlar zamanı müxtəlif texniki vasitələrdən (danışıq, nəzarət, xəbərdaredici, ötürücü, qeydedici və s.) istifadə olunur;

6. Kommersiya sirrinin saxlanması istiqamətində fəaliyyət. Əks-kəşfiyyat bölməsi kommersiya sirrinin qorunması ilə bağlı bütün tədbirləri həyata keçirir. Bu tədbirlərə kommersiya sirri sayılan informasiyaların seçilməsi, həmin informasiyaların xüsusi informasiya bazasında toplanması, bu informasiyalara daxil ola biləcək mütəxəssislərin seçilməsi, informasiya bazasının kodlaşdırılması və s. kimi tədbirlərin icrası daxildir;

7. Dezinformasiya tədbirlərinin təşkili.

Əks-kəşfiyyat xidməti bəzən xarici firmaların kəşfiyyatçılarını çaşdırmaq, yaxud onları aşkar etmək məqsədi ilə müəyyən dezinformasiyalar yaymalı və "süni sızma" təşkil etməli olur. Bu cür məlumatların formalaşdırılması və ötürülməsinin təşkili əks-kəşfiyyat orqanlarının üzərinə düşür;

8. Kompyuter təhlükəsizliyi. Təhlükəsizliyin təmin olunmasında əsas amillərdən biri də kompyuter təhlükəsizliyidir. Belə ki, bütün məxfi saxlanılan və kommersiya sirri hesab edilən informasiyalar kompyuterdə saxlanılır. Ona görə də, kompyuter təhlükəsizliyi vacib amillərdən biri hesab olunur və əks-kəşfiyyat orqanları tərəfindən çox diqqətlə təmin olunmalıdır.

## 8.2.Əks-kəşfiyyatın elementləri.

Kəşfiyyatdan fərqli olaraq əks-kəşfiyyatın tədqiqat obyektləri kimi müəssisənin həm xarici mühitində, həm də daxili mühitində olan amillər iştirak edirlər.

Əks-kəşfiyyat mühiti amilləri özündə aşağıdakıları birləşdirirlər:

1.Əks-kəşfiyyatın əsas elementi kimi həmçinin kəşfiyyat tədbirlərinin potensial obyekti müəssisənin rəhbər heyətidir. Müəssisənin rəhbər heyəti əks-kəşfiyyat və kəşfiyyat tədbirlərində iştirak etməklə bərabər, öz növbəsində mühafizəyə ehtiyacları olduğu üçün əks-kəşfiyyat elementi hesab olunurlar. Belə ki, rəqiblər və ya kriminal ünsürlər bu işçilərə qarşı müəyyən təxribatlar törədə bilərlər. Əks-kəşfiyyat şöbəsinin funksiyası bu elementlərə qarşı hazırlanan təxribat tədbirlərinin qarşısının alınması və

təxribatların xarakterinin, yerinə yetirilmə vaxtının müəyyən edilməsi və bu təhlükələrə qarşı tədbirlərin hazırlanması birbaşa əks-kəşfiyyatın funksiyasıdır.

2. Kommersiya sirrinə icazəsi olan bir işçi heyətdən olan şəxslər. Bu şəxslər əks-kəşfiyyatın elementi kimi prosesdə iştirak edirlər. Buna səbəb kommersiya sirrindən istifadə etməyə icazəsi olan şəxslərin arasında rəqib müəssisələrin kəşfiyyatçıları tərəfindən ələ alına bilən, yaxud rəqib firmalar tərəfindən kəşfiyyatçı kimi müəssisəyə işləmək üçün göndərilən və müəssisədə kommersiya sirrinə icazə əldə edə bilən əməkdaşların da mövcudluğu ola bilər. Burada digər məsələ kommersiya sirrinə icazəsi olan işçilərin arasında məsuliyyətsizlik nəticəsində, yaxud bilmədən məxfi informasiyaların açıqlamasına yol verən işçilərin də olması mümkündür.

Digər məsələ isə informasiyadan istifadə edən şəxslərin məsuliyyətsizliyi nəticəsində, texniki vasitələrdən istifadə etdikdə, yaxud informasiyadan istifadə etdikdən sonra sənədlərin səhlənkarlıq nəticəsində kənar şəxslərin əlinə keçməsi və s. məsələlərlə bağlı informasiya sızması baş verə bilər. Bu səbəbdən əks-kəşfiyyat şöbəsi belə halların qarşısının alınması məqsədi ilə həmin şəxslərin fəaliyyətinə nəzarət etmək məcburiyyətindədir.

3.Təhlükəsizlik sisteminin öz əməkdaşları. Təhlükəsizlik sisteminin əməkdaşları birbaşa firmanın təhlükəsizliyinə cavabdeh olmaqlarına baxmayaraq onların arasında da, bəzən rüşvətlə ələ alınan bilər və ya təhlükəsizlik sisteminə kənardan "tətbiq" edilmiş əməkdaşların mövcudluğu mümkündür. Bütün bu neqativ halların qarşısını alınması və biznesə yarana bilən təhlükələrin qar-

şısının alınması məqsədi ilə təhlükəsizlik xidməti əməkdaşlarının arasında da “təmizləmə”,“saflaşdırma” və nəzarət məqsədi ilə profilaktik tədbirlərin aparılması zəruridir.

4.Qohum və ya yaxın ailə üzvləri, rəqib firmada çalışan müəssisə əməkdaşları. Əks-kəşfiyyat fəaliyyətinin elementlərindən biri də qohum və ya yaxın ailə üzvləri rəqib firmalarda çalışan işçilərin hesab olunmasına səbəb belə işçilərin ya təsadüfən,bilmədən,söhbətarası,yaxud qarşı tərəfin təkidi və ya şirnikləşdirilməsi yolu ilə müəyyən informasiyaların ötürülməsi ehtimalıdır.Təbiidir ki, rəqib firmalarda ailə üzvləri və yaxın qohumları çalışan işçilərin təhlükəsizlik xidmətində və ya məxfi informasiyalara daxil olmaqdan ötrü icazəsi olan vəzifələrə təyin etmək məqsədə uyğun deyil. Lakin bu heç də o demək deyildir ki, belə işçilər məxfi informasiyaları əldə edə bilməz və ya buna cəhd göstərmiyəcəklər. Kommersiya sirri hesab olunan informasiyaları əldə etmək üçün ən çətin və əsas məsələ müəssisəyə daxil olmaqdır ki,belə işçilərin də artıq buna imkanları mövcud olur.

5.Müəssisədən işdən qovulmuş işçilər bəzən müəssisələrdə daxili intizam qaydalarını pozduğuna, işdə səhlənkarlığa yol verdiyinə, verilən tapşırıqları yerinə yetirmədiklərinə görə işdən qovulma halları baş verir.Belə işçilər təbiidir ki, müəssisə rəhbərliyindən narazı qalır və bəziləri hətta “intiqam” almaq arzusunda olurlar. Ona görə də bu işçilər potensial məlumat ötürmə və ya başqa sözlə kommersiya sirrinin açılması istiqamətində firmanın əleyhinə fəaliyyət göstərəbiləcək insanların siyahısına daxil edilirlər. Onu da qeyd edək ki, adətən kommersiya sirrindən istifadə etməyə icazə verilən əməkdaşlar əksər

hallarda sınanmış, uzun müddət firmada çalışan, ixtisasını yaxşı bilən, məsuliyyətli mütəxəssislər olur. Belə mütəxəssislərin içərisində işdən qovulanlar praktiki olaraq mövcud olmur.

6. Tutduğu vəzifəsinə görə müəssisənin əməkdaşlarını tez-tez qəbul edən şəxslər. Belə şəxslər hər gün çoxlu sayda, müxtəlif sahələrdə çalışan mütəxəssisləri qəbul etdiyindən, onlarda müəssisənin müxtəlif sahələrindən informasiyalar almaq imkanı olur. Buna görə də belə mütəxəssislər xaricdə rəqib firmaları maraqlandıra bilər. Bu səbəbdən firmanın təhlükəsizlik xidmətinin əks-kəşfiyyat bölməsi belə mütəxəssislərin də nəzarət altında saxlanılmasını təmin etməlidirlər.

Təhlükəsizliyin təmin olunmasında əks-kəşfiyyatın işi təkcə yuxarıda qeyd olunan elementlərlə iş aparmaqla bitmir. Bu qeyd olunanlar əsas amillərdir. Lakin bunlardan başqa əks-kəşfiyyat bölməsinin nəzarətdə saxlamalı olduğu çoxlu sayda amillər mövcuddur.

## 8.3.Əks-kəşfiyyatın bölmələri.

Dünya praktikasında və xüsusən də inkişaf etmiş dövlətlərin istər dövlət müəssisələrində, istərsə də özəl iri şirkətlərdə kommersiya sirrinin qorunması və firma əməkdaşlarının mühafizənin təmin olunması önəmli məsələlərdəndir. İqtisadiyyatın inkişafı və müasir beynəlxalq bazarlar yeni texnologiyaların işlənib hazırlanmasını və istehsala tətbiqini tələb edir. İri müəssisələr və beynəlxalq bazarlarda aparılan güclü rəqabət ən yeni texnologiyaları əldə

etmək üçün müxtəlif vasitələrdən istifadə etməklə bərabər bir-birinə qarşı təxribatlar törətməkdən belə çəkinmirlər.

Almaniyanın qeyri-dövlət sektorunda informasiyaların mühafizəsi ilə bağlı xüsusi bölmənin rəhbəri informasiyaların təhlükəsizliyinin təmin edilməsi məsələləri üzrə ekspert K.D.Maske Almaniyanın "Fokus" jurnalına verdiyi müsahibədə iqtisadi casusluğun ildən-ilə artmasını qeyd edir.

Buna səbəb isə yeni elmi-texniki layihələrin işlənməsinə sərf olunan vəsaitin həddən artıq yüksək olması və bəzən də gözlənilən nəticələrin əldə edilməməsidir. Ona görə də hazır layihələrin kəşfiyyat yolu ilə əldə edilməsi daha ucuz başa gəlir. Bu da öz növbəsində sənaye casusluğunun artmasına səbəb olur.

Qeyd etmək lazımdır ki, istər Azərbaycan Respublikasında, istərsə də dünyanın ən inkişaf etmiş dövlətlərində sənaye casusluğundan mühafizəyə yüz faiz zəmanət yoxdur. Bu sahə elə bir mürəkkəb sahədir ki, tam təminatın verilməsi mümkün deyildir. Lakin sənaye casusluğundan qismən və ya maksimum mühafizə mümkündür.

Mütəxəssislər şərti olaraq əks-kəşfiyyatın bölmələrini iki qrupa ayırırlar:

1. Əks-kəşfiyyat qarşısında duran əsas məsələlərin və vəzifələrin həll edilməsi ilə məşğul olan bölmə;
2. Əks-kəşfiyyata hərtərəfli köməklik göstərən bölmə.

Əks-kəşfiyyatın əsas və köməkçi qrupları arasında kəmiyyət nisbəti təbiidir ki, müxtəlif olmalıdır. Çünki, bu bölmələrin həm fəaliyyət sahələri, həm də səlahiyyətləri müxtəlifdir. Lakin hər iki bölmə aşağıdakı iki şərtə hökmən riayət etməlidirlər:

1. Köməkçi bölmənin nümayəndələrinin vəzifəsi əsas bölmə işçilərinə hərtərəfli kömək göstərməlidirlər;

2. Əsas bölmənin işçilərinin fəaliyyəti də səmərəli olmalıdır.

Öz fəaliyyətlərində əsas bölmənin əməkdaşları firmaya qarşı törədilə biləcək təhlükələrin mənbələrini, təhlükə yaradan rəqibləri, təhlükəli sahələri, təhlükənin baş vermə yerinin və vaxtının müəyyən edilməsini təmin edir.

Köməkçi bölmənin vəzifələri isə əsasən əsas bölməyə onların verdiyi konkret tapşırıqların icrası, texniki vasitələrin hazırlanması, istifadəsi və tətbiqi ilə bağlı köməklik göstərməkdir.

## 8.4.Əks-kəşfiyyatın tsiklləri

Sənaye əks-kəşfiyyatının yerinə yetirilməsi vacib olan müxtəlif tsiklləri mövcuddur. Bu tsikllər aşağıdakılardan ibarətdir:

1. Mühafizəyə tələbatı olan məlumatların müəyyən edilməsi.Bu məsələ o qədər də sadə məsələ deyil. Firma rəhbərliyi rəqib firmalardan gizlin saxlanması tələb olunan informasiyaları seçməlidir. Seçilmiş informasiyalar “kommersiya sirri” “KS” qrifi altında yerləşdirilməlidir. Bu məlumatlardan istifadə etməyə səlahiyyəti olan əməkdaşlar müəyyənləşdirilməli və kənar şəxslərin informasiyaya daxil olmaları qadağan olunmalıdır.

2. Rəqiblərin qiymətləndirilməsi. Rəqiblərin qiymətləndirilməsi dedikdə məxfi saxlanılan və kommersiya sirri hesab edilən informasiyaların rəqibləri hansı dərəcədə maraqlandırdığının müəyyən edilməsi başa düşülməlidir.

Digər tərəfdən isə rəqiblərin bu informasiyalara sahib olmaq və ya bu informasiyaları əldə etmək üçün onların kəşfiyyat imkanlarının, yəni istər kadr baxımından, istərsə də texniki və texnoloji baxımından nəyə qadir olduqlarının qiymətləndirilməsi nəzərdə tutulur.

3. Xüsusi zəifliyin qiymətləndirilməsi. Xüsusi zəifliyin qiymətləndirilməsi zamanı müəssisənin təhlükəsizlik xidməti mühafizə olunan obyektin mühafizəsində zəif yerləri müəyyənləşdirir. Bu zəif yerlər təhlükəsizlik xidməti əməkdaşlarının profesionallığının aşağı səviyyədə olmasında, istifadə olunan avadanlıqların köhnə, zəif, sadə olmasında, mühafizə otaqlarının yararsız olmasında, informasiyaların, yəni kommersiya sirrinə aid olan məlumatların düzgün seçilməməsində və s. nöqtələrdə ola bilər. Təbiidir ki, mühafizə xidməti müəyyən tədbirlər hazırlayaraq bu zəif nöqtələrin aradan qaldırılmasına çalışmalıdır.

4. Əks tədbirlərin işlənib hazırlanması.

Müəssisənin təhlükəsizlik xidməti tərəfindən bütün zəif cəhətlər aşkarlandıqdan, rəqib müəssisələrin hansı məlumatları əldə etməyə maraqlı olduqları müəyyən edildikdən və bu rəqiblərin nəyə qadir olduqları aşkarlandıqdan sonra əks tədbirlərin işlənib hazırlanması prosesi başlanır. Bəzən elə məsələlər olur ki, bu məsələlərə qarşı tədbir hazırlayarkən rəqibin bu addımı nə zaman atacağı məlum olunur. Ona görə də hadisələri qabaqlamaq məqsədi ilə və rəqibi həmin addımı atmağa vadar etmək üçün dezinformasiyadan və yaxud "qıcıqlandırıcı"(provokasiya) addımların atılmasından istifadə olunur.

5. Əks tədbirlərin reallaşdırılması. Bütün yuxarıda qeyd olunan proseslərin icra edilməsi başa çatdıqdan sonra

müəssisənin təhlükəsizliyinin təmin olunması məqsədi ilə rəqib tərəfin ata biləcəyi hər bir addıma qarşı, yəni edəcəyi hərəkətə qarşı müəyyən bir və ya bir neçə tədbir işlənib hazırlanır və bu tədbirlərin yerinə yetirilməsi prosesləri başlanır. Təbiidir ki, bu zaman rəqibin hərəkət edəcəyi vaxt dəqiq müəyyən olunmalıdır ki, onun fəaliyyəti qabaqlana bilsin və təxribatın qarşısı vaxtında alınmış olsun.

## 8.5. Əks-kəşfiyyatın mərhələləri.

Əks-kəşfiyyatın mərhələləri dedikdə buraya əks-kəşfiyyatın tam və qəti təşkili üçün lazım olan tədbirlərin aparılma ardıcıllığı daxildir:

Birinci mərhələdə mühafizə olunacaq informasiyalar seçildikdən sonra bu informasiyaların qorunmasına tələb olunan maddi vəsaitin miqdarı hesablanır. Cərimələnəcək xərcin ümumi miqdarı müəyyən olduqdan sonra bu xərcin miqdarı mühafizə ediləcək informasiyanın sızmasından çox olarsa mühafizə tədbirindən imtina edilir, əks halda həmin informasiyalar kommersiya sirri hesab edilərək "KS" qrifinə təqdim olunur və onların mühafizəsi təmin edilir.

İkinci mərhələdə isə əks-kəşfiyyat rəqib firmaların apara biləcəyi fəaliyyət istiqamətlərinə müvafiq tədbirlərin həyata keçirilməsini təşkil edir. Yəni bu zaman törədilə biləcək terror, adam oğurluğu, mülkiyyətə ziyan vurma, avadanlıqların sıradan çıxarılması, kommersiya sirrinin ələ keçirilməsi, əks təbliğatın aparılması, müəssisənin gözdən salınması və s. kimi tədbirlərin qarşısının alınması istiqamətində əks fəaliyyətin təşkilidir.

Təhlükəsizliyin təmin edilməsi üçün mövcud sistemin effektivliyini təmin etmək lazımdır. Daha sonra planlaşdırılan əməliyyatlar modelləşdirilir və hadisələrin xronoloji təsviri tərtib olunur. Nəticədə təhlükəsizlik tədbirləri müəyyən edilmiş ardıcıllıq və mərhələlərlə həyata keçirilir.

# FƏSİL 9. İŞGÜZAR KƏŞFİYYATIN MAHİYYƏTİ, MƏQSƏDİ, METODLARIVƏ NÖVLƏRİ

## 9.1. İşgüzar kəşfiyyatın mahiyyəti və vəzifələri.

Biznesin idarə olunması prosesində müəssisənin daxilində istifadə olunan informasiyalardan daha çox müəssisədən kənar da baş verən informasiyaların əldə olunması vacib və əhəmiyyətlidir. Belə məlumatlar xüsusən müəssisənin gələcək fəaliyyəti, yəni strategiyanın müəyyənləşdirilməsi zamanı vacib məsələlərin həllində, eləcə də inkişaf istiqamətlərinin seçilməsində mühüm rol oynayır.

Belə məlumatların əldə edilməsi isə o qədər də asan deyildir. Buna səbəb isə əsasən aşağıdakılardır:

1. Əldə edilməsi vacib olan informasiyaların çoxmənbəli və mürəkkəb olması;
2. Əldə edilməsi informasiyaların mənbələrinin bəzi hallarda qeyri-müəyyən olması;
3. Tələb olunan informasiyaların xarici ölkələrdə olması;
4. Axtarılan informasiyaların bəzilərinin sahibləri tərəfindən gizli saxlanması.

Göründüyü kimi bu informasiyaları axtarıb tapmaq olduqca çətin bir prosesdir və bəzən elə informasiyalar vardır ki, bu sahibləri tərəfindən sirr olaraq qorunur. Lakin gələcəkdə müəssisənin uğurlu fəaliyyətinin təmin olunması üçün hər bir müəssisə rəqiblərin nə planlaşdırdığını, nə istehsal edəcəyini, harada satacağını və bu kimi məlumatları bilməlidir. Belə informasiyaların əldə edilməsi istiqamətində aparılan fəaliyyətə isə kəşfiyyat deyilir.

Deməli kəşfiyyatın mahiyyəti firmanın gələcək fəaliyyətini, strategiyasını, rəqabət xarakterli tədbirləri həyata keçirmək məqsədi ilə firmaya lazım olan digərlərinin gizli saxladığı informasiyaların müxtəlif yollarla əldə edilməsidir.

Hər hansı bir müəssisənin informasiya toplanması məqsədi ilə apardığı kəşfiyyatın vəzifələri aşağıdakı məlumatların dəqiq və tam şəkildə toplanmasıdır:

1. Bazar haqqında məlumatlar. Bazar haqqında məlumatlara bazarın həcmi, bazarda rəqiblərin sayı, rəqiblərin hər birinə düşən bazar payı, satılan əmtəələrin qiymətləri, əmtəələrin keyfiyyətləri, alıcılar haqqında məlumatlar və s. hesab olunur.

2. Rəqiblər haqqında məlumatlar. Bu məlumatlara rəqiblərin istehsal etdiyi məhsulun keyfiyyəti, həcmi, onların tərəfdaşları, satış apardıqları bazarlar, reytinqləri, gələcək planları və s. kimi məlumatlar aiddir.

3. Tərəfdaşlar haqqında məlumatlar. Tərəfdaşların etibarlılığı, təqdim etdikləri məhsulların keyfiyyəti, məhsulların qiyməti, maliyyə imkanları, onların qarşılıqlı əlaqəli olduqları tərəfdaşlar və s. kimi məlumatları əhatə edir.

4. Satış kanalları haqda məlumatlar. Kanalların etibarlılığı, onların qarşılıqlı tərəfdaşları, əldə edəcəkləri məhsulların həcmi, ödənişlərin aparılması qayda və formaları, müqavilə şərtləri və s.

5. Xammal və digər istehsal vasitələri haqda məlumatlar. Bura xammal satıcıları, xammalın qiyməti, keyfiyyəti, göndərilmə şərtləri, qablaşdırılması, daşınma məsrəfləri və s. eləcə də avadanlıqların alınması ilə bağlı yuxarı-

da qeyd olunan şərtlər haqqında məlumatların əldə olunması daxildir.

6. Yeni texniki və yaxud “nou hau”, eləcə də patentlər haqqında məlumatlar və s. Bu məlumatların əldə olunması digər məlumatların əldə edilməsindən daha çətindir. Çünki, belə məlumatlar kommersiya sirri sayılır və hər bir firmanın təhlükəsizlik xidməti tərəfindən qorunur. Lakin bu məlumatların əldə edilməsi çox vacibdir. Əgər hər hansı bir firma rəqibin istifadə etdiyi texnologiyanı bilmirsə ona məhsulun neçəyə başa gəldiyini də bilmir və rəqabətdə təbiidir ki, məğlubiyyətə düçar olacaqdır.

Araşdırmada göstərir ki, biznesin təhlükəsizliyinin təmin edilməsi məsələsində məsrəflər həddindən artıqdır. Təsadüfi deyil ki, Qərb ölkələrinin biznesmenləri təhlükəsizlik sirrlərinin saxlanmasına gəlirlərinin 25%-ni sərf edirlər. Belə olduqda əlbətdə ki, məxfi məlumatların kəşfiyyatçılar tərəfində əldə edilməsinin nə qədər çətin olduğu aydınlaşır.

## 9.2 Operativ sorğu kəşfiyyat metodu kimi.

İnformasiyaların əldə edilməsi zamanı tez-tez elə vəziyyətlər yarana bilir ki, bizə lazım olan informasiyalar tanımadığımız, yaxud heç vaxt görmədiyimiz və heç bir əlaqəmiz olmayan adamlarda olur.

Əgər siz rəqib firmanın ona aid olan informasiyasını həmin firmanın nümayəndəsindən əldə etmək istiyirsinizsə və o sizin kim olduğunuzu bilərsə o heç vaxt bu məlumatı sizə verməyəcək, hətta o, bu halda sizi çaşdırmaq

məqsədi ilə elə məlumat ötürə bilər ki, bu səhv məlumatı qəbul etdiyinizə və ona inandığınıza peşman olarsız.

Ona görə də, bu sahədə fəaliyyət göstərərkən yeni kəşfiyyat xarakterli fəaliyyətlə informasiya toplayarkən çox diqqətli olmaqla bərabər, həm də elə hərəkət etmək lazımdır ki, qarşı tərəf sizdən şübhələnməməklə bərabər, onda elə xoş təəssürat yaradasınız ki, o sizinlə təkrar görüşmək ümidində olsun.

Hər şeydən qabaq belə adamlarla "iş" zamanı özünüz üçün aşağıdakıları müəyyənləşdirməyiniz vacibdir:

1. Mənim əldə etmək istədiyim informasiyalar kimdə ola bilər? Mən kimlə danışmalıyam?

2. Mən həmin şəxsə hansı sualları verməliyəm? Özümü təqdim edərkən və mənə informasiyanın nə üçün lazım olduğunu izah edərkən hansı "nağılı" uydurmalıyam?

3. Konkret olaraq sualları necə qoymalıyam və nə soruşmalıyam?

4. Əldə etdiyim məlumatları necə təsnifləşdirməliyəm və məlumatın fakt və ya "yalan" olduğunu neçə müəyyənləşdirməliyəm?

Hər bir kəşfiyyatçı qarşı tərəflə görüşməzdən əvvəl dəfələrlə verəcəyi sualları və edəcəyi hərəkətləri dəqiqləşdirməlidir ki, qarşı tərəfdə heç bir şübhə yaratmamaq şərti ilə az və qısa suallar verməklə dəqiq və maksimum səviyyədə informasiya əldə edə bilsin.

İlk telefon danışıqlarında sadə və yerli-yerində suallarla müraciət etmək lazımdır. Əsas sualları isə görüş zamanı, aydın və qısa şəkildə çatdırmaq şərti ilə vermək lazımdır. Qarşı tərəfə çoxlu suallar verildikdə və bu sual-

lar əlaqəsiz olduqda o tez yorulur və görüş onun üçün maraqlı olmadığından bir bəhanə tapıb görüşü yekunlaşdırmağa çalışır və növbəti görüşün baş tutmaması üçün məsələni yerindəcə sonlandırır.

İnformasiya əldə etmək məqsədi ilə aşağıdakı addımların ardıcıllıqla icra edilməsi vacibdir:

1. İnformasiya toplamaq üçün müəyyən olunmuş və koordinatlarının əldə edilməsi mümkün olan adamlara müraciət edirlər. Onlardan alınan informasiyalar sistemləşdirilir və onların verdiyi informasiyalar əsasında daha kimlərə müraciət olunması müəyyənləşdirilir.

2. İnformasiya əldə etmək üçün ən çox informasiya toplanan aşağıdakı ünvanlara müraciət edilməlidir:

a) məlumat almaq üçün tətbiq olunan telefonlar;

b) firmaların satış şöbələri;

c) satışdan sonrakı xidmət şöbələrinə;

d) zəmanət xidməti şöbə və ya bölmələrinə;

e) ictimaiyyətlə əlaqələr şöbələrinə.

Görüş zamanı əldə edilən informasiyaların yadda saxlanması məqsədi ilə və bu informasiyalardakı bəzi məqamların dəqiqləşdirilməsi üçün danışıqların diktafona yazılması məqsədəuyğundur.

Obyektin daxilindən informasiya əldə edilməsi ilk baxışdan sadə görünsə də, bu xeyli mürəkkəb və çətin bir işdir. Ona görə ki, obyektə daxil olmaq və informasiya əldə etmək planı dəqiq və hərtərəfli işlənilməlidir.

## 9.3 Müxtəlif adllar altında müəssisələrə daxil olma yolları.

Kəşfiyyat məqsədi ilə hərhansı bir müəssisəyə daxil olmaq üçün mütləq müəyyən hazırlıq işləri aparılmalıdır. Bu hazırlıq işləri müəssisə haqqında, onun rəhbərliyi, fəaliyyət istiqaməti, istehsal etdiyi məhsullar və s. kimi ümumi məlumatların əldə edilməsindən ibarətdir. Əgər bu hazırlıqlar aparılmasa kəşfiyyat prosesində buraxılan xırda bir səhv kəşfiyyatçının kimliyinin və məqsədinin açılmasına gətirib çıxara bilər ki, buda yaxşı nəticə verməz.

Müəssisəyə daxil olmalar adətən aşağıdakı adlar altında aparılır:

1. Potensial alıcı qismində;
2. Jurnalist qismində;
3. Vakansiyada olan vəzifəyə namizəd qismində;
4. Yoxlama nümayəndələri qismində;
5. Əmtəə təklif edən və xidmət göstərən tərəfdaş qismində.

Yuxarıda qeyd olunan hər hansı bir şəxs qismində firmaya daxil olan kəşfiyyatçı özünün təqdim etdiyi sahənin mütəxəssisi kimi aparmağı bacarmalıdır ki, heç kəs ondan şübhələnməsin.

Əgər kəşfiyyatçı özünü jurnalist kimi təqdim edirsə, o, jurnalistika sənətinə bələd olmalıdır. Heç olmasa hansı mətbuatdan olduğu, burada hansı vaxtdan çalışdığı, bu mətbuatın rəhbərliyini, orada çalışan jurnalistlərdən bir neçəsini tanımalı  və yaxud onların haqqında müəyyən məlumata malik olmalıdır. Bundan başqa intervyu götür-

mək qaydalarını, sualları ardıcıl, əlaqəli və dəqiq qoymağı bacarmalıdır.

Bir sözlə, o, özünü peşəkar kimi aparmalı, hansı sualın kimə verilməsini, məsələni aydınlaşdırmaq üçün təkrar sualı digər formada qoymağı və ən əsası öyrənməli olduğu informasiyaları əldə etmək üçün hansı sualı kimə və hansı ardıcıllıqla verməklə bərabər, ona qarşı şübhə yaranmasına yol verməməlidir.

Bundan başqa kəşfiyyatçını maraqlandıran informasiyaların kimdə olduğunu qabaqcadan müəyyənləşdirməli və həmin adamla onun hökmən görüşməli olduğunu müəssisə rəhbərliyini inandıra biləcək arqumentlərlə əsaslandırmalıdır .

Kəşfiyyatçı eyni zamanda, özü üçün müəyyən danışıq taktikası və strategiyası seçməlidir. Onu maraqlandıran suala heç vaxt birbaşa keçməməlidir. Bir neçə kənar və yaxud məsələyə yaxınlaşmaq məqsədi ilə suallar verdikdən sonra əsas məsələyə başlamalı və sualı elə formada qoymalıdır ki, qarşı tərəf məqsəddən şübhələnməsin.

Təbiidir ki, lazım olan məlumat əldə edilən kimi söhbəti yekunlaşdırmaq olmaz. Bir neçə kənar suallar verib, təkrar görüşmək üçün icazə istəyib, görüşü yekunlaşdırmaq olar.

Eləcə də vakansiyada olan vəzifəyə namizəd kimi kəşfiyyat apardıqda da bu sahədə mütəxəssis səviyyəsində məlumatlı olmaq vacibdir.

Rəhbərliklə görüş zamanı ilk növbədə təklif olunan iş, veriləcək maaş, tətbiq edilən güzəşt və yardımlar barədə suallar verməklə həqiqətəndə işlə maraqlandığınızı nümayiş etdirməlisiniz. Bundan sonra həqiqətən də işlə ma-

raqlandığınızı bir daha möhkəmləndirmək üçün başqa namizədlərin olub-olmadığını soruşmaq vacibdir. Bu cavabı aldıqdan sonra burada işləmək fikrində olduğunuzu və müəssisə haqqında öz müsbət fikirlərinizi bildirməklə bərabər sizin əldə etmək istədiyiniz informasiyaları öyrənmək üçün suallar verə bilərsiniz. Özünüzü elə aparmalısınız ki, guya artıq siz də bu müəssisənin əməkdaşısınız, yaxud işə qəbul olunacağınıza heç bir şübhəniz yoxdur. Lazım olan informasiyanı əldə etdikdən sonra qəbul olunmaq istədiyiniz iş barədə daha bir neçə sual verib, işə qəbul ediləcəyinizə çox ümid etdiyinizi bildirməklə oradan ayrılırsınız.

Göründüyü kimi kəşfiyyat məqsədi ilə müəssisələrə daxil olmaların müxtəlif yolları vardır.

## 9.4. Sənaye kəşfiyyatının növləri.

Sənaye kəşfiyyatı müxtəlif sahələrə aid olan müxtəlif xarakterli informasiyaların əldə edilməsi üçün tətbiq olunur. Ümumiləşdirilmiş şəkildə isə sənayə kəşfiyyatını aşağıdakı növlərə bölmək olar:

1. Marketinq kəşfiyyatı.Marketinqkəşfiyyatı geniş birsahə olmaqlatəkcə bazarınmarketinqtədqiqatı ilə kifayətlənmir, həmçinin əmtəə hərəkəti, fəaliyyəti, qiymətlərin formalaşdırılması, innovasiya proseslərindən başlayaraq məhsulun satışına qədər olan prosesləri tam əhatə edir.

Marketinq kəşfiyyatı bir növ kəşfiyyat olmaqla bərabər, həm də tədqiqat xarakteri daşıyır. Kəşfiyyat xarakterli məsələlər burada əsasən gizli məlumatların əldə olunması

ilə bağlıdır. Digər informasiyalar isə əsasən aşağıdakılardan ibarətdir:

1. Bazar konyukturasının öyrənilməsi;
2. Bazarın tutumu;
3. Ayrı-ayrı firmaların bazar payı;
4. Bazarın seqmentlərinin öyrənilməsi;
5. Bazara əmtəə çıxarılması;
6. Satış kanalları və onların sayı;
7. Bazarda qiymətlərin formalaşdırılmasının xüsusiyyətləri;
8. Bazarın proqnozlaşdırılması metodları;
9. Bazarda reklam fəaliyyətinin əsas formaları, istiqamətləri və s.

Bütün yuxarıda qeyd olunan informasiyalar əldə edildikdən sonra bu məlumatlar emal olunur və strateji qərarların qəbulu zamanı istifadə olunur ki, son nəticədə biznesin təhlükəsizliyi təmin edilmiş olur.

2. Rəqabət kəşfiyyatı. Mahiyyət etibarı ilə bu kəşfiyyatın məqsədi bazarda rəqiblərə qarşı fəaliyyətin təmin olunmasıdır. Bu fəaliyyətin təmin olunması üçün aparılan kəşfiyyat işləri aşağıdakı informasiyaların əldə edilməsindən ibarətdir:

1. Bazarda fəaliyyət göstərən rəqiblərin sayı və onların kimliyi;
2. Rəqiblərin maliyyə və əmlak imkanları;
3. Rəqiblərin tərəfdaşlıq əlaqələri;
4. Rəqiblərin bazar seqmentində bazar payının həcmi;
5. Rəqiblərin istehsal imkanları;
6. Rəqiblərin innovasiya sahəsindəki fəaliyyətləri;

7. Rəqiblərin bir-biri ilə qarşılıqlı münasibətləri;
8. Rəqiblərin taktiki və strateji planları.

Təbiidir ki, heç bir firma rəqib firmanın strateji planlarını bilmədən ona qarşı mübarizə apara bilməz. Ona görə də, bu informasiyaların əldə edilməsi vacib amillərdən sayılır, onun əldə edilməsinin çətinliyi isə ondadır ki, hər bir firma öz strategiyasını kommersiya sirri hesab edir və gizli saxlamağa çalışır.

3. İşgüzar kəşfiyyat. İşgüzar kəşfiyyat əsasən banklar, investor təşkilatları və konsaltinq təşkilatları üçün xarakterikdir.

Bu təşkilatlar işgüzar kəşfiyyat apararaq qarşı tərəfin maliyyə, istehsal, texnoloji imkanlarını, eyni zamanda bir tərəfdaş kimi zəif və güclü cəhətlərini öyrənməyə çalışırlar.

Bu kəşfiyyat aparılmaqla tərəfdaş firmaların digər firmalarla əlaqələri, onların tərəfdaşlarının kimliyini təyin etməklə etibarlılığını müəyyənləşdirmək mümkün olur.

İşgüzar kəşfiyyatın aparılması heç də kifayət qədər mürəkkəb deyil və bu kəşfiyyatın aparılması digər kəşfiyyat formalarından sadə olması və az xərc tələb etməsi ilə fərqlənir.

## 9.5. Kəşfiyyatçı nələri bacarmalıdır?

Müəssisənin təhlükəsizlik xidməti əməkdaşları arasında kəşfiyyatçıların xüsusi rolu vardır. Ona görə də bu sahədə fəaliyyət göstərən hər bir işçi digərlərindən fərqli olaraq müəyyən üstün cəhətlərə malik olmalıdır. Kəşfiyyatçıların aşağıdakı fərqli cəhətləri olmalıdır:

1. Fiziki cəhətdən sağlamlıq;
2. Psixoloji cəhətdən möhkəmlik;
3. Güclü yaddaşa malik olmalıdır;
4. Hərtərəfli biliklərə malik olmaqla bərabər işlədiyi sahəni yaxşı bilməlidir;
5. Yaxşı natiqlik qabiliyyəti olmalıdır;
6. Tez ünsiyyət yaratmaq qabiliyyətinə malik olmalıdır və s.

Qeyd edək ki, əgər kəşfiyyatçı marketinqin əsaslarını bilmirsə, o, markentinq tədqiqatını və haradan informasiya axtarılmasını, tədqiqatın necə aparılmasını təbiidir ki, bilməyəcəkdir.

Digər məsələyə baxaq, əgər kəşfiyyatçı informasiya mənbələri və ya informasiya toplamaq metodlarını bilmirsə, o, nə lazım olan informasiyanı tapa biləcək, nə də tapdığı informasiyaların hansı formada əldə edilməsi, yığılması, saxlanması, emalı məsələlərini həll edə biləcəkdir.

Bütün yuxarıda qəyd olunanlar, yəni kəşfiyyatçının fərdi xüsusiyyətləri, yaxud onun fəaliyyət göstərdiyi sahə ilə bağlı digər məsələləri dərindən bilməyən heç bir mütəxəssis yaxşı kəşfiyyatçı ola bilməz.

# FƏSİL 10.RƏQABƏTDƏN YARANAN TƏHLÜKƏLƏR VƏ BU TƏHLÜKƏLƏRƏ QARŞI DÖVLƏT TƏDBİRLƏRİ

## 10.1. Rəqabət və onun formaları

Rəqabət latın sözü olub, mənası "toqquşma", "yarış" deməkdir. Bu söz latın dilində "conkurektia" kimi işlədilir və ədəbiyyatlarda üç istiqamətdə izah olunur. Birinci anlamda bu sözə yarış kimi izahat verilir. İkinci mənada tələb və təklifin tarazlaşması mexanizmi mənası verilir. Üçüncü, daha müasir yanaşmada isə rəqabətdə müəyyən bir sahənin bazar tipinin təyin olunması kimi izah olunur.

Rəqabət-bazarda biznes sahəsində fəaliyyət göstərən subyektlər arasında mübarizə formasıdır ki, nəticədə alıcılara lazım olan əmtəə və ya xidmətin istehsalının stimullaşdırılmasına səbəb olur. Rəqabət bazarın tənzimlənməsi mexanizmidir.

Biznes sahəsində şərti olaraq rəqabəti iki qrupa ayırırlar:

1. Ədalətli rəqabət;
2. Haqsız rəqabət.

<u>Ədalətli rəqabət</u> dedikdə əsasən aşağıdakı metodların tətbiqi üsulları ilə aparılan rəqabət forması nəzərdə tutulur:

1. Bir qayda olaraq qiymətin  aşağı salınması yolu ilə aparılan rəqabət;

2. İstehsal olunan əmtəələrin keyfiyyət göstəricilərinin yüksəldilməsi yolu ilə aparılan rəqabət;

3. Müxtəlif vasitələrlə əmtəələrin reklam olunması ilə aparılan rəqabət;

4. İstehsal olunan əmtəələrə satışdan qabaq və satışdan sonra göstərilən xidmətin inkişaf etdirilməsi yolu ilə aparılan rəqabət;

5. Yeni elmi-texniki nəaliyyətlərin tətbiq edilməsi ilə, yeni əmtəə və ya xidmət edilməsi, yaradılması ilə aparılan rəqabət.

Qiymətlə aparılan rəqabətdə əsasən zəif rəqiblərin bazardan kənarlaşdırılması prosesi baş verir. Bu zaman firmanın bazarda vahid məhsula düşən gəliri azalsa da, satış həcmini artıra bilir. Zəif firmalar məcburiyyət qarşısında geri çəkilir və bazar payını itirmiş olur.

Rəqabət aparan güclü firma bu üsulu aşağıdakı hallarda tətbiq edir:

1. Tələb qiymətə görə elastik olduqda;

2. Məhsulun qiymətini azaltmaqla satışı artırmaq mümkün olduqda;

3. İstehsal və satış xərclərinin aşağı salınması mümkün olduqda;

4. Qiymətin aşağı salınması firmanın mövcud payına rəqib təhlükəsini aradan qaldırdıqda;

5. Kütləvi istehlak bazarı mövcud olduqda.

Sahibkarlar ədalətli rəqabət zamanı məhsulun differensiasiyası metodundan da istifadə edirlər. Bu zaman eyni məhsul müxtəlif çeşiddə hazırlanır və bazara çoxlu çeşiddə məhsul təklif olunur.

Bəzən istehsalçılar rəqabət prosesində bazara yeni məhsul təklif etmək əvəzinə, modifikasiya siyasətindən də

istifadə edirlər ki, keyfiyyətini, xarici tərtibatını və ya qablaşdırma formasını dəyişərək bazara təklif edirlər.

Yeni məhsulun yaradılması firmalara uzunmüddətli üstünlüklər verir. Lakin digər firmalar da məcburiyyət qarşısında cavab tədbirləri görməli olurlar.

Biznes fəaliyyətində haqsız rəqabətin əsas formaları aşağıdakılar hesab olunur:

1. Rəqabətlərin, təsərrüfat fəaliyyətinin yamsılanması;
2. Qarşı tərəfin təsərrüfat fəaliyyətinin gözdən salınması;
3. Rəqib fəaliyyətinə müdaxilə olunması;
4. Haqsız sahibkarlıq fəaliyyəti;
5. Alıcıların çaşdırılması.

Rəqibin fəaliyyətinin nüfuzdan salınması aşağıdakılar hesab olunur:

1. Subyektlər haqqında, onların maliyyə durumu, işgüzar nüfuzu və s. barədə səhv məlumatların ötürülməsi;
2. Rəqibin elmi-texniki və digər imkanları barədə yanlış məlumatların verilməsi.

Təsərrüfat fəaliyyətinə müdaxilə formaları isə aşağıdakılardır:

1. Rəqibin tərəfdaşlıq əlaqələrinin qeyri-qanuni yollarla qəsdən dayandırılması;
2. Rəqib firmanın əməkdaşlarını müxtəlif yollarla öz tərəfinə çəkməklə, onlardan şəxsi məqsədlər üçün gizli istifadə.

Aşağıdakı bəzi hərəkətlər də haqsız rəqabətin yaranmasına səbəb olur və onun formalaşmasına təkan verir:

1. Hər hansı bir təsərrüfat subyektinə süni olaraq münbit şərait yaradılması;

2. Müəyyən müqavilə və sifarişlərin əldə olunmasında güzəştlərin edilməsi və s;

3. Digərlərindən fərqli olaraq müqavilə bağlanması və digər bu kimi əməliyyatlarda süni surətdə işin sürətləndirilməsi.

## 10.2.Dövlətin sağlam rəqabət mühitinin yaradılmasında rolu.

Hər bir ölkənin iqtisadi inkişafı bu ölkədə sağlam rəqabətin təmin olunmasından asılıdır. Azərbaycan Respublikasının da Konstitusiyasında bu məsələ ilə bağlı inhisarçılıq və haqsız rəqabətə yol verilməməsi dövlət qarşısında bir vəzifə kimi təsbit olunmuşdur. Bundan əlavə ölkənin ali qanunvericilik orqanı tərəfindən sahibkarlıq fəaliyyəti, müəssisələr, antiinhisar fəaliyyəti, haqsız rəqabət və təbii inhisarlar haqqında qanunlar qəbul olunmuşdur. Qəbul olunmuş bu qanunlar ölkə daxilində sağlam rəqabətin yaranmasına imkan yaratmaqla bərabər, inhisarçılığın və haqsız rəqabətin qarşısının alınmasını təmin edir. "Müəssisələr haqqında" qanunda mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq bütün müəssisələr üçün eyni şərait yaradılmasına dövlət təminatı verir.

Qəbul olunmuş qanunlar eyni zamanda istər fiziki, istər hüquqi, istərsə də vəzifəli şəxslərin antiinhisar qanununun istənilən müddəasının pozulmasına görə məsuliyyət daşımasını bildirir. Təşkilati baxımdan sahibkarlar tərəfin-

dən rəqabət anlayışı antik surətdə mənimsənilmiş və onların davranış normalarının əsasına çevrilmişdir.

Yuxarıda qeyd olunanlarla bərabər dövlət müdafiəsi istiqamətində görülməli işlərin həcmi olduqca böyükdür. Birincisi, ən inkişaf etmiş ölkələrdə belə rəqabət mexanizmi tam yetkin bir vəziyyətə gəlib çatmamışdır. BMT tərəfindən beynəlxalq səviyyədə ədalətli rəqabətin təmin olunması ölkələrin strateji inkişaf proqramına daxil edilmişdir. Məsələnin belə qoyuluşu beynəlxalq və iqtisadi inteqrasiyanın inkişafı və transmilli şirkətlərin fəaliyyət dairələrinin genişlənməsi ilə bağlıdır.

İkincisi, iqtisadiyyatın inkişafı baxımından müxtəlif ölkələrin iqtisadi inkişaf səviyyəsi müxtəlif olduğundan, rəqabət səviyyələri də dövlət tərəfindən xarici ölkə sahibkarlarının yerli sahibkarlara nisbətən üstünlük qazanmasının qarşısının alınması məqsədi ilə dövlət tərəfindən müxtəlif tədbirlərin aparılması vacibdir.

Üçüncü, rəqabətin formalaşması prosesində mərhələlik prinsipi diqqətdən yayınmamalıdır. Bu baxımdan nisbətən yumşaq antiinhisar siyasətinin ilk mərhələdə həyata keçirilməsi məqsədəuyğun olsa da, sonradan bu siyasətin sərtləşdirilməsi vacibdir. Ona görə ki, başlanğıc mərhələdə təcrübəsiz olunan sahibkarlara o qədər də təzyiq göstərməyə ehtiyac duyulmur. Lakin bir müddətdən sonra rəqabətin tənzimlənməsi hökmən lazımdır ki, inhisarçılıq baş alıb getməsin. Azərbaycanda artıq Antiinhisar Komitəsi yaradılmışdır ki, inhisarçılıq fəaliyyətinin qarşısının alınmasında vacib olan 40-a yaxın məcburi göstəriş vermişdir.

Dördüncüsü, keçid dövründə sahibkarlığın stimullaşdırılması məqsədi ilə güzəştli tədbirlərin həyata ke-

çirilməsi rəqabət mühitini pozmur və bu rəqabətin inkişafına köməklik göstərir. Ölkəmizdə güzəştlər əsasən kənd təsərrüfatı sahəsinə tətbiq olunur. Burada yeni təsərrüfatların yaranması rəqabətin artmasına və kənd təsərrüfatı məhsullarının istehsalının inkişafına səbəb olur. Baxmayaraq ki, burada stimullaşdırıcı tədbirlər qanuna zidd kimi də qarşılana bilər. Lakin Milli Məclis tərəfindən son dövrlərdə qəbul olunmuş "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" qanun bu istiqamətdə ciddi addım olsa da, bəzi qanun boşluqları hələ də mövcuddur.

Beşincisi, ölkə daxilində istehsal olunan məhsullar beynəlxalq əlaqələrin genişləndiyi bir vaxtda xarici ölkələrdən gətirilən əksər məhsullarla rəqabət aparmaq məcburiyyətindədir. Digər bir məsələ isə xarici ölkə sahibkarlarının Azərbaycanda yeni texnologiyalar tətbiq etməklə daha keyfiyyətli məhsul istehsalını təşkil etmələri də yerli sahibkarların rəqabətdə çətin vəziyyətə düşmələrinə səbəb olur. Bu məsələnin də yoluna qoyulması dövlətin üzərinə düşür. Problemin həlli yolu yerli sahibkarlara kredit verilməsi və onlara da ən son texnologiyaların əldə edilməsi üçün real şəraitin yaradılmasıdır.

Göründüyü kimi dövlətin ölkə ərazisində sağlam rəqabətin formalaşdırılmasında rolu olduqca böyükdür. Bu sahədə müəyyən işlər görülsə də, hələ görüləsi işlər də çoxdur.

## 10.3.Rəqabətdən yaranan təhlükələr.

Biznes fəaliyyətində mövcud olan təhlükələrdən əvvəlki fəsillərdə geniş məlumatlar verilmişdir. Bu təhlükələrdən biri olan rəqabətdən yaranan təhlükələrdir ki, özünəməxsusluğu ilə fərqlənir. Bu təhlükələri ABŞ iqtisadçısı İ.Kirçiner mahiyyət etibarı ilə beş qrupa bölür.

Rəqabətdən yaranan birinci təhlükə bazarda rəqiblərin bir-biri ilə bazar payı uğrunda apardığı mübarizədir ki, strateji baxımdan hər bir firma heç bir qanun pozuntusuna yol vermədən və rəqibə qarşı qeyri-qanuni hərəkət etmədən öz mənfəətini artırmağa çalışır. Təbiidir ki, onun apardığı siyasət uğurlu olarsa, firma bazarda əlavə müəyyən payı ələ keçirmiş olacaqdır. Bu əldə edilən əlavə bazar payının azalması hesabına baş verəcəkdir. Belə olduqda bəzən bəzi firmalar öz bazar payının çox hissəsini itirir və sahədən tamamilə çəkilməli olur. Göründüyü kimi rəqib firmalardan birinin və ya bir neçəsinin uğurlu strategiya seçməsi digər firmalar üçün təhlükə mənbəyidir.

Bazarda ikinci bir qanunla qadağan olunmaya təhlükə mənbəyi də mövcuddur ki, bu da əvəzedici məhsulların yaradılması və istehsalı ilə bağlı olan təhlükələrdir. Məlum olduğu kimi elm-texnika və texnologiyalar müasir dövrdə yeni məhsulların, materialların yaranmasına səbəb olur ki, bu da sənayedə tətbiq olunan xammal və materialları qismən və yaxud tamamilə əvəz olunmasına gətirib çıxarır. Belə yeniliklərin meydana gəlməsi əsas xammal istehsalçılarının fəaliyyətinə, daha doğrusu gəlirlərinə

mənfi təsir göstərir. Müasir dövrümüzdə dəri, yun, taxta, şüşə kimi materialların əvəzedicilərinin meydana gəlməsi bu əmtəə və xammalların ucuzlaşmasına gətirib çıxarmış və istehsala başlandığı dövrdən təbii xammalın ucuzlaşmasına səbəb olmuşdur.

Üçüncü bir təhlükə isə bazara yeni rəqiblərin daxil olması ilə baş verə bilər. Bazarda yeni rəqiblərin yaranması təhlükəsi aşağıdakı iki amildən asılıdır:

1. Bazara daxil olma maneələrindən;
2. Mövcud firmaların sahəyə yeni daxil olmuş firmalara qarşı gözlənilən reaksiyasından.

Sahəyə daxil olmağın aşağıdakı əsas maneələri vardır:

1. İstehsalın səmərəli ölçüsü (miqyası);
2. Məhsulun həyat tsiklindən yaranan səmərə;
3. İstehlakçıların müəyyən ticarət məkanına davamlı şəkildə üstünlük verməsi;
4. Kapitala olan tələbat;
5. Satış kanallarından istifadə imkanları;
6. Dövlət siyasəti və tədbirləri.

Bundan başqa sahələrarası rəqabət də mövcuddur ki, investisiya qoyuluşları ilə bağlıdır. Belə ki, investisiya qoyuluşları zamanı hansı sahənin daha səmərəli olması sahələrarası rəqabətin yaranmasına səbəb olur.

Dördüncü təhlükə təchizatçılar ilə bağlıdır. Belə ki, təchizatın şirkətlər bazarda təklifin azalması və ya başqa vəziyyətlər yarandıqda xammalın və ya dəstləşdirici detalların qiymətini qaldırmaq və ya kəşfiyyatı aşağı salmaqla müəyyən təhlükələr yarada bilər. Qiymətin qaldırılması məhsulun maya dəyərinin artmasına, yəni

məhsulun qiymətinin bahalaşmasına gətirib çıxara bilər ki, bu da satışın həcminin aşağı düşməsi nəticəsində gəlirin azalmasına səbəb olar. Keyfiyyətin aşağı düşməsi də eyni nəticəyə gətirib çıxarır. Keyfiyyətsiz məhsul məlum olduğu kimi bazarda yaxşı satılmadığından gəlirə mənfi təsir göstərir.

Aşağıdakı amillər mövcud olduqda təchizatların rəqabətə təsiri daha güclü olur:

- təchizat xərcləri alıcı üçün vacib rol oynadıqda;
- təchizatçıların məhsullarının alıcı üçün dəyişmək istəyi çətinləşdikdə;
- alıcı təchizatçı firma üçün vacib müştəri olmadıqda;
- təchizatçının məhsulu əvəzedici məhsullarla rəqabət apardıqda.

Alıcıların da təchizatçılara təsir imkanları mövcuddur və bu aşağıdakı hallarda baş verir:

- alıcının əhəmiyyəti böyük və az olduğu hallarda;
- istehlakın həcmi sahədəki bütün satışların əhəmiyyətli hissəsidir;
- təchizatçılar nisbətən kiçik firmalardırlar;
- təklif olunan məhsullar nisbətən standartdır, sərbəst seçim imkanı vardır;
- alınan məhsul vacib dəstləşdirici hissə deyil;
- dəstləşdirici məmulatlar bir neçə firmadan alınır.

## 10.4.İnhisarçılıq və ona qarşı dövlət tədbirləri.

Biznes fəaliyyətinə təhlükə yaradan amillərdən biri də inhisarçılıqdır. İnhisarçılıq siyasəti firmaların müəyyən bir iqtisadi, istehsal, ticarət sahəsində rəqiblərin müxtəlif yollarla sıxışdırılıb aradan çıxarılması yolu ilə sahənin və yaxud bazarın tamamilə bir firma tərəfindən ələ keçirilməsidir.

İnhisarçılıq adətən iri və maliyyə imkanları digərlərindən dəfələrlə üstün olan firmalar tərəfindən aparılır. Bu firmalar bazarı tamamilə ələ keçirmək üçün bir müddət istehsal etdikləri və yaxud satdıqları məhsulun qiymətini maya dəyəri səviyyəsinə qədər aşağı salıb heç bir gəlir əldə etmədən satırlar. Maliyyə imkanları böyük olduğundan bu vəziyyəti uzun müddət davam etdirmək imkanları olur. Lakin rəqib firmalar bu qaydada fəaliyyət göstərə bilmədiklərindən, yəni məhsulu aşağı qiymətə satdıqda istehsal xərclərini və digər xərcləri ödəyə bilmədiyindən sahədən çəkilmək məcburiyyətində qalıb, fəaliyyətlərini dayandırmalı olurlar. İnhisarçı firma bazarda tək qaldıqdan sonra məhsulun qiymətini istədiyi səviyyəyə qaldırır və bazarı tamamilə ələ keçirmiş olur.

Onu da qeyd etmək lazımdır ki, inhisarçılıq siyasəti adətən zəif inkişaf etmiş və ya inkişaf etməkdə olan ölkələrdə baş verir. Bu zaman firma rəhbərləri bəzi dövlət məmurlarını da ələ alaraq müəyyən üstünlükləri əldə etmiş olurlar.

İnkişaf etmiş ölkələrdə inhisarçılıq siyasətinin aparılması praktiki olaraq mümkün deyil. Çünki bu ölkə-

lərdə antiinhisar qanunları dəqiq mexanizmə malikdir və bu qanunlar işlək vəziyyətdədir.

Antiinhisar siyasəti uzun tarixi yol keçmişdir. Bu siyasət sənaye istehsalının bir hissəsinin ələ keçirilməsi, bazarların bölüşdürülməsi və qiymətin səviyyəsi haqqında gizli danışıqların aparılması, süni mal qıtlığı yaradılması kimi halların qarşısının alınmasına yönəlmişdir. Antiinhisar qanunçuluğu 1890-cı il Şerman, 1914-cü il Kleyton, 1936-cı il Robinson-Potman qanunu, 1947-ci ildə isə Yaponiyada inhisarı qadağan edən qanunlarla müşayiət olunmuşdur. İngiltərədə isə 1948-1980-ci illərdə qəbul olunmuş aktlarda öz əksini tapmışdır.

Şermar qanunu təkbaşına nəzarəti, qiymətlərin səviyyəsi barədə hər cür razılaşmanı qadağan etdi. Kleyton qanunu təchizat sahəsində və qiymət razılaşmalarına qadağalar qoydu. Robinson-Potman qanununda isə ticarət sahəsinə inhisarçılığı qadağan edirdi. Antiinhisar qanunları səmərəli rəqabəti pozan fəaliyyətlərin qarşısının alınmasına yönəlirdi.

Azərbaycanda isə "Antiinhisar fəaliyyəti haqqında" qanun 4 mart 1993-cü ildə qəbul olunmuşdur. Bu qanunda inhisarçılığın qarşısının alınması ilə bərabər, inhisarçılığın növləri, dövlət inhisarçılığı, sahə inhisarçılığı, yerli inhisarçılıq, maliyyə-kredit inhisarçılığı, təbii inhisarçılıq anlayışları aydınlaşdırmaqla bərabər inhisarçılıq fəaliyyətinin aradan qaldırılması və dövlətin inhisarçılığa nəzarət funksiyası da öz əksini tapmışdır.

## 10.5. Daxili bazarın qorunması.

Müasir dövrdə heç bir dövlət qapalı iqtisadi sistem formasında yaşamaq iqtidarında deyil, əgər bu mümkün olsa belə iqtisadi baxımdan məqsədəuyğun sayıla bilməz.

Vahid sistem halında formalaşan beynəlxalq iqtisadiyyata uyğunlaşmaq və birgə inkişafdan bəhrələnmək məqsədi ilə Azərbaycan Respublikası da özünün milli iqtisadiyyatını aşağıdakı prinsiplər üzrə inkişaf etdirməlidir:

- açıq iqtisadi sistemə uyğunlaşma;
- iqtisadi tənzimləmə mexanizmini beynəlxalq təcrübəyə və hüquq normalarına uyğunlaşdırma;
- iqtisadiyyatı və xarici ticarət əlaqələrini beynəlxalq əmək bölgüsünün malik olduğu üstünlüklərə uyğun formalaşdırmaq;
- ölkənin mənafelərini təmin edən beynəlxalq təşkilatlara və birliklərə üzv olmaq;
- ölkənin iqtisadi və ərzaq təhlükəsizliyini təmin edən strategiyasının işlənməsi və həyata keçirilməsi.

Azərbaycan Respublikasının daxili bazarının tənzimlənməsi aşağıda qeyd olunanların icra olunmasının təmin edilməsini nəzərdə tutur:

- ərzaq təhlükəsizliyinin təmin olunması;
- bazarda qiymətlərin kəskin dəyişməsinin qarşısının alınması;
- yerli istehsalçıların xarici rəqabətdən mühafizə olunması.

İstehlak bazarına nəzarət edilməsi məqsədi ilə isə aşağıdakı məsələlərə diqqət yetirilməlidir:

- tələbə təsir etmək məqsədi ilə qiymətin tənzimlənməsi;

- təklifə təsir etmək məqsədi ilə kredit, vergi və subsidiyaların tətbiqi;

- sahibkarlara dövlət yardımlarının göstərilməsi.

Daxili istehlak bazarının qorunması üçün düzgün və məqsədyönlü iş aparılması şərti, gömrük və vergi siyasəti düzgün formalaşdırılmalı, investisiya siyasəti düzgün qurulmalı və qeyri-tarif tənzimləmələrindən fəal istifadə olunmalıdır.

Əhalinin ərzaq tələbatının maksimum səviyyədə yerli məhsullarla ödənilməsi üçün kəndli fermer təsərrüfatlarının inkişafına münbit şərait yaradılmalıdır. Bu sahəyə subsidiyalar, kreditlər ayrılmaqla bərabər, istehsal texnologiyaları müasir səviyyəyə qaldırılmalıdır. Ayrılan kreditlərin faiz dərəcəsi çox aşağı olmaqla bərabər, qaytarılma müddəti uzadılmalıdır.

Daxili bazarın qorunması məqsədi ilə ölkədə istehsal olunan məhsulların xarici dövlətlərdən gətirilməsinin qarşısı müxtəlif yollarla, kvota tətbiqi, lisenziyalaşdırma və başqa üsullarla alınmalı və ya minimuma endirilməlidir.

Ölkə iqtisadiyyatını inkişaf etdirmək məqsədi ilə xarici iqtisadi əlaqələrin əsas istiqamətləri aşağıdakı kimi təkmilləşdirilməlidir:

1. İdxal-ixrac əməliyyatlarının effektivliyi artırılmalıdır;

2. Daxili bazarı yerli istehsal məhsullarının hesabına artırmaq istiqamətində fəaliyyət gücləndirilməlidir;

3. İstehsal prosesində yeni texnika və texnologiyaların tətbiqinin səviyyəsi artırılmalıdır;

4. Xarici investisiyalar hesabına ölkə iqtisadiyyatına vəsait qoyuluşu artırılmalıdır;

5. Ölkənin mükəmməl iqtisadi təhlükəsizlik sistemi yaradılmalıdır;

6. Xarici iqtisadi əlaqələr mükəmməl təşkilati-idarəetmə sisteminə əsaslanmalıdır.

Bütün yuxarıda qeyd olunanlar həm ölkənin daxili bazarının qorunmasına, həm də ölkənin iqtisadi təhlükəsizliyinin, eyni zamanda ölkə ərazisində biznes fəaliyyətinin təhlükəsizliyinin təmin olunmasına xidmət edir.

# FƏSİL 11. BİZNESİN TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASINDA BENCMARKİNQİN ROLU

## 11.1. Bencmarkinqin yaranma tarixi və inkişafı

"Bencmarkinq" sözü ingilis dilindən götürülmüşdür. Mənasına gəldikdə isə "bench"-"səviyyə" və ya "yüksəklik" mənasını bildirir, "mark" isə "qiymət" deməkdir.Beləliklə bencmarkinq"yüksək qiymət", yaxud "qiymət" mənasını bildirir.

Bencmarkinq də digər idarəetmə alətləri kimi iri biznesin məhsuludur, başqa sözlə iri biznes üçün yaranmışdır.İri bizneslə məşğul olan kompaniyalar daim rəqabət üstünlükləri axtarışında olmaqla bərabər,yeni idarəetmə metodları layihələndirməyə daha çox fikir verirlər.

Bu tədqiqatlar qlobal xarakter daşımaqla menecmentin ayrı-ayrı istiqamətləri olmaqla daha uğurlu qərarların qəbuluna şərait yaradır,lakin bencmarkinq təkcə iri biznes sahələrində deyil,kiçik və orta biznesdə də tətbiq olunur.Lakin bu zaman təbiidir ki,iri biznes fəaliyyətinin təcrübəsindən istifadə olunur.

"Bencmarkinqin" başqa cür izahı da mövcuddur.Bu izahda "bencmark" bir ölçü vahidi və "bencmarkinq" isə buölçünün hazırlanması kimi izah olunur.

Hələ dilimizdə tam olaraq mənimsənilməmiş olsa da bencmarkinq nümunə əldə etmə,nümunə götürmə,daha çox da "müqayisə etmə" mənasını bildirir.Bu baxımdan bencmarkinq hər hansı bir firmanın öz imkanlarını və gücünü artırmaq məqsədi ilə bazarda müvəffəqiyyət əldə

etmiş başqa bir firmanın fəaliyyət texnologiyalarının araşdırılması və onun öz texnologiyaları ilə müqayisə etməklə,nəticənin öz firmalarında tətbiqi kimi başa düşülməlidir.

Əslində Yaponiyada hələ qədim zamanlardan istifadə olunan "Dantatsu" (ən yaxşının yaxşısı) anlayışı mövcud idi.Bu anlayışdan istifadə edən Xerox firması 1983-cü ildə bencmarkinqi bir vaistə kimi istifadə etmişdir.Son dövrlərdə külli miqdarda maliyyə itkisinə düçar olan Xerox,Yapon firmalarının üstünlüyünü əks etdirən cəhətlərindən faydalanaraq özünə yeni çıxış yolları axtarmışdır.1979-cu ildə Xerox, bencmarkinqin tətbiqinə başlayaraq rəqibləri tərəfindən istehsal olunan fotokopiya maşınlarının ayrı-ayrı hissələrini söküb araşdırmağa başlamışdır.Xerox bu hissələrin fiziki olaraq necə birləşdirilməsini qiymətləndirməklə bərabər,istehsal xərclərini də araşdırmış və rəqiblərin bu məhsulları necə və daha aşağı xərclərlə istehsal etdiklərini aydınlaşdırmışdır.Əldə olunan nəticələri Xerox firması öz istehsalında tətbiq etməklə yeni uğurlar qazanmağa başlamışdır.

Digər yapon firması "Toyoto" firmasının rəhbərinin oğlu Eiji 1950-ci illərdə General Motors,Ford kimi avtomobil nəhənglərini araşdırmaq məqsədi ilə ABŞ-a ezam olunmuş və burada satış mağazalarında,supermarketlərdə axşamlar boşalan rəflərin doldurulduğunu müşahidə etmiş və Yaponiyaya dönüşündə ən son model olan Loqistik "justin-time"sisteminin tətbiqinə başalamışdır.

Bencmarkinq doxsanıncı illərdə ABŞ-da məhsuldarlıq axtarışı olaraq meydana çıxmışdır.

## 11.2. Bencmarkinqin mahiyyəti

Bencmarkinin mahiyyətinin dərk edilməsi üçün aşağıdakılara diqqət yetirilməsi vacibdir:

- bencmarkinq qənaət vasitəsi deyil;
- bencmarkinq bir dəfə tətbiq edilməklə başa çatacaq proses deyil;
- bencmarkinq yeni fikir qazanmaq üçün fəaliyyət olmaqla,bir iş öyrənmə müddətidir;
- bencmarkinq vaxt aparan,çox iş tələb edən bir fəaliyyətdir;
- bencmarkinq köçürmə və ya təqlid etmə deyil;
- bencmarkinq davamlı fəaliyyətdir.

Bencmarkinqin tətbiqində müştərinin böyük əhəmiyyəti vardır. Məhsul yalnız müştərini təmin etdiyi müddətdə yaşayacaq və nə qədər yaşayacaqsa firma da o qədər yaşayacaq.

Nəhayət, bencmarkinq rəqabət prosesində digər firmaların fəaliyyətlərinin öyrənilib araşdırılması və müqayisəsi yolu ilə nəticələrin müsbət tərəflərindən firmanın fəaliyyətində istifadə edərək uğurlar əldə etməyin bir yoludur.

Göründüyü kimi bencmarkinq fəaliyyəti də biznesin təhlükəsizliyinin təmin olunması metodudur.

## 11.3. Bencmarkinqin elementləri və növləri.

Bencmarkinqin elementləri dedikdə əsasən aşağıdakılar nəzərdə tutulur:

1. Müqayisə və planlaşdırmağa ehtiyacın müəyyən edilməsi;

2. Müasir səviyyədə mövcud olan müvafiq biznes proseslərinin öyrənliməsi;

3. Öyrənilən proseslərin içərisindən daha cəlb edicilərin seçilməsi;

4. Əldə edilən cəlbedici proseslərlə öz fəaliyyət prosesinin müqayisə edilməsi;

5. Hesabat hazırlanması və aradakı fərqi bağlamaq üçün lazım olan addımların artılması;

6. Nəticələrin qiymətləndirilməsi.

Göründüyü kimi bencmarkinq rəqiblərin və etalon hesab oluna bilən firmaların modellərinin öyrənilib tətbiq edilməsidir.

Bencmarkinqin növlərinə gəldikdə isə bunlar əsasən aşağıdakı qeyd olunanlardan ibarətdir:

1. <u>Funksional bencmarkinq</u>.Funksional bencmarkinq firmanın analoji olmayan və rəqib olmamaq şərti ilə sahə və yaxud idarəetmə funksiyaları oxşar olan başqa bir sahənin fəaliyyət göstərən firması ilə müqayisəli təhlilinin aparılmasıdır.Burada təhlil aparılan firmanın üstün cəhətlərindən istifadə olunur.Təhlilin nəticəsində firmanın fəaliyyətində aşkarlanan üstün cəhətlər öyrənilir və tədqiqat aparan firmada tətbiq olunmaq haqqında firma rəhbrliyi tərəfindən qərar qəbul olunur.

2. <u>Ümumi bencmarkinq</u>.Ümumi bencmarkinq müəssisənin fəaliyyətinin dünya səviyyəsində tanınmış bir sahədən olmasa da,digər sahələrdən olan müəssisələrin fəaliyyətləri ilə müqayisəsidir.Lakin qeyd etmək lazımdır ki,bu müqayisədə bir neçə oxşar proseslərin uyğunluğu yoxlanılmalıdır.

3. Konsultativ bencmarkinq.Bu qarşılıqlı əlaqəli konsultativ xidmətin istifadə olunması şərti ilə müqayisədir.Konsultativ xidmət heç bir yerdən kömək istifadə etmədən sərbəst olaraq informasiya toplayıb,tədqiqat aparıb,toplanan məlumatlardan istifadə edərək obyektin fəaliyyətinin nəticələrinin analizini apara bilər.Bu tip bencmarkinq rəqib bencmarkinqlə müqayisədə daha effektiv nəticələrə gətirib çıxara bilər.

4. Rəqabət qabiliyyətli bencmarkinq.Bu bencmarkinq müəssisənin xarakteristikasının ölçülməsi,istehsal olunan spesifik məhsulların tədqiqatı,inzibati və proses metodlarının imkanlarının və onların rəqib metodlarının imkanları ilə müqayisəsidir.Bu zaman firmada istifadə olunan inzibati,iqtisadi, sosial-pisoxoloji metodların müqayisəsinin aparılması ilə bərabər,istehsal prosesində istifadə olunan proses metodlarının da müqayisəsi aparılır və nəticədə əldə edilmiş üstünlüklər aşkarlanır və idarəetmə prosesində tətbiq olunur.

5. Proses bencmarkinqi.Bu müəyyən proseslərin və müəssisədə məhdud funksiyaların analoji proseslərdə yaxşı xarakteristikaların müqayisəsidir. Analoji proseslərin müqayisəsi nəticəsində müəssisələrdə hansı nəticənin yüksək olması və bu nəticənin yüksəkliyinin əsas səbəbləri araşdırılır və sonda müəssisədə bu nəticələrin tətbiq olunması təmin olunur.

6. Daxili bencmarkinq.Daxili bencmarkinq istehsal vahidi xarakteristikaları ilə müəssisənin özünün daxilində baş verən proseslərdən oxşarlarının yüksək nəticəyə malik olanlardan seçilib təhlil etməklə, ən effektivlərində baş

verən proseslərin öyrənilməsi yolu ilə maraqlı prosesə tətbiq edilir.

Bencmarkinqin icra edilməsi zamanı aşağıdakı mərhələlərə diqqət yetirilməsi vacibdir:

1. Obyektin seçilməsi;
2. Tərəfdaşın seçilməsi;
3. Məlumatların toplanması;
4. İnformasiyaların təhlili;
5. Əldə olunan nəticələrin tətbiqi.

## 11.4. Bencmarkinqin xüsusiyyətləri.

Bencmarkinqin tətbiqi zamanı onun bir sıra xüsusiyyətlərinə diqqət yetirilməsi vacibdir.Bu xüsusiyyətlər isə əsasən aşağıdakılardan ibarətdir:

1. Dünyanın inkişaf etmiş ölkələrində iri firmaların çoxu bencmarkinqdən istifadə edir.Bu firmalar bencmarkinqin vaistəsi ilə rəqabət qabiliyyətinin artırılmasını,həmçinin firmanın idarəetmə sisteminin daha da mükəmməlləşməsini təmin etməyə çalışırlar;

2. Kiçik və orta biznesdə bencmarkinq o zaman səmərəli effekt verir ki,bu zaman onlar iri firmaların təcrübəsini praktiki olaraq tətbiq etmiş olurlar;

3. “Müxtəlifləşmə kompleksi”bencmarkinqin tətbiqi zamanı iri və orta biznes fəaliyyəti ilə məşğul olan firmalar üçün bu gün də əsas maneə kimi qalmaqdadır;

4. Sıx rəqabət mövcud olduğu bazarlarda kiçik və orta seqmentlərdə intensiv obyekt kimi müqayisədə maliyyə vəsaitlərinin göstəricilərinin seçilməsi;

5. İqtisadi cəhətdən zəif inkişaf etmiş ölkələrdə bencmarkinqdən daha çox elə firmalar istifadə edirlər ki,bu firmaların xarici iqtisadi əlaqələri ya çox genişdir, ya da bu firmalar xarici tərəfdaşlarla birgə müəssisə yaratmışdır.

Bencmarkinq müqayisəsi zamanı müqayisəçi tənqidi baxımdan açıq olmalıdır.Belə ki,əgər müqayisə zamanı nəyinsə xatirinə nəyinsə örtülü saxlanması, yaxud dəqiq bildirilməməsi son nəticədə firmanın ziyanınadır.

Yaxşı bir müqayisəçi mütəxəssis öz növbəsində aşağıdakı göstəricilərə sahib olmalıdır:

1. Aktiv və davamlı fəaliyyət göstərməyi bacarmalıdır;
2. Hadisələrə diqqətlə yanaşmağı bacarmalıdır;
3. Etibarlı dəlillər əldə etməyi bacarmalıdır;
4. Liderlik mövqeyini saxlamağı bacarmalıdır;
5. Rəhbərliyin dəstəyinə arxalanmalıdır.

## 11.5. Bencmarkinqin mərhələləri

Bencmarkinq mürəkkəb,çətin və çox vaxt əmək tələb edən bir prosesdir.Bu proses çətin və mürəkkəb olduğu üçün müxtəlif mərhələlərə bölünməsi vacibdir.

Mütəxəssislər adətən bencmarkinq fəaliyyətini aşağıdakı mərhələlərə bölürlər:

1.Tədqiqat aparılan obyektin üstünlüyünün müəyyənləşdirilməsi.Təşkilata və ya onun tərkib hissələrinə tənqidi yanaşmaqla daxili və xarici baxış nöqteyi nəzərdən təhlilin aparılması;

2.Üstünlüyə görə təhlil aparılması üçün tərəfdaşların seçilməsi məqsədi ilə daha münasib firmaların aşkarlanması.Seçilmiş kompaniya digərlərindən daha yüksək göstəricilərə malik olmaqla bərabər,tədqiqatçı kompaniya ilə müqayisə aparmağa münasib olmalıdır;

3.Bencmarkinq aparılması istiqamətində bütün lazım olan məsələlərin müəyyən edilməsi və aşkarlanması;

4.Araşdırmaların nəticəsində münasib tərəfdaşın seçilməsi;

5.Müəssisə tərəfindən bencmarkinq tədqiqatlarının aparılması məqsədi ilə əməkdaşların seçilməsi və bencmarkinq komandasının formalaşdırılması;

6.Bencmarkinq təhlili üçün informasiyaların seçilməsi,toplanması və sistemləşdirilməsi.Bu fazada,yaxud mərhələdə təkcə informasiya toplanması həyata keçirilmir, eyni zamanda əməyin tərkibi və məhsuldarlığın izahı təmin olunur;

7.Əldə olan məlumatların təhlil olunması.Bu proses iştirakçı firmaların analitik və eyni zamanda yaradıcı tərəflərini özündə əks etdirir;

8.Toplanan informasiyalardan maksimum və məqsədyönlü istifadə olunması.Bu məsələlərin həlli idarəetmə quruluşunun müəssisədə tətbiq olunan istehsal texnologiyalarının,innovasiyaların tətbiq olunmasının, eləcə də yeni, daha uğurlu nəticələrin əldə edilməsinə gətirib çıxarmağa xidmət edir;

9.Müəssisənin bencmarkinq aparılması istiqamətində öz imkanlarının tərəfdaş müəssisə ilə birgə analizi və müəyyənləşdirilməsi;

10.Bencmarkinq aparılması üçün arzu edilən parametrlərə müvafiq strategiyanın və müvafiq planların layihələndirilməsi;

11.Qarşıya qoyulmuş strateji planların yerinə yetirilməsi ilə bərabər, layihədə nəzərdə tutulan işlərin icra olunmasına daimi nəzarət.

Bencmarkinqi bir proses kimi aşağıdakı altı mərhələyə böllmək olar:

1.Üstünlüyün təhlili obyektinin müəyyən edilməsi. Bu zaman xidmət müəssisəsinin elə obyektləri seçilməlidir ki, bu obyektləri istehsalatın köməyi ilə tədqiq etmək mümkün olsun. Belə olduqda ümumilikdə həm müəssisənin özünü, həm də onun ayrı-ayrı hissələrinin tənqidi baxımdan istənilən halda gözdən keçirmək mümkün olur, əlavə olaraq həm daxili, həm də xarici baxımdan üstünlük təhlilinin aparılıb-aparılmaması barədə qərar vermək mümkün olur.

Yuxarıda qeyd olunanlardan əlavə, bu qayda ilə məhsulun satış həcminin və digər nəzarətedici göstəricilərin,eləcə də müştərilərin meylliliyinin və s. məsələlərin təhlilində istifadə oluna bilər.Alıcı və müəssisə tələblərindən yaranan məsələlərdən başqa istənilən sahədə üstünlüyün təhlili üsulundan istifadə olunur.

2.Üstünlüyün təhlili üzrə tərəfdaşın araşdırılması. Bencmarkinq təhlili aparılması üçün seçilən tərəfdaş təşkilatın birinci dərəcəli olması o qədər də yetərli deyil,bu təşkilatın bencmarkinq təhlili aparan müəssisə ilə müqayisə dərəcəsinin yüksək olması əsasdır.

Bu proses də özlüyündə aşağıdakılardan keçir:

a) əldə olunan məlumat mənbələrinin ötəri olaraq gözdən keçirilməsi və maksimum informasiya əldə edilməsi;
b) toplanmış informasiyaların təsnifləşdirilməsi eyni zamanda ətraflı şəkildə təsviri;
c) ən yaxşı nümunələrin seçilməsi.

3.Informasiya toplanması.Burada təkcə kəmiyyət və keyfiyyət haqqında informasiyaların əldə edilməsi nəzərdə tutulmur.İnformasiyaların toplanması dedikdə yüksək məhsuldarlığı əsaslandıran,əməyin faydalılıq əmsalını əks etdirən,proses və ya amillərin öyrənilməsi və təsfiri nəzərdə tutulur.

Öz növbəsində bu mərhələdə aşağıdakıların icra edilməsi tamamlanır:

1.Sorğu vərəqinin konsepsiyasının təşkili;

2.Müəssisənin güclü və zəif tərəfləri haqda məlumatın toplanması;

3.Üstünlük təhlili üzrə tərəfdaş haqqında məlumatın toplanması;

4.Digər mənbələrdən istifadə edilməsi;

5.Əldə edilən informasiyaların sənədli şəkildə rəsmiləşdirilməsi;

6.Həm bencmarkinq aparan firmanın, həm də tərəfdaş firmanın rəhbərliyinin qəbul etmələrinə zəmanət verən mövcud məlumatların yoxlanılması.

4.Məlumatların təhlili.Bu təhlil üstünlüyün təhili prosesində iştirak edən tərəflərin yaradıcı və analitik təhlil bacarığının olmasını nəzərdə tutur.Təhlil etmək yalnız oxşar və fərqli cəhətlərin aşkarlanması deyil,müqayisəni

mürəkkəbləşdirə və nəticələri qeyri-real edə bilən qarşılıqlı fəaliyyəti və təsiri dərk etməkdir.

Bu təhlil zamanı aşağıdakılar yerinə yetirilir:

- toplanan məlumatların işlənməsi və müqayisə olunması;
- məlumatların keyfiyyətinin yoxlanması;
- informasiya toplanması prosesinə təsir göstərən və müqayisəni poza biləcək amillərə nəzarət edilməsi;
- ən dəqiq metodlarla müqayisə aparılmasında çatışmazlıqların tapılması və bu çatışmazlıqların mövcudluğunu sübut edən səbəblərin göstərilməsi;
- bəzi proseslər şübhə  yaratdıqda istehsal olunan məhsulun, daxili ehtiyatın və ya idxal hesabına hazırlanması məsələsində seçim aparmağa imkan verən təhlilin aparılması;

5.Əldə edilmiş məlumatlardan səmərəli şəkildə istifadə edilməsi.Əldə edilmiş məlumatlardan istifadə etmə heç də o demək deyildir ki, bu məlumatlar müəssisənin bütün strategiyasını dəyişməlidir.

Təbiidir ki,əldə edilmiş məlumatlardan hamısının tətbiq edilməsi vacib deyil.Bu məllumatlardan yalnız müəssisənin gələcək fəaliyyətində uğurlu nəticələrə gətirib çıxara biləcək məlumatlar tətbiq olunur.Lakin əldə edilən məlumatlardan maksimum istifadə edilməsi vacibdir. Yeniliyin məqsədəuyğun tətbiq olunması, təkmilləşmə imkanlarının aşkarlanması,lazım olan korreksiyaların aparılması, fəaliyyət planın həyata keçirilməsi, üstünlüyün təhlilinin fasiləsiz proses kimi başa düşülməsi, gələcəkdə yeniliyin inkişafı üçün nəticələrdən istifadə edilməsi deməkdir.

6.Təhlil nəticələrinin tətbiqi prosesinə nəzarət iki istiqamətdə aparılır:

- müəssisə fəaliyyətinin müəyyən edilmiş qiymət göstəricilərinin nəticələrinin inkişafı;
- resurs həcminin və müddət üzrə planların icrasının yoxlanılması.

Aşkar olunmuş göstəricilərin həqiqətən də ən yüksək olub-olmadığını yoxlamaq üçün bu göstəricilər tez-tez yoxlanılmalıdır.

Qeyd edək ki,üstünlük təhlili tətbiq edildikdən sonra müəssisənin xərcləri aşağı düşür.Buna səbəb isə aşağıdakılardır:

- əməkdaşlar üstünlüyün təhlili kimi metoda inanırlar;
- müqayisə olunan müəssisə ilə əlaqə yaranır;
- informasiya toplanır,informasiya bazası yaranır.

Optimal istifadə olunması üçün üstünlük təhlili üzrə bütün məlumatlar detallaşdırılır və sistematik formada sənədləşdirilir.

# Fəsil 12. MÜƏSSİSƏNİN MÜFLİSLƏŞMƏ TƏHLÜKƏSİ VƏ BU TƏHLÜKƏNİN ARADAN QALDIRILMASI İSTİQAMƏTLƏRİ.

## 12.1. Müəssisənin qarşısında duran əsas vəzifələr.

Məlum olduğu kimi müəssisələr öz təşkilati-hüquqi formalarına, istehsal həcminə, işçilərinin sayına, mülkiyyət sahiblərinə və digər əlamətlərinə görə müxtəlifdir. Eyni zamanda bütün müəssisələrin daxili və xarici mühitləri mövcuddur.

Daxili mühit amillərinə aşağıdakılar daxildir:

- kadrlar;
- istehsal texnologiyaları;
- idarəetmə strukturu;
- vəzifələr;
- məqsədlər.

Xarici mühit amilləri isə ümumiləşdirilmiş şəkildə aşağıdakılardan ibarətdir:

- alıcılar;
- təchizatçılar;
- rəqiblər;
- bazar infrasturkturu;
- dövlət orqanları;
- müəssisənin ətrafında yaşayan insanlar və s.

Hər bir müəssisə həm daxili, həm də xarici mühitlə qarşılıqlı əlaqədə olduğundan bu mühit amillərinin təsirlərinə daimi olaraq məruz qalır. Fəaliyyətdə olan istənilən müəssisənin ən mühüm vəzifələri aşağıdakılardan ibarətdir:

– müəssisənin fəaliyyəti nəticəsində mənfəətin əldə edilməsi;

– istehlakçıların tələbinə uyğun məhsul istehsalı;

– bazar tələbinə uyğun miqdarda məhsul istehsalının təşkili;

– işçi heyətinin əmək haqqı ilə təmin olunması, onlara normal iş şəraitinin təmin olunması və işçilərin ixtisas səviyyələrinin artırılması;

– müəssisənin ətrafında və ona yaxın ərazidə yaşayan əhalinin işlə təmin edilməsi;

– keyfiyyətli məhsul istehsal etməkə bərabər rentabelliyin yüksəldilməsi, eyni zamanda istehsal həcminin artırılmasının təmin olunması.

Dövlət büdcəsinin formalaşmasında, eləcə də dövlətin iqtisadi inkişafında müəssisələrin rolu böyükdür. Bu baxımdan hər bir dövlətin müəssisələrin fəaliyyətində səmərəliliyin yüksək olmasında marağı vardır. Eyni zamanda dövlət müəyyən mənada müəssisələrin fəaliyyətinin tənzimlənməsində, hüquqi bazanın yaradılmasında və strateji baxımdan inkişaf etdirilməsində bilavasitə iştirakçıdır. Müəssisənin fəaliyyətinə dövlət nəzarəti vacib şərt

olsa da, bu müəyyən hədd çərçivəsində baş verir. Lakin aşağıdakı məsələlərə dövlət nəzarəti vacibdir:

1. İstehsal prosesinin sanitar vəziyyəti;

2. Müəssisənin gəlirinə müvafiq vergi ödənişlərinin aparılması;

3. İstehsal şəraitinin texniki tələblərə və standartlara uyğun olmasına riayət edilməsi və s.

Müəssisələrin fəaliyyəti ilə bağlı bəzi qlobal məsələlər vardır ki, bu bir ölkə çərçivəsində deyil, ümumbəşəri məsuliyyətin daşınması ilə bağlı olur. Bura əsasən aşağıdakılar daxildir:

1. Ətraf mühitin qorunması məqsədi ilə tətbiq edilən qanunlara riayət olunması;

2. İstehsal olunan məhsulların tərkibinin insan orqanizminə zərərinin olmaması;

3. Beynəlxalq standartların və normaların gözlənilməsi.

Müəssisə fəaliyyət göstərərkən başqa müəssisələrin işinə və iş şəraitinə maneçilik göstərməməlidir. Ölkə ərazisində fəaliyyət göstərən hər bir müəssisə milli iqtisadiyyatın formalaşması və inkişafında mühüm rol oynadığından dövlət bu müəssisələrin rentabelli işləməsində marağlıdır. Bu baxımdan dövlət hər bir müəssisənin səmərəli fəaliyyət göstərməsi, daha çox gəlir əldə etməsi, fasiləsiz və təhlükəsiz işləməsinin təminatçısı olmalıdır.

## 12.2. Müəssisələrin müflisləşmə təhlükəsini müəyyənləşdirən əsas amillər.

Müflisləşmə müəssisənin gəlirlərinin aşağı düşməsi, kredit və ya başqa borclarının, öhdəliklərinin ödənilməsi imkanlarından məhrum olmasıdır. Hüquqi təsərrüfat formasından, fəaliyyət sahəsindən, istehsal həcmindən, bu və ya digər amillərdən asılı olmayaraq, hər bir müəssisənin müflisləşmək təhlükəsi vardır.

İstənilən müəssisə öz fəaliyyət dövründə planlaşdırma, proqnozlaşdırma, idarəetmə və s. kimi məsələlərin həllində müəyyən bir səhvə yol verə bilər, yaxud gözlənilməz hər hansı bir hadisə nəticəsində müflisləşmə səviyyəsinə düşə bilər. Belə hallarda bəzi rəhbərlər stres keçirir, yeni səhvlərə yol verir, ruhdan düşür və nəticədə müəssisə iqtisadi cəhətdən həddən artıq zəifləyib sıradan çıxır.

Lakin təcrübəli rəhbərlər belə halda özünü cəmləşdirir, dəqiq təhlil aparır, səhvləri aşkara çıxarır, düzgün qərar qəbul edərək müəssisəni vəziyyətdən çıxara bilirlər. Belə hallara “sağlamlaşdırma” fəaliyyəti deyilir.

Sağlamlaşdırma borcların mülkiyyətçi, kreditor, digər hüquqi və fiziki şəxslər tərəfindən yardım göstərilməsi və yuxarıda qeyd olunanların tətbiqi yolu ilə borcdan xilas olma üsuludur.

Bəzi başqa sahələrdə olduğu kimi, iqtisadi sahədə də müflisləşmə prosesi qəflətən baş vermir. Təhlükənin

əvvəlcə bəzi əlamətləri özünü göstərir. Sahibkar bunu vaxtında hiss etsə, daha doğrusu görə bilsə səbəbi aydınlaşdırıb düzgün qərar verməklə müflisləşmə təhlükəsini aradan qaldıra bilər. Lakin, vaxtında tədbir görülmədikdə müəssisə müflisləşmə təhlükəsi altında qalır və bunu daha da sürətləndirən digər amillərin də təsiri artır.

Heç bir dövlət müəssisələrin müflisləşməsində maraqlı deyil. Belə ki, hər bir müflisləşən müəssisə müəyyən qədər dövlət büdcəsinin azalması və əhali arasında işsizliyin artması deməkdir. Ona görə də, dövlət tərəfindən sahibkarlara kömək məqsədi ilə müflisləşmə qanunla tənzim edilir.

"Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikası qanununda deyilir:

"Borclunun müflis olmasının məqamları aşağıdakılardır:

a) borclunun müflis olunması haqqında məhkəmə qərarlarının qanuni qüvvəyə minməsi tarixi;

b) bu qanunun tələblərinə uyğun olaraq kreditorların ilkin yığıncağında borclu müəssisənin müflis olması barədə müvafiq qərarın olması tarixi".

Müəssisənin müflisləşməsini əks etdirən amillərə kredit ödəmə qabiliyyəti və rentabelliyin səviyyəsi daxildir. Qeyd etmək lazımdır ki, müəssisənin iqtisadi təhlükəsizlik amilləri isə aşağıdakılar olmaqla iki qrupa bölünür:

1. Müəssisə daxili amillər;

2. Müəssisədən kənar amillər.

Müəssisədaxili amillər müəsissənin rəhbərlərindən, menecerlərdən, müəssisənin maliyyə təsərüffat fəaliyyətinin idarə olunmasından asılı olduğu halda, müəssisədən kənar amillər dövlətin yerinə yetirdiyi maliyyə-kredit, vergi, xarici iqtisadi siyasət, dövlət tənzimləmələri və s. kimi amillərlə bağlıdır. Müəssisənin təhlükəsizliyinin təmin olunması müxtəlif amillərdən asılı olduğundan bu təhlükəsizliyin təmin olunması üsulları bir-birindən fərqlənir. Biz əvvəlki fəsillərdə bu təhlükələrin yaranma səbəblərini, xarakterini və onların qarşısının alınması metodlarını qeyd etmişik. İndi isə maliyyə sahəsində yarana biləcək təhlükələrə baxaq. Maliyyədə baş verə biləcək təhlükələri xarakterizə edən amillər əsasən aşağıdakılar hesab olunur:

1. Alıcılıq qabiliyyəti göstəriciləri;
2. Maliyyə sabitliyi göstəriciləri;
3. İşgüzar fəallıq göstəriciləri;
4. Rentabellik göstəriciləri.

Müəssisənin müflisləşməsi ilk növbədə onun maliyyə vəziyyətinin təhlili nəticəsində aşkarlanır. Müəssisədə maliyyə çatışmazlığı müflisləşmənin ilk əlamətidir. Bu böhran yarandıqda ilk növbədə xərclər və gəlir balansı müqayisəli şəkildə yoxlanımalıdır.

Müəssisənin alıcılıq qabiliyyətinə gəldikdə bu müəssisənin maliyyə ehtiyatları ilə xarakterizə olunur. Belə ki, müəssisə borclarını ödəyə bilir, əmək haqqlarını

vaxtında verməyi bacarır və ona lazım olan bütün vəsaitləri almaq üçün kifayət qədər imkanlar vardırsa, demək onun alıcılıq qabiliyyəti yüksəkdir.

Müəssisənin öz vəsaitinin mənbələri aşağıdakılardır:

1. Nizamnamə kapitalı;
2. Ehtiyat kapitalı;
3. Yığım fondu;
4. Məqsədli maliyyələşdirmə və daxilolmalar;
5. Keçən ildən qalan bölünməmiş fond.

Yuxarıda qeyd olunanlardan hər hansı birinin artması onun maliyyə sabitliyinin təmin olunmasıdır.

Müəssisənin işgüzar fəallıq göstəriciləri bir sıra amillərlə bağlıdır. Bu amillər yeni bazara çıxış, satışın və istehsalın artırılması, yeni texnologiyaların tətbiqi, yeni əmtəələrin istehsalı və s. kimi fəallıqla müşayət olunur.

Müəssisənin fəaliyyətinin nəticəsi müəssisənin xüsusi kaptalının və ümumi kapitalının həcmindən, mənfəətin dövr etməsindən çox asılıdır. Bu göstəricilərin nisbəti rentabellik adlanır.

Rentabellik norması istehsal fondlarından istifadə olunmasının effektivliyini ifadə edir və mənfəətin istehsal fondunun həcminə nisbəti kimi çıxış edir.

Müəssisənin müflisləşmə təhlükəsinin təyin edilməsinin ən düzgün yolu aylıq, kvartal və illik hesabatların yoxlanılıb nəticələrin təhlil edilməsi üsuludur.

## 12.3. Müəssisə fəaliyyətində müflisləşmə təhlükəsinin proqnozlaşdırılması

Məlum olduğu kimi, proqnozlaşdırma hələ qədim zamanlardan müxtəlif sahələrə tətbiq edilmişdir. Müasir dövrümüzdə isə daha da genişlənmiş, o cümlədən iqtisadiyyatın bütün sahələrində, xüsusən də planlaşdırma proseslərində geniş tətbiq olunur. Müəssisənin müflisləşməsinin proqnozlaşması vacib məsələlərdən biridir. Müflisləşmənin proqnozlaşdırılması təhlükəsiz sistemdə baş verə biləcək itkilərin vaxtında müəyyən olunması və bu itkilərin baş verməsinin qarşısının alınmasına xidmət edir.

İtki təhlükəsinin qarşısının alınması üçün itkinin növləri, itki sahələri, itkilərin həcmi, itkilərin baş vermə ehtimalları müəyyən olunmalı, yəni qabaqcadan proqnozlaşdırılmalıdır. Müəssisənin iqtisadi itkilərini ümumiləşdirilmiş şəkildə aşağıdakılara bölmək olar:

1. Maddi itkilər;
2. Əmək itkiləri;
3. Kadr itkiləri;
4. Maliyyə itkiləri;
5. İnformasiya itkiləri.

Maddi itkilərə layihədən kənar, nəzərdə tutulmayan əlavə xərclər, avadanlıqların, əşyaların, məhsulun, xammalın, enerjinin və s. istifadəsi zamanı xarab olma, boş dayanma, yaxud lazımsız yerə israf olunmalar daxildir.

Əmək itkisi dedikdə, işçilərin boş dayanma halları, yaxud iş prosesində lazımsız əmək sərfi ilə əlaqədar olan itkilər nəzərdə tutulur. Əmək itkisinin ölçü vahidi adam-gün, adam-saat  yaxud iş vaxtıdır.

Kadr itkisi müəssisədə fəaliyyət göstərən işçi heyətinin ixtisas səviyyəsi, peşəkar kadrların işdən getməsi, kadr hazırlığının zəif təşkil olunması və s. kimi kadrlarla bağlı bütün mənfi hallar nəzərdə tutulur.

Maliyyə itkisi birbaşa maliyyə vəsaitlərinin bölüşdürülməsində, istifadəsində, cərimə ödənişlərində, əlavə vergi ödənişlərinin meydana çıxmasında, borcun vaxtında qaytarılmaması nəticəsində tələb olunan əlavə ödənişlərin icra edilməsində və s. hallarda yaranan itkilərdir.

İnformasiya itkilərinin nəticələri çox ağır olur. Bu müəssisənin "kommersiya sirri" sayılan informasiyaların rəqiblərin əlinə keçməsi, yaxud qərar qəbul edilməsində istifadə olunacağ informasiyaların kifayət qədər toplanmaması kimi dəyərləndirilə bilər.

Müəssisələrin idarə olunması zamanı təsadüfi itkilər, yəni nəzərdə tutulmayan və ya gözlənilmədən baş verə bilən digər itkilər də meydana çıxa bilər. Təhlükəni qiymətləndirmək və proqnozlaşdırmaq üçün itki amillərini təsnifləşdirmək və onları bir-birindən fərqləndirmək lazımdır.

Müəssisələrdə müflisləşmənin proqnozlaşdırılması diskriminal təhlil üsulu ilə yerinə yetirilir. Bu zaman

statistik təhlillər aparılır, müəssisələr müxtəlif əlamətlərə görə sinifləndirilir, sonra korrelyasion model qurulur. Bu proses bir-birindən asılı və müqayisə oluna bilən amillərin qarşılıqlı münasibətlərinin təhlilindən ibarətdir.

Müəssisələr müflisləşmə səviyyəsinə görə aşağıdakı kateqoriyalara bölünür:

1. Mövcud şəraitdə müvəqqəti olaraq müflisləşmə prosesi getməyən müəssisələr;
2. Mövcud şəraitdə müvəqqəti müflisləşmə ehtimalı olan müəssisələr;
3. Cari vəziyyətdə müflisləşmə təhlükəsi müvəqqəti yüksək olan müəssisələr;
4. Cari vəziyyətdə müflisləşmə təhlükəsi həddən artıq yüksək olan müəssisələr.

## 12.4. Müəssisənin iqtisadi təhlükəsizliyinin əsas meyarları.

Müəssisələrin iqtisadi baxımdan təhlükəsizliyinin təmin olunması meyarları müxtəlif olmaqla bərabər, həm də çoxdur. Müəssisənin iqtisadi təhlükəsizliyi bir sıra kəmiyyət və keyfiyyət göstəriciləri ilə səciyyələnir.

Müəssisənin iqtisadi təhlükəsizliyinin funksional vəziyyəti iqtisadi təhlükəsizliyin bütün istiqamətlərinin məcmusudur. İqtisadi təhlükəsizliyin istiqamətləri, xarakteri və mahiyyəti etibari ilə bir-birindən fərqlənir. Bu

təhlükələrə əsasən maliyyə, intelektual, kadr, texnika, texnologiya, siyasi, hüquqi və ekoloji amillər daxildir.

Buna baxmayaraq, iqtisadi təhlükəsizliyin təmin olunmasında korporativ resursların məcmusundan istifadə olunur ki, bu amillərə də əsasən aşağıdakılar daxildir:

1. Maliyyə ehtiyatları. Müəssisənin səhm maliyyəsi ilə borc maliyyəsinin cəmi müəssisənin əsas maliyyə ehtiyatlarıdır ki, digər ehtiyatların əsası və ya dayağı kimi çıxış edir;

2. Müəssisənin kadr potensialı onun işçi ehtiyatı hesab olunur. Bu ehtiyatlara müəssisədə çalışan menecerlər, mühəndislər, texnoloqlar, istehsalla məşğul olan digər mütəxəssislər aiddir. Kadr potensialı müəssisənin uğurunun əsasıdır. Belə ki, texnologiyası, satışı, planlaşdırmanın təşkili və idarəedilməsi zəif olan müəssisənin istənilən qədər maliyyə vəsaiti və digər imkanları olsa belə, yüksək səviyyəli kadrsız  o heçbir uğur qazana bilməyəcəkdir;

3. İnformasiya ehtiyatları. İdarəetmənin əsasını informasiya təşkil edir. Bütün qərarların qəbul edilməsi, fəaliyyətin planlaşdırılması və ümumilikdə müəssisənin idarə edilməsi informasiya ilə bağlıdır. Təbiidir ki, informasiyanın dəqiqliyi, tamlığı, əhatəliliyi yuxarıda qeyd edilən proseslərin düzgün istiqamətləndirilməsinin əsasıdır;

4. Texnoloji ehtiyatlar. Müəssisənin fəaliyyətinin səmərəliliyi və istehsalın həcmi müəssisədə istifadə olunan istehsal texnologiyasından asılıdır. İstehsal texnologiyası

eyni zamanda məhsulun keyfiyyətinin yüksəldilməsini təmin edən və istehsal xərclərini aşağı salan əsas amillərdən biridir;

5. Hüquqi ehtiyyatlar. Bu ehtiyatlara aşağıdakılar daxildir:

- patentlərdən istifadə hüququ;
- lisenziyalardan istifadə hüququ;
- təbii resurslardan istifadə hüququ və s.

Müəssisənin iqtisadi təhlükə mənbəyi əsasən iki formada özünü əks etdirir:

a) obyektiv mənfi təsir;
b) subyektiv mənfi təsir.

Obyektiv mənfi təsir təhlükəsi müəssisənin rəhbərliyindən, kadrlardan və s. bu kimi amillərdən asılı olmayan kənar təhlükələrdir.

Subyektiv mənfi təsir amilləri isə birbaşa qeyri-səmərəli idarəolunma, istehsalın düzgün idarə olunmaması, planlaşdırmanın dəqiq aparılmaması və s. kimi səbəblərdən yaranır.

## 12.5. Müəssisələrin iqtisadi təhlükəsizliyinin təmin olunması yolları

Müəssisələrin iqtisadi təhlükəsizliyinin təmin olunması elə prosesdir ki, bu prosesdə bir sıra amillərin öyrənilməsi və təhlil edilməsi vacibdir. Müəssisələrin iqtisadi təhlükəsizliyinin təmin olunması ona təsir edən amillərin hər birindən yarana biləcək təhlükələrin araşdırılıb, baş

verə biləcək təhlükənin qarşısının alınması ilə bağlıdır. İqtisadi təhlükəsizliyinin təmin olunması prosesi bir neçə mərhələdən ibarətdir. İqtisadi təhlükəsizliyin təmin olunmasının ən vacib mərhələsi iqtisadi təhlükəsizlik strategiyasının proqnozlaşdırmalar əsasında planlaşdırılmasıdır. Bu mərhələdə müəssisələrin iqtisadi təhlükəsizliyinin strategiyasl planı işlənib hazırlanır və strateji planlaşdırmanın ehtiyatlardan istifadənin keyfiyyət parametrləri öz əksini tapır, eyni zamanda həmin ehtiyatlardan səmərəli istifadə etməyin kəmiyyət göstəriciləri də təyin edilir.

Strateji plan tərtib olunarkən onun reallaşdırılması mərhələləri, yəni təhlükəsizliyin taktiki planlaşdırılması tərtib olunur. Taktiki planlaşdırmada iqtisadi təhlükəsizliyin səviyyəsi öyrənilməklə onun qarşısının alınması yolları müəyyənləşdirilir.

İqtisadi təhlükəsizlik səviyyəsi statistik metod vasitəsi ilə öyrənilir, toplanmış informasiyalar işlənilir, bir sıra göstəricilər müqayisə olunur, mövcud və potensial təhlükələr müəyyənləşdirilir. Bu təhlükələrin qarşısının alınması məqsədi ilə tədbirlər planı işlənilir.

Müəssisələrin iqtisadi təhlükəsizliyinin təmin olunmasının əsas istiqamətləri aşağıdakılardan ibarətdir:

1. Müəssisənin maliyyələşdirilməsi sistemində təhlükəsizliyin təmin edilməsi;

2. Müəssisənin intelektual və ya idarəetmə heyətində yarana biləcək təhlükələrin aradan qaldırılması;

3. Müəssisənin ekoloji baxımdan təhlükəsizliyinin təmin edilməsi;

4. Müəssisənin iformasiya və kommunikasiya sistemində yarana biləcək təhlükələrin aradan qaldırılması;

5. Müəssisənin istehsal prosesində yarana biləcək təhlükələrin aradan qaldırılması;

6. Müəssisənin texnoloji baxımdan təhlükəsizliyinin təmin edilməsi;

7. Müəssisənin sosial-hüquqi cəhətdən təhlükəsizliyinin təmin edilməsi və s.

Qeyd etmək lazımdır ki, bu təhlükəsizlik tədbirləri bir-biri ilə qarşılıqlı əlaqədə olsalar da, yerinə yetirdiyi funksiyalara görə fərqlənirlər.

Müəssisənin iqtisadi təhlükəsizliyinin təmin olunması prosesində qiymətləndirmə müxtəlif istiqamətlərdə aparılır:

1. Müəssisənin rəqabət qabiliyyətinin rəqib müəssisə ilə müqayisəli təhlili;
2. Müəssisənin kapitalının strukturunun təhlili;
3. Müəssisənin alıcılıq qabiliyyətinin və maliyyə sabitliyinin təhlili;
4. Məsrəf strukturunun təhlili;
5. Mənfəət və rentabelliyin təhlili;
6. Borcluluğun təhlili;
7. Maliyyənin digər istiqamətlərinin təhlili.

# FƏSİL 13. BİZNESİN TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASINDA YENİ TEXNOLOGİYALARDAN İSTİFADƏ EDİLMƏSİ

## 13.1. Biznesdə təhlükəsizlik avadanlıqlarından istifadə olunması.

Biznesin təhlükəsizliyinin təmin olunmasında əsas yer tutan məslələrdən biri də təhlükəsizlik avadanlıqlarının seçilməsidir.Təhlükəsizlik avadanlıqları elm və texnikanın inkişafı ilə bağlı olaraq hər zaman təkmilləşdirilmiş və müasir səviyyədə daha da mükəmməlləşdirilmişdir.Müasir təhlükəsizlik avadanlıqları son dərəcə modernləşdirilmək-lə bərabər, həmçinin dəqiq sistemlərdir.

Müasir təhlükəsizlik sistemlərində tətbiq olunan təh-lükəsizlik avadanlıqları öz orijinallığı ilə ona görə cəlbe-dicidir ki, bu sistemlər avtomatlaşdırılmış sistemlərdir.

Hər hansı bir gözlənilməz təhlükəli hadisə baş verdikdə, bu sistemlər avtomatik olaraq öz-özünə işə qoşulur,nəticədə həm xəbərdarlıq siqnalları yerli qəza nöqtələrində işə düşür, həm də bu mərkəzi mühafizə xidmətinə ötürülür.Mühafizə siqnallayıcı avadanlıqların vəzifəsi təkcə xəbərdarlıq etməklə başa çatmır.Yanğın hadisələri baş verdikdə xəbərdarlıq siqnalları işə düş-dükdən sonra,əgər sistemdə avtomatik yanğınsöndürmə qurğuları quraşdırılmışdırsa təhlükəsizlik idarəetmə mər-kəzindən yanğının söndürülməsi üçün yanğın zonasında yerləşdirilən qurğulara işədüşmə əmri verilir.Bu qurğular siqnalı qəbul edən kimi su və ya köpük çiləyici xətlərin işə salınmasına göstəriş verir və klapanları açır. Nəticədə

obyektin yanğın baş vermiş zonasında su və ya köpük çiləməklə yanğının qarşısının alınması və ya söndürülməsi prosesi başlanır.

Müasir dövrdə biznesin təhlükəsizliyinin təmin olunması məqsədi ilə binaların, ofislərin,eləcə də istehsal obyektlərinin mühafizə olunmasında yeni texnologiyalardan istifadə olunur. Bu texnologiyalar isə əsasən aşağıdakılardan ibarətdir:

1. Yanğından mühafizə sistemlərində müxtəlif xəbərdarlıq siqnalları verən qurğulardan istifadə olunur.Bunlardan biri otaqda temperaturun normadan yuxarı olduğu şəraitdə "verici"-lərin vasitəsi ilə işə düşən sistemlərdir. Digər isə tüstüyə qarşı həssas olan "verici"-lər vasitəsi ilə havanın tərkibinin dəyişdiyi vaxt işə düşən və xəbərdaredici siqnalizasiyanı işə salan sistemə əsaslanan təhlükəsizlik avadalığıdır.Yuxarıda qeyd olunduğu kimi bir çox hallarda yanğın hadisələri gecələr və bəzən də istirahət günləri baş verə bilir ki,bu zaman müəssisədə işçilər olmur, yanğından gec xəbər tutulur və yanğın daha çox ziyan yetirə bilir. Ona görə də bəzən siqnalizasiya sistemlərinə avtomatik qoşulan yanğınsöndürmə qurğularından da istifadə olunur.Belə qurğular yanğın baş verdikdə avtomatik olaraq işə qoşulur və yanğın zonasına su və ya köpük çiləməyə başlayır.

2. Kənar adamların binalara daxil olmalarına nəzarət məqsədi ilə binaların müxtəlif yerlərində kameralar quraşdırılır.Kameraların quraşdırılmasında digər məqsəd isə müəssisənin daxilində baş verən hadisələrə nəzarət edilməsidir.Bu kameralar vaistəsi ilə müssisənin daxilində əməkdaşların və ya kənar şəxslərin hərəkətinə nəzarət

olunması ilə bərabər yanğın hadisələri, oğurluq,müxtəlif təxribatlar baş verdikdə hadisə zamanı və yaxud hadisədən sonra izləmək mümkündür.

3. Əmtəələrin daşınması zamanı malların və eləcədə nəqliyyatın hərəkətinə nəzarət etmək,əmtəələrin oğurlanması zamanı onun tapılması məqsədi ilə əmtəə taralarında "informasiya ötürən" verici cihazların quraşdırılması.Son vaxtlar yuxarıda qeyd olunan vericilər vasitəsi ilə avtonəqliyyat vaistələri ilə daşınmalara nəzarət aparılması zamanı daha çox tətbiq olunur.

4. Müəssisələrə əməkdaşların daxil olması və kənar şəxslərin daxil olmalarının qarşısının alınması məqsədi ilə daxilolma zamanı kart sistemləri tətbiq olunur. Bu sistem müəssisənin bütün əməkdaşlarına verilir və yalnız firmaya kartı avtomatik buraxılış sisteminə daxil etdikdə və sistem bu kartı "tanıdığı" zaman keçid açılır.Belə olduqda kartı olmayan kənar şəxslər firmaya daxil ola bilmirlər.Kart sisteminin üstün cəhətləri aşağıdakılardır:

1.Kənar şəxslərin müəssisəyə daxil olmasının qarşısını alır;

2.Müəssisəyə daxil olarkən sənədlərin adi qaydada yoxlanmasına sərf olunan vaxtı dəfələrlə azaldır;

3.Buraxılış zamanı proses avtomatlaşdırıldığından heç bir səhvə yol verilmir;

4.Əməkdaşların işə gecikməsi və yaxud işdən tez çıxıb getməsi hallarının qarşısı alınır;

5.Banklarda və xüsusi nəzarət tələb edən firma və təşkilatlarda "əl izinə" və yaxud "şəkilə" reaksiya verən buraxılış yoxlama sistemlərinin tətbiq edilməsi. Elm və texnikanın inkişafı bəzən cinayətkar ünsürlərin və ya

rəqabət aparan tərəfin kəşfiyyatçılarının qarşısını ala bilmir. Müəssisələrə daxil olmaq üçün istifadə olunan kartların surətini çıxarmaq və ya buna uyğun gələn başqa kartlar hazırlamaq yolu ilə müəssisələrə daxil olma halları mövcuddur.Ona görə də son vaxtlar fəaliyyətinin tam məxfi saxlanması tələb olunan müəssisələrdə və yaxud banklarda yeni texnologiyalara əsaslanan elə təhlükəsizlik sistemləri və yaxud elə buraxılış sistemlərindən stifadə olunur ki,bu vasitələrdə istifadə olunan buraxılış vəsiqələrini və yaxud kartları saxtalaşdırmaq və ya surətini əldə etmək mümkün olmasın.Bəzən firma əməkdaşları kartı itirə bilər və həmin kartı tapan hər kəs bundan istifadə edərək firmaya daxil ola bilərlər.

Lakin yeni tətbiq olunan sistemlərdə nə buraxılış kartının itirilməsi,nə də onun sürətinin əldə edilməsi mümkün deyil.

Belə buraxılış sistemləri "əl izləri"-nin və "şəkilin" tanınmasına reaksiya verən təhlükəsizlik sistemləridir ki,bu sistemlərdə nə əl izini, nə də əməkdaşın şəklini saxtalaşdırmaq mümkündür.

Bəzən etibarlılığın daha da yüksəldilməsi məqsədi ilə hər iki sistemin tətbiq olunması tələb olunur ki,belə sistemlər kombinasiyalı sistemlər adlanır.Təbiidir ki,bu sistemlərin etibarlılığı daha yüksək olur.

## 13.2. Nəzarət kameralarından istifadə olunması qaydaları

Müasir dövrdə biznesin müxtəlif sahələrində nəzarət kameralarından geniş istifadə olunur və bu nəzarətin ən geniş yayılmış formasıdır.

Video nəzarət sistemləri demək olar ki,artıq əksəriyyət supermarketlərdə,böyük mağazalarda,firma və ticarət obyektlərində,müəssisələrdə,ofislərdə,ticarət mərkəzlərində və s. kimi obyektlərdə geniş tətbiq olunur.

Belə sistemlər çoxlu sayda nəzarət kameralarının çıxışlarının bir və ya bir neçə monitora birləşdirilməsi ilə obyektlərin həm daxilində, həm də obyektə daxil olmağa və ya bu hissədən obyektə təhlükə yaratmağa imkan verə bilən hissələrdə quraşdırılır.

Qeyd etmək lazımdır ki,belə nəzarət sistemləri 24 saat müddətində obyektin həm daxili hissələrində, həm də də xaricinə nəzarət etməyə imkan verir. Kamera vasitəsi ilə nəzarət edilən mühitdə baş verən hadisələrin daimi qeydiyyatı aparılır və bu sistemin yaddaşına yazılır. Kameraların qoyulduğu yaddaşın həcmindən asılı olaraq gündəlik, həftəlik, aylıq, bəzən daha çox müddətdə baş verən hadisələri yaddaşda saxlamaq mümkündür. Müəyyən bir hadisə baş verdikdə və bu hadisədən xeyli vaxt keçməsinə baxmayaraq, təhqiqat zamanı yaddaşa müraciət etməklə lazım olan vaxtda, maraqlı olan zonanın təsvirini ekrana çıxarıb hadisəni müşahidə etmək mümkündür.Bu sistemin etibarlılığını təmin etmək üçün sistemin daimi olaraq elektrik enerjisi ilə təchiz olunması vacibdir.Məlum olduğu kimi kamera sistemi elektrik enerjisi vaistəsi ilə iş-

lədiyi üçün əgər sistemdə elektrik enerjisi kəsilərsə onda ətraf mühitdə baş verən hadisələrin qeydiyyatı dayandırılacaqdır.

Bir məsələni də yadda saxlamaq lazımdır ki,əksər firma və müəssisələrdə elektrik enerjisində fasilələrin yaranması ehtimalına qarşı avtonom enerji mənbələri,yəni avtonom generatorlar quraşdırılır.Enerjinin kəsildiyi an bu sistem avtomatik olaraq işə düşür və enerji təchizatı bərpa olunur.

Mahiyyət etibarı ilə nəzarət kameraları eyni bir funksiyanı yerinə yetirsələr də, qiymət baxımından fərqlidirlər. Bu kameraların qiymətləri onların yaddaşı və keyfiyyəti ilə bağlıdır.Nəzarət kameralarının tətbiq edilməsi firmaya kənar müdaxilələrin qarşısının alınması,daxili rejimə nəzarət edilməsindən başqa, baş vermiş hadisələrin araşdırılması zamanı lazım olan informasiyaların da əldə edilməsinə imkan yaradır.

Bir məsələni də diqqətdən qaçırmamaq lazımdır ki,kameraların quraşdırılması zamanı bu işi daha yaxşı bilən mütəxəssislərə,yəni professionallara həvalə etmək məqsədə uyğun hesab edilir.Çünki həmin mütəxəssislər etibarlı avadanlıqlar seçməkdən əlavə, həm də mühafizə nəzarət kameralarının harada quraşdırılmasının məqsədəuyğun olduğunu daha yaxşı bilirlər.

Adətən kameraların quraşdırılması zamanı aşağıdakı iki prinsipdən istifadə olunur:

1.Kameralar firma və ofislərin çöl hissəsini müşahidə etmək üçün istifadə olunursa, bu adətən gözəçarpan yerdə quraşdırılır.Buna səbəb isə müəssisəyə daxil olmaq istəyən bədniyyətli adamlara nəzarətin olduğunu

göstərməklə onları bu işdən çəkindirməkdir.Hər kəs daxil olmaq istədiyi obyektdə kamera nəzarətinin olduğunu görərsə, qismən də olsa bu fikirdən daşınmalı olacaqdır;

2.Firma daxilində quraşdırılan kameralar isə adətən gizli yerlərdə quraşdırılır.Buna səbəb isə istər firma daxilində çalışan əməkdaşların, istərsə də firmaya kənardan daxil olmuş insanların heç bir şeydən şübhələnmədən sərbəst hərəkət etmələrinə imkan verilməsi və sonradan onların fəaliyyətinin aşkarlanıb həmin adamlara sübut edilməsinin rahat formada aparılmasıdır.

## 13.3. Elektron buraxılış sistemləri

İri müəssisələrdə, xüsusən iri istehsal biznesində hər gün yüzlərlə əməkdaş müəssisənin,zavodun, fabrikin ərazisinə daxil olmalıdır.Aydın məsələdir ki, səhər tezdən bu adamların arasına qoşulub müxtəlif məqsədlərlə müəssisəyə kənar şəxslərin də daxil olması mümkündür.

Buna baxmayaraq ki,müəssisələrin girişində kadrlar şöbəsinin,mühafizəçilərin nəzarəti daima daxil olanların üzərində olur.Nəzərə alsaq ki,bir neçə yüz və ya minlərlə işçiləri olan müəssisələrdə bütün personalı tanımaq praktiki olaraq mümkün deyil.Digər tərəfdən belə iri müəssisələrdə tez-tez işçilərin yeniləri ilə əvəz olunması təbii haldır. Bu da öz növbəsində işçilərin tanınmasına çətinlik yaradır və kənar şəxslərin firmaya daxil olmalarını asanlaşdırır. Başqa bir çətinlik də vardır ki, bütün heyətin sənədlərini alıb diqqətlə yoxlamanın aparılması müəssisəyə daxil olanların sayı çox olduğundan bu saatlarla vaxt apara bilər.

Ona görə də,  bu məsələnin həll edilməsi məqsədi ilə hər bir işçiyə fərdi qaydada kart hazırlanır, onun haqqında lazım olan informasiyalar kartda əks olunur. Belə ki, bu kartda işçinin nə vaxt işə qəbul olunduğu, hansı şöbə və ya bölmədə, hansı vəzifədə işlədiyi qeyd olunmaqla, bu məlumatlar kompyuterin yaddaşında qeydiyyatından keçir.

Əməkdaşlar bu kartı sistemə daxil etdikdə sistem daxil olan informasiyanı qəbul edir və yaddaşda olan informasiya ilə tutuşdurduqdan sonra məlumatlar uyğun gəldiyi üçün daxil olmaya icazə verir.

Belə təşkil olunmuş elektron "buraxılış" sistemləri müəssisəyə kənar daxil olmaların qarşısını almaqla bərabər, həm də daxili rejimə nəzarət fəaliyyətinin də bir hissəsini öz üzərinə götürmüş olur. Belə ki,bu sistemlər müəssisəyə daxil olma vaxtını və müəssisədən xaric olma vaxtlarını da qeyd edir.Sistem elə qurulmuşdur ki,əməkdaş istənilən halda müəssisəyə daxil olmaq üçün şəxsi kartını sistemin qeydiyyat qurğusuna yerləşdirməlidir.Bu zaman sistem kartı oxuyur, yaddaşda müvafiq informasiyanı axtarır, əgər yaddaşda bu informasiya varsa,əməkdaşı avtomatik olaraq keçidi açmaqla içəri buraxır və kartın qurğuya daxil edildiyi vaxtı qeyd edir.Müəssisədən çıxış prosesi də eyni qayda ilə aparılır.Göründüyü kimi əməkdaşın müəssisəyə giriş-çıxış vaxtı qeyd olunur.

Nəzərə alsaq ki,hər bir müəssisədə rejim üzrə işin başlanması və qurtarması vaxtları müəyyən edilir.

Elektron "buraxılış" sistemi işə daxil etmə və işdən tez getmə hallarını həmin rejimə uyğun qeyd edir və bu rejimi pozan əməkdaşların nə vaxt, nə qədər işə gecikdiyini,

yaxud işdən tez çıxıb getdiyini çap şəklində hazırlayır və bu məlumat rəhbərliyə tədbir görmək məqsədi ilə çatdırılır.

Daha ciddi mühafizə rejimi tələb olunan bəzi müəssisələrdə “əl izinə” yaxud “şəkilə” reaksiya verən,yəni bu əlamətlərə görə əməkdaşları “tanıyan” sistemlər də tətbiq olunur.Belə sistemlər əsasən banklarda, iri kompaniyaların ofislərində və s. bu kimi obyektlərdə tətbiq olunur.

## 13.4. Tərəfdaşlarla aparılan danışıqlar zamanı mühafizənin təşkili

Biznes fəaliyyətində elə bir proses yoxdur ki,orada tərəfdaş olmasın.Əgər tərəfdaş varsa, deməli mütləq danışıq prosesi var.Ona görə ki,biznesdə istənilən məsələ danışıqlar yolu ilə baş verir.Danışıqlar prosesi müasir dövrümüzdə ilk növbədə telefon vaistəsi ilə aparılır.Danışıqların mühafizəyə ehtiyacı var və ilk növbədə telefon danışıqları təbbidir ki,mühafizə olunmalıdır.

Sənaye casusluğunda ən geniş yayılmış vasitələrdən biri olan telefon danışıqlarının dinlənilməsinin qarşısının alınmasında əsas istiqamətlər aşağıdakılardır:

1. Telefon aparatı dəqiq yoxlanılmalı və orada hər hansı dinləmə qurğusunun olmadığına əmin olduqdan sonra plomblaşdırılmalıdır;
2. Telefon xətti və giriş qutusu dəqiq yoxlanılmalı və plomblamaqla bərabər, daim nəzarətdə saxlanılmalıdır;
3. Telefon rabitə xətlərinə və telefon aparatına təmir zamanı kənar şəxslər buraxılmamalı,əgər bu mümkün de-

yilsə, kənar mütəxəssis hökmən mühafizəçilərin nəzarəti altında işləməlidir.

Yuxarıda qeyd olunan tədbirlər yüz faiz telefonların dinlənilməsinin qarşısının alınmasına təminat verə bilməz.Telefon dinləmələrinin başqa üsulları da ola bilər.

Ona görə də, telefon danışığına qulaq asıldığından şübhələndikdə dərhal danışıq kəsilməlidir.

Tərəfdaşlarla danışıqların aparılması təhlükəsizlik baxımından gizli şərait tələb edir. Ona görə də danışıqların aparılması vaxtı və yeri tərəfdaşlar arasında son məqama qədər gizli saxlanılır. Xüsusi hallarda, bəzən çox vacib və gizli saxlanması çox əhəmiyyətli olan danışıqların aparılması üçün iki-üç yer müəyyənləşdirilir və son məqamda bunlardan ən etibarlısı seçilir.

Eşitmə-dinləmə qurğularına qarşı əks tədbir kimi konfidensial danışıqlar xüsusi mənzillərdə aparılır,hansı ki,bu mənzillər təhlükəsizlik xidmətinin gizli saxlandığı və hərtərəfli nəzarətində olan mənzillərdir.Buna baxmayaraq binada da danışıqlar aparıldığı zaman pəncərə və nəfəsliklər bağlanır və təhlükəsizlik xidməti qabaqcadan və danışıqlar aparılarkən qonşu mənzillərə gəliş-gedişə və ətrafda baş verənlərə diqqət yetirir,şübhəli nə isə hiss etdikdə də dərhal rəhbərliyə xəbər çatdırılır.

Mehmanxanalarda danışıqlar aparılarkən danışıqların aparılması nəzərdə tutulan otaqlara hər tərəfdən qonşu olan otaqlar bronlaşdırılmalı və buraya təhlükəsizlik xidmətinin əməkdaşları yerləşdirilməlidir.Eyni zamanda danışıqlar aparılan otağın alt və üst mərtəbəsindəki mənzillər də nəzarət altında saxlanmalıdır.

Danışıqlar aparılan otaqlar xüsusi avadanlıqlar və cihazlar vaistəsi ilə danışıqlar başlamazdan əvvəl mütəxəssislər tərəfindən yoxlanılmalıdır ki, bu otaqlarda "böcək"-lər quraşdırılıbsa,aşkarlansın.

Xüsusi hallarda "kodlaşdırılmış" danışıq sistemlərindən istifadə olunur ki, bu halda adlar,danışıq mövzusu olan terminlər,aşkarlanması kommersiya sirrini aça bilən digər informasiyalar başqa ad altında səsləndirilir.Bu zaman dialoq elə qurulur ki, guya söhbət tamam başqa mövzudan gedir. Lakin hər iki tərəf qabaqcadan hazırlıqlı olduğu üçün bir-birini başa düşürlər.

## 13.5. Beynəlxalq yükdaşımalar və yükdaşımalara nəzarət.

Beynəlxalq ticarətin inkişafının əsasını təmin edən amillərdən biri də beynəlxalq yükdaşımalardır. Beynəlxalq yükdaşımalar da öz növbəsində iki yerə bölünür:

1.Əmtəələrin daşınması;
2.Sərnişin daşınmaları.

Beynəlxalq yük daşımaları müxtəlif ölkələrin milli daşıyıcıları tərəfindən yerinə yetrilimməklə aşağıdakılara bölünür:

1.Su nəqliyyatı vasitəsilə;
2.Dəmiryol nəqliyyatı vasitəsilə;
3.Avtomobil nəqliyyatı vasitəsilə;
4.Hava nəqliyyatı vasitəsilə;
5.Boru kəməri vasitəsi ilə daşımalar.

Xüsusi olaraq beynəlxalq yük və sərnişin daşınması ilə məşğul olan beynəlxalq bir təşkilat, yaxud müəssisə yoxdur. Bu iş üçün ayrı-ayrı ölkələrin nəqliyyat növləri,

yükdaşıma xəttləri,stansiyaları,dayanacaqları,terminalları,yük və nəqliyyat terminalları və s. istifadə edilir.

Yükdaşımaların təşkilində onun inkişafına təsir edən amillərin keyfiyyəti əsas qəbul olunur ki, bunlar da aşağıdakılardır:

1.Nəqliyyatın hərəkət vasitələri;

2.Yol əlaqələri;

3.Texniki qurğu və vasitələri.

Ölkənin nəqliyyat sisteminin vəziyyətinin müqayisəsi onun hər 1000 kv.km sahəsinə düşən avtomobil və dəmiryolu müqayisə vahidi hesab olunur.

Beynəlxalq yükdaşımalarda əsas proses yükün göndərilmə əməliyyatları hesab olunur ki, bu da yükün qəbulu, qablaşdırılması,markalanması, bir nəqliyyat növündən başqasına keçirilməsi,vergilərin ödənilməsi və sahibinə çatdırılması.

Hər bir müəssisə üçün yükdaşıma prosesində yükün göndərilən ünvana,yəni sahibinə vaxtında,xarab olmadan və göndərilən miqdarda çatdırılmasının təmin olunmasıdır.

Təəssüf ki, heç də həmişə yola salınmış əmtəələri lazım olduğu qaydada sahibinə çatdırmaq mümkün olmur və bəzən bu əmtəələr yolda yoxa çıxır,yaxud xarab olur və ya bir hissəsi sahibinə çatır.

Bütün bu hallar müxtəlif səbəblərdən baş verir.Bəzən təbii hadisələr, daşqınlar, yağış,subasma,ildırım vurması, yanğın, yolda qəzaların baş verrməsi və s.bəzən də insanların səhlənkarlığı və ya oğurluq hadisələri səbəbindən yükdaşımalarda “qəza” halı baş verir.

Təbii hadisələrin qarşısının alınması bəzən mümkün olsa da,bəzən bu hadisələrin qarşısının alınması mümkün

olmur.İnsanların törətdikləri hadisələrin isə qarşısının alınması mümkündür.

Daşıma zamanı baş verə biləcək hadisələrdən qorunmaq məqsədi ilə yükdaşımalarda müxtəlif tədbirlər həyata keçirilir. Bunlardan biri mal göndərilərkən malı müşaiyət etmək üçün nəqliyyat vasitəsində "ekspeditor", yəni müşaiyətçinin olmasıdır.

Müşaiyətçinin vəzifəsi göndərilən əmtəənin təhvil alınıb son məntəqəyə,sahibinə çatdırılana kimi bu əmtəəyə nəzarət etmək,yolda əmtəənin oğurlanmasının,xarab olmasının,itməsinin və s. kimi halların qarşısının alınmasıdır.

Bəzən yüklər elə şəraitdə daşınmalıdır ki,burada müşayətçinin nəzarəti mümkün olmur.(Məsələn:yüklər gəmi vasitəsi ilə konteynerlərdə daşındıqda,yaxud nəqliyyat vaistələrinin yüksək temperatur və ya çox soyuq olan ərazilərdən keçdikdə əmtəənin yanında müşayətçinin getməsi mümkün olmur.) Belə hallarda əmtəələrin hərəkətinə nəzarət etmək məqsədi ilə qablaşdırma zamanı əmtəələrin taralarında "verici" qurğular yerləşdirilir ki,bu qurğular dünyanın istənilən nöqtəsindən harada olduğu barədə məlumat verə bilir.Qatarın,avtomobilin və ya gəminin hansı nöqtədə olmasından asılı olmayaraq, əmtəənin sahibi nəqliyyatın dayanması,hərəkət etməsi, hansı istiqamətə yönəldiyi barədə məlumat əldə edə bilir.

Bundan başqa əgər mal daşıma zamanı oğurlanarsa, bu malın harada olması barədə də təbiidir ki, "vericilər" vasitəsi ilə xəbər tutmaq mümkündür.

# FƏSİL 14.İSTEHSAL PROSESİNDƏ İNSAN SAĞLAMLIĞINA TƏSİR EDƏN TƏHLÜKƏLƏR VƏ ONLARA QARŞI QABAQLAYICI TƏDBİRLƏR.

## 14.1. İstehsal prosesində zədələnmə təhlükələri və onların əsas səbəbləri.

İstehsal proseslərində yaranma səbəblərinə görə zədələnmələr əsasən üç qrupa ayrilir:

1. İstehsalat zədələnmələri
2. Peşə xəstəlikləri
3. Peşə zəhərlənmələri

İstehsalat zədələnmələrinə bəzən “travma” da deyilir ki, bu da yunan sözü olub, zədələnmə, əzilmə, xəsarət alma, qirilma mənasını bildirir. Zədələnmə gözlənilmədən xarici təsir nəticəsində insan orqanizminin öz funksiyasını və yaxud funksiyanın bir hissəsinin itirilməsinə deyilir.

İstehsal prosesində təhlükəsizlik qaydalarının bilərəkdən və ya bilmədən işçilər, yaxud rəhbərlik tərəfindən pozulması nəticəsində alınmış zərərlərə istehsal travması və ya bədbəxt hadisə deyilir.

Peşə xəstəlikləri istehsal fəaliyyətində sağlamlığa mənfi təsir göstərən amillərin orqanizmə yetirdiyi zədələrin nəticəsində sağlamlığın tədricən itirilməsidir. Bu proses birdən baş vermir, illərlə orqanizmə mənfi təsir göstərən amillərin nəticəsi kimi uzun zaman keçdikdən sonra meydana çıxır.

Peşə zəhərlənməsi peşə xəstəliyinin başqa bir formasıdır ki, bu halda zədələnmə xronik və şiddətli olur. İstehsal prosesində zəhərli maddələrdən qopan hissəciklər

müxtəlif yollarla insan orqanizminə daxil olmaqla zəhərlənməyə səbəb olur.

İstehsalatda peşə xəstəlikləri və zəhərlənmələrin əsas səbəbləri aşağıdakılardır:

1. Texniki səbəblər. Texniki səbəblərə texnoloji proseslərin yetərincə mükəmməl olmaması, istehsal avadanlıqlarının və ya alətlərin konstruksiyasındakı nöqsanlar, qoruyucu qurğuların qeyri dəqiqliyi, iş prosesində təsadüfən yaranan gözlənilməz hadisələr aiddir.

2. Təşkilati səbəblər. İstehsal prosesinin düzgün təşkil edilməməsi, təhlükəsizlik qaydalarının pozulması, təhlükəsizlik qaydalarının işçilərə lazımı səviyyədə öyrədilməməsi, avadanlıqların təlimatlara uyğun olmayan qaydada istismarı və s.

3. Sanitar gigenik səbəblər. İş zonasında sağlamlığa təsir göstərən maddələrin mövcudluğu, işiqlandırma normasının pozulması, səs-küy və titrəyişlərin artıqlığı, ventilyasiyanın pozulması və s.

4. Psixofizioloji səbəblər. Buna yorğunluq, diqqətsizlik, stres halları, orqanizmdə yaranan psixoloji dəyişikliklər aiddir.

5. Yanğın hadisələri. Müəssisədə yanğın təhlükəsizliyi qaydalarının pozulması, tezalışan maddələrin saxlanması qaydalarının pozulması, elektrik cihazlarının standartlara uyğun olmaması, elektrik qısaqapanmaları, və elektrik xəttlərinin normadan çox yüklənməsi yanğın hadisələrinin baş verməsinə səbəb olur.

İstehsalatda baş verən bu və ya digər zədələnmələrin qarşısının alınması müxtəlif üsullarla aparılır:

1. İşçilərin kifayət qədər təlimatlandırılması.

2. Təhlükəsizlik üsullarının öyrədilməsi.

3. Baş verə biləcək təhlükələr barədə zonalar üzrə xəbərdarlıq nişanları və işarələrin qoyulması.

4. Fırlanma hərəkəti ilə işləyən avadanlıqlarda örtüklərin qoyulması.

5. Fərdi mühafizə vasitələrindən istifadə.

6. Avtomatik açma və xəbərdaredici qurğulardan istifadə.

7. Elektrik avadanlıqlarında sıfırlama və torpaqlama sisteminin qoyulması və s.

## 14.2 Elektrik cərəyanından zədələnmə təhlükələrindən mühafizə üsulları

İstehsal proseslərində ən çox zədələnmə halları elektrik cərəyanı vasitəsilə zədələnmələrdir. Bundan başqa müəssisələrdə baş verən yanğın hadisələrinin də çox hissəsi elektrik qısa qapanmalarının payına düşür.

Elektrik zədələnmələrindən mühafizənin texniki üsulları əsasən aşağıdakılardır:

1.Etibarlı izolyasiya

2.Çəpərləmədən istifadə

3. Bloklama qurğularından istifadə

4. Avtomatik söndurucü sistemlərinin tətbiqi

5. Mühafizə “yerbirləşməsi”-ndən istifadə

İzolyasiya etmənin elektrik şəbəkələrində izolyasiyanın rolu böyükdür. İzolyasiya dedikdə bu elektrik naqillərinin üzərinin elektrik ötürməyən müxtəlif materiallarla örtülməsi kimi başa düşülməlidir. İzolyasiyanın pozulması qısa qapanmalara, elektrik cərəyanının avadanlığın gövdəsinə keçməsinə və s. vəziyyətlərə gətirib çıxardır ki, nətic-

ədə elektrik zədələnmələri və yaxud yanğın hadisələri baş verir.

İkiqat izolyasiya əlavə və işçi izolyasiyadan ibarət olur. Bu izolyasiyalamada işçi izolyator xarab olduqda əlavə izolyator zədələnmələrdən qoruyur.

Çəpərləmə dedikdə bu elektriklə işləyən işcilərin izolyasiyasız cərəyan daşıyıcılarına təsadüfən toxunmalarının qarşısının alınması üsuludur. Bu halda açıq elektrik sistemlərinin ətrafı müxtəlif örtük, tor, lövhələr vasitəsilə qapanır ki, bu sahəyə xüsusi açar və ya alət olmadan kənar adamlarin daxil olması və maşın, mexanizmlərin işə salınması mümkün olmasın.

Avtomatik ayırma elə bir avtomatlaşdırılmış sistemdir ki, qəza vəziyyətində elektrik qurğularını (0.1-0.2 san.) müddətində yəni ani olaraq ayrılmaq imkanını təmin edir.

Mühafizə "yerləbirləşdirmə" ləri gərginliyin qəza hallarında mexaniki avadanlığa keçməsi zamanı cərəyanı torpağa ötürərək insanın mühafizə olunmasına yardımçı olur. Yerləbirləşdirmədə əsas məqsəd gərginliyi təhlükəsiz həddə qədər asağı salmaqdan ibarətdir.

Elektrik qurğuları aşağıdakı hallarda yerlə birləşdirmə ilə təmin olunmalıdırlar:

a) Gərginliyi 36V-dan yuxarı olan elekrtik avadanlıqları.

b) Gərginliyi 100V-dan yuxarı olan elekrtik avadanlıqları.

c) Gərginliyi 500V – dan yuxarı olan elekrtik avadanlıqları.

Mühafizə sıfırlanması gərginliyi 1000V-a qədər olan

elektrik xəttlərində yerləbirləşdirmə əvəzinə mühafizə sıfırlanması tətbiq olunur. Bu zaman gərginlik altında olmayan metal hissələr sıfır xəttinə birləşdirlir. Qeyd etmək lazımdır ki, bu zaman sıfır xətti hər 100 metrdən bir yerlə birləşdirilməlidir.

## 14.3. İstehsalat tozları və onların təhlükəli təsirlərindən mühafizə üsulları.

İstehsal zamanı bir çox texnoloji proseslərdə işlər toz ayrılması ilə müşayət olunur ki, belə tozlar işçilərin tənəffüs orqanlarına daxil olaraq zərərli təhlükələr yaradırlar. Eyni zamanda istehsal prosesində yaranan tozlar istehsal avadanlıqlarının hissələrinin arasına daxil olaraq sürtünən detalların sıradan çıxmasına da səbəb ola bilirlər.

İstehsal prosesində meydana gələn tozlar üç yerə bölünür:

1. Üzvi tozlar
2. Qeyri-üzvi tozlar
3. Qarışıq tozlar

Üzvi tozlara bitki və heyvan mənşəəli, ağac mənşəəli, pambiq, parça, tiftik və s kimi tozlar daxildir.

Qeyri-üzvi tozlar isə metal qırıntıları, sement tozu, saxsı qırıntıları və s kimi tozlar aiddir.

Qarışıq tozlar isə yuxarıda qeyd olunan hər iki tozların qarışığından ibarətdir.

Tozların nəfəs yolu vasitəs ilə ciyərlərə, açıq halda dəriyə, gözlərə düşməsi bu orqanlara mənfi təsir göstərərək onların zəifləməsinə və tədricən sıradan çıxmasına sə-

bəb olur. Tozlar insan orqanizmində iltihabların və digər ağır xəstəliklərin yaranmasına səbəb olur.

Mineral tozlar (əhəng, sement) birbaşa dəriyə təsir edərək tər vəzilərinin bağlanmasına səbəb olaraq mikroblara qarşı müqaviməti azaldır və insan orqanizmində kəskin xəstəliklərin yaranmasına səbəb olur.

Gözün buynuz təbəqəsinə daxil olan tozlar onun zədələnməsinə və tutqunlaşmasına səbəb olur. Toz hissəcikləri müxtəlif ölçülərdə olur:

1. Görünən tozlar (>= 10mK)
2. Mikroskopik tozlar (10,..,0.25 mK)
3. Ultramikroskopik (=< 0.25mK )

Görünən tozlar əsasən burun nayihəsində tutulur. Digər tozlar isə ağ ciyərə daxil olaraq buradan nəfəs bronxlarına çökərək təbəqə yaradır. Bronxlarda su ilə təmasda olaraq öz fiziki və kimyəvi təsirləri ilə nəfəs yollarında iltihab yaradırlar.

İstehsal prosesində sanitar-gigyena qaydalarına riayət edilmədikdə tozların fasiləsiz təsiri nəticəsində işçilərdə pnevmokoniz ( pnevma-nəfəs, korios-toz deməkdir, yunan sözüdür) xəstəlikəri əmələ gəlir.

Bu xəstəlikərin içərisində ən təhlükəli hesab olunanları silisium (silikoz) və asbest (asbes toz) tozlarından yaranan xəstəlikərdir.

Silisium tozlarından yaranan xəstəlikərin kəskinliyi onunla izah olunur ki, bu toz insan orqanizmi toxumalarındakı maye ilə reaksiyaya girərək, silisium turşusu (H2SiO3) əmələ gətirir ki, bu da öz növbəsində insan toxumalarına dağıdıcı təsir göstərir.

Əhəng tozu, kalsium karbitlə reaksiaya girərək yanıq və yaralar əmələ gətirir.

Asbes tozu isə ciyərlərin fibrozu xəstəliyinin yaranmasına səbəb olur.

Tozdan yaranan təhlükələrin qarşısının alınmasının müxtəlif üsulları vardır:

1.Əgər toz yaradan proses qapalı mühitdə gedirsə, onda tozun bu mühitdən çıxıb kənara yayılmasının qarşısı toz sıza bilən kanalların bağlanması və qapalı mühit daha da kip üsulla bağlanmalıdır.

2.Əgər texnoloji prosesdə nəmlikdən keyfiyyətdə dəyişiklik baş vermirsə onda mühitdə tez- tez su çilənməsi ilə tozun tutulması mümkündür.

3.İstehsalat zonasında toz kiçik bir sahədə əmələ gəlirsə onda pnevmatik sovrulma yolu ilə tozun otaqdan çıxarılması mümkündür.

4.Bunlardan əlavə bütün istehsal müəssisələrində vintelyasiya sistemlərinin yaradılması vacib şərtlərdəndir.

## 14.4 Yanğın təhlükələrinin qarşısının alınması tədbirləri

Müasir dövrümüzdə insanların həyatına, əmlakına və ekoloji mühitə ən çox təhlükə yaradan amillərdən biri də yanğındır. Yanğın tənzimlənməsi və proqnozlaşdırılması çətin olan prosesdir.

Yanğınların baş verməsəbəbləri əsasən aşağıdakılardır:

1.Yanğının baş verməsinin qarşısının alınması məqsədi ilə tətbiq edilən rejimin pozulması.

2.Adi yanğın təhlükəsizliyi qadağalarına əməl olunmaması

3.Odla ehtiyatsız davranış.

4.İnşaat prosesində buraxılan nöqsanlar.

5.Texnoloji proseslərdə yanğın təhlükəsizliyi qaydalarının pozulması.

Bəzən təbiıt hadisələri də yanğın baş verməsinə səbəb olur.İldırım çaxması nəticəsində baş verən meşə yanğınları buna misal ola bilər.

Qış fəslində evlərdə və müəssisələrdə qeyri-standart elektrik və qaz cihazlarından istifadə etməklə binaların qızdırılması da yanğın baş verməsinə səbəb olur. Yanğınların baş verməsinə qarşı, adamların sərvətlərinin yanğın ərazisindən uzaqlaşdırılması, həmçinin yanğının qarşısının səmərəli şəkildə alınması prosesinə yanğın profilaktikası deyilir.

Yanğın profilaktikasi yanğının baş verməsi, yanğın proseslərində partlayış proseslərinin qarşısının alınması üçün müəyyən normativ bazaya əsaslanan və sistemli şəkildə tətbiq olunan texniki tədbirlər prosesidir.

Binaların layihələndirilməsi zamanı yanğın baş verdiyi halda adamların binadan tez bir zamanda xaricə axması üçün çıxış yollarının istiqamətlərinin düzgün təyin edilməsi vacib şərtlərdən biridir. Eyni zamanda müəssisənin işçilərinin yanğın hadisəsi baş verdiyi halda necə hərəkət etmələrinin lazım olduğu barədə təlimatlandırılması da vacib məsələdir.

Təhlükə zamanı insanların zərər çəkmədən qısa zaman müddətində təhlükəsiz hərəkətini təmin edən və

köçürmə çıxışlarına aparan koridorlar, pilləkənlər, foye və keçidlər köçürmə yolları adlanır.

Binalarda istifadə olunan liftlər, eskalatorlar köçürmə yolu kimi istifadə edilə bilməz. Ona görə ki, bu qeyd olunan qurğular yanğın zamanı sıradan çıxa bilər və adamları təhlükə ilə üz-üzə qoya bilər.

Köçürmə yollarındakı qapıların, koridorların, keçidlərin hündürlüyü iki metrdən hündür olmalıdır, eyni zamanda onların eni inşaat standartlarına uyğun gəlməlidir.

Yanğın hadisəsi baş verdikdə insanlarən köçürülməsi zamanı riayət olunması tələb olunan şərtlər aşağıdakılardır:

1.İstənilən iş yerindən çıxışa açılan məsafə ən qısa olmalıdır.

2. Hərəkət zamanı yolları bir-birilə kəsişməməlidir.

3. Köçürmə yollarında hər hansı bir maneə olmamalıdır.

4. Köçürmə yollarının və yanğından mühafizə avadanlıqlarının ətrafı boş saxlanılmalıdır.

5. Köçürmə yollarında bütün qapıların açılması istiqaməti hərəkət istiqamətində olmalidır.

6. Köçürmə yollarında qəza zamanı müstəqil işıq sistemi olmalıdır.

7. Adamların bütün iş yerlərindən köçürülməsi planları qabaqcadan tərtib olunmalıdır.

## 14.5. Müxtəlif şüalanmalardan mühafizənin təşkili

Şüalanma insan orqanizminə mənfi təsir göstərən və sağlamlığa ciddi ziyan vuran təsir vasitəsidir. Ümumilikdə

şüalanmaların müxtəlif formaları vardır və bu şüalanmalardan aşağıdakı qaydada mühafizə olunmaq mümkündür:

*1)İonlaşdirici şüaıanmalardan mühafizə vasitələri*.

Radioaktiv maddələrlə işlədikdə həm xarici, həm də daxili şüalanmalardan mühafizə olunma vacibdir. Xarici şüalanmadan yaxa qurtarmaq üçün şüa mənbəyindən olan məsafə mümkün qədər uzaqlaşdırılmalı və ekranlamadan istifadə olunmalıdır. Məlum olduğu kimi **α** şüaları cox nazik şüşə, falqa və s. ilə ekranlaşdırılırsa **β**şüaları daxili aluminiumla örtülmüş qurğuşun ekran, **γ**şüaları üçün daha qalın bir ekran tələb olunur.

Təcrübələr göstərir ki, pambıq parça, polietilen, polixlorvinil və bəzi rezin vasitələrdən hazirlanmış iş geyimləri radioaktiv maddələrdən və tozlardan asanlıqla təmizləndiyi üçün tətbiq olunması məsləhətdir.

Əllərin mühafizə olunmasında qurğuşunlu rezin əlcəylərdən istifadə edilir.

Nəfəs yolları respirator, yaxud əleyhqaz vasitəsi ilə, gözlər pleksiqlaz qurğuşunlu şüşə, qurğuşunlu şüşə ilə hazırlanmış gözlüklə mühafizə olunur.

Radioaktiv maddələrlə işlədikdən sonra xüsusi geyimlərlə kənara çıxmaq qadağandır.

Kənara çıxmaq üçün əllər yuyulmalı, yaxud duş qəbul edilməlidir.

Bu kimi sahələrdə çalışan işçilər vaxtaşırı həkim müayinəsindən keçməlidirlər.

*2)Elekromaqnit şüalanmadan mühafizə.*

Elekromaqnit şüalanmaları gərginliyin və enerji axınının yüksək olduğu hallarda işçi personalının mühafizə olunması üsullari aşağıdakılardan ibarətdir:

1.İstifadə olunan qurğuların yükünün azaldılması yolu ilə enerji axınının sıxlığının azaldılması;

2. İş yerinin ekranlaşdırılması;

3.İş yerinin şüalandırılma mənbəyindən uzaqlaşdırılması;

4.Şüalandırma avadanlıqlarının iş yerində əlverişli şəkildə yerləşdirilməsi;

5. Əlverişli iş yerlərinin təyin edilməsi;

6. Xəbərdaredici siqnalizasiyanın tətbiqi;

7. Fərdi mühafizə vasitələrindən istifadə.

***3) Lazer şüalanmasında mühafizə tədbirləri*****.**

Lazer şüalanmaları insanların sinir sisteminə və ürək damar sistemindəki pozulmalara səbəb olur. Bu şüalanmanın təsiri altında arterial qan təzyiqi artır, tez –tez tərləmə, əsəbilik, göz ağrıları, narahatlıq baş verir. Bu hallar iş rejimi qaydaya salındıqdan sonra ötüb keçir.

Lazer təhlükəli zonalardan təhlükələrin aradan qaldırılması üçün təhlükəli zonalar çəpərlənməli və şüalanmalar ekranlaşdırılmalıdır. Ekranlar və çəpərlər əksetmə əmsalı kiçik olan odadavamlı maddələrdən hazırlanmalıdır.

Lazer təhlükəsizliyi ümumi mühafizə xarakteri daşımadıqda fərdi mühafizə vasitələrindən istifadə olunur. Mühafizə vasitəsi kimi xüsusi eynək və maskadan istifadə olunur.

**4) Ultrabəbövşəyi süalanmadan (UBŞ) mühafizə**

Ultrabəbövşəyi süalanmadan (UBŞ) mühafizə tədbirləri və günə qarşı kimyəvi (kimyəvi maddələr və tərkibində UBŞ nı qəbul edən inqridientli qoruyucu kremlər) və fiziki ( şüaları udan, əks edən və yayan müxtəlif maneələr) vasitələrindən ibarətdir.

İstehsal proseslərində çox vaxt UBŞ nı keçirməyən parçalardan və gözlərin mühafizə olunması üçün xüsusi eynəklərdən də istifadə olunur.

# FƏSiL 15. ÖLKƏNİN İQTİSADİ TƏHLÜKƏSİZLİYİ VƏ BİZNESİN TƏHLÜKƏSİZLİYİNDƏ DÖVLƏTİN ROLU

## 15.1. Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi strategiyası.

Ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunması strategiyası,ölkənin ümumi iqtisadi strategiyası ilə birgə işlənməsi tələb olunan bir strategiyadır.Bu strategiyanın məqsədi iqtisadi baxımdan ölkənin təhlükəsizliyinin təmin olunmasıdır.Təbiidir ki,ölkənin iqtisadi inkişaf strategiyası özü də elə bir şəkildə qurulmalıdır ki,ölkə iqtisadiyyatında heç bir təhlükə yaranmasın.Həmçinin iqtisadi təhlükəsizlik strategiyası mahiyyət etibarı ilə ölkə iqtisadiyyatında istər daxildən, istərsərsə də xaricdən qəflətən mənfi təsir göstərə biləcək təhlükələrin aradan qaldırılmasına, qarşısının alınmasına və proqnozlaşdırılmasına yönəldilməlidir.Bu baxımdan ölkənin iqtisadi təhlükəsizlik strategiyası iki yerə bölünür:

1. İqtisadi təhlükəsizliyin təmin olunmasında dövlətin daxili strategiyası;
2. İqtisadi təhlükəsizliyin təmin edilməsində dövlətin xarici strategiyası.

Ölkənin daxili təhlükəsizliyinin təmin olunması məqsədi ilə ölkədaxili iqtisadi amillərin statistik təhlili aparılır və bu təhlildən sonra strateji məqsədlər müəyyənləşdirilir.Bu məqsədlər isə əsasən aşağıdakılardan ibarət olur:

1.Ölkənin bütün vətəndaşlarının həyat səviyyəsinin yüksəldilməsi;

2.Mümkün qədər idxal asılılığından azad olmaq və ixracın həcmini artırılması;

3.Ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi;

4.Geniş təkrar istehsalın artırılması;

5.İqtisadi strukturun effektiv fəaliyyətinin təmin edilməsi;

6.Ölkənin enerji təhlükəsizliyinin təmin edilməsi;

7.Ekoloji və digər təhlükələrin qarşısının alınması;

8.Ölkə itqisadiyyatında hüquqi bazanın təmin olunması.

İqtisadi təhlükəsizliyin təmin olunmasında iqtisadi struktur nisbətinin ölkənin təbii resursları,əhalinin demoq-rafiyası,təbii iqlim şəraiti və s.uyğun olaraq sənayenin, kənd təsərrüfatının, ticarətin, xidmət sahələrinin və başqa amillərin qarşılıqlı inkişafının nəzərə alınmasının vacibli-yinin diqqət mərkəzində olması əsas götürülməlidir.

İqtisadi təhlükəsizliyin təmin olunmasında daxili istehsalı daha çox inkişaf etdirmək üçün aşağıdakıların yerinə yetirilməsi vacibdir:

1.İnvestisiya qoyuluşuna şərait yaradılması;

2.İnnovasiyaların tətbiq edilməsi yolu ilə məhsulun rəqabət qabiliyyətinin artırılması;

3.Ölkədə yeni məhsul istehsalına başlamaq üçün uzunmüddətli kreditlərin tətbiqi;

4.Düzgün proteksionizm siyasətinin tətbiqi.

Ölkəmizdə iqtisadi təhlükəsizliyi təmin etmək üçün struktur inkişafı aşağıdakı qruplarla həyata keçirmək olar:

- hasilat sahələri qrupu (neft, qaz, neft emalı);

- yüngül və yeyinti sahələri qurupu;

- maşınqayırma, metallurgiya, kimya və neft-kimya sahələri qurupu.

Daxili strategiyanın vacib istiqamətlərindən biri də əhalinin həyat səviyyəsinin yüksəldilməsidir.Əhalinin həyat səviyyəsini xarakterizə edən əsas amillər isə aşağıdakılardır:

1.Əhalinin gəlirləri;

2.Minimum və orta əmək haqqı;

3.Yaşayış minimumu ilə gəlirlərin müqayisəsi;

4.Əhalinin təbəqələşməsi.

Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində xarici strategiya aşağıdakılarla müəyyən olunur:

1.Xarici iqtisadi ticarətdə inteqrasiya siyasəti ilə bərabər səmərəliliyin artırılması;

2.İxrac imkanlarının artırılması;

3.Xarici iqtisadi fəaliyyətdə sahibkarlara dövlət qayğısının artırılması;

4.Milli valyutanın beynəlxalq valyutalara nisbətinin sabit saxlanması.

Xarici strategiyada ilk növbədə ölkənin maraqları üstün tutulmalıdır.Ölkənin maraqlarının üstün tutulması isə əsasən aşağıdakı məsələlərdə düzgün istiqamətin seçilməsindən asılıdır:

1.Ölkənin xarici borclarının səviyyəsi;

2.İdxalın məbləği və bu məbləğin ÜDM-ə nisbəti (faizlə);

3.Ərzaq məhsullarının idxalı (ümumi istehlak məhsullarına nisbətdə faizlə);

4.Maliyyə axınının səviyyəsi;

5.Valyuta vəsaitlərinin xaricə axın limitinin gözlənilməsi;

6.Yerli məhsulun xarici ölkələrə ixracat həcmi;

7.İqtisadiyyatın dövlət tənzimlənməsi sisteminin düzgün qurulması.

Bütün bu yuxarıda qeyd olunanların uğurla həyata keçirilməsi ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasında xarici strategiyanın əsas məsələləridir.

## 15.2. Ölkənin iqtisadi təhlükəsizliyinin qiymətləndirilməsi metodları

Ölkənin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə hər şeydən əvvəl iqtisadi təhlükələri yarada biləcək səbəblər və ona təsir edən əsas amillər müəyyənləşdirilir və bundan sonra onların monitorinqi aparılır.

Dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə dövlət monitorinqi aparılır ki,bu da öz növbəsində təhlükəsizliyi xarakterizə edən daimi müşahidə sistemidir.

Aparılan monitorinq əsasında dövlət baş verə biləcək iqtisadi təhlükələri proqnozlaşdırır və bu proqnozlara uyğun olaraq idarəetmə parametrlərinə müxtəlif vaistələrlə təsir göstərmək yolu ilə təhlükələrin aradan qaldırılmasına nail olur.

Ölkənin iqtisadi təhlükəsizliyinin qiymətləndirilməsi üçün tətbiq olunan bir sıra metodlar vardır:

1.Makroiqtisadi göstəricilərin müşahidə olunması və dünya təcrübəsində qəbul olunmuş bu göstəricilərin orta qiyməti ilə müqayisə olunması;

2.Makroiqtisadi göstəricilər üzrə iqtisadi artım tempinin qiymətləndirilməsi və bu göstəricilərin dəyişmə dinamikasının öyrənilməsi;

3.Ekspert qiymətləndirmə metodu;

4.İqtisadi artım tempinin işlənməsi və təhlili metodu;

5.Optimallaşdırma metodu;

6.Nəzəri oyun metodu;

7.Yararlılıq metodu;

8.Çoxölçülü statistik təhlil metodu və s.

Nümunə üçün bu metodlardan birinin mühüm xüsusiyyətlərini təqdim edək.

Makrosəviyyədə iqtisadi təhlükəsizlik xarakteristikasının əsas problemi kimi onun əsas meyarı və göstəricilərinin müəyyən olunması çıxış edir.Bu meyarların əsasını risk təşkil edir.Təbiidir ki,təhlükəsizlik anlayışı risklə qarşılıqlı əlaqəli bir anlayışdır.Risk təhlükənin nəticəsi kimi meydana çıxır.Beləliklə əgər təhlükə yoxdursa, deməli risk də yoxdur.Risk kateqoriyasından istifadə olunması təhlükəsizliyin idarə edilməsinin effektivliyini artırmış olur.

İqtisadi təhlükəsizlik strategiyasının hazırlanmasında risk konsepsiyası aşağıdakı elementləri birləşdirir:

1.Riskin qiymətləndirilməsi;

2.Riskin idarə edilməsi.

Riskin qiymətləndirilməsi dedikdə baş verə biləcək təhlükənin baş vermə ehtimalının ölçüsü,yəni təhlükənin baş verməsinin nə dərəcədə reallığının müəyyənləşdirilməsidir.

Riskin idarə edilməsi isə baş verə biləcək təhlükənin yumşaldılması,azaldılması və təhlükənin mümkün qədər zəiflədilməsi başa düşülür.

Risk konsepsiyasının əksi isə etibarlılıq konsepsiyasıdır.

### 15.3. Ölkənin iqtisadi təhlükəsizliyini təmin edən əsas göstəricilər.

İstənilən bir hadisəni və ya prosesi xarakterizə edən bir neçə əsas amil mövcuddur. Ölkənin iqtisadi təhlükəsizliyini xarakterizə edən əsas amillər isə aşağıdakılardır:

1.Əhalinin həyat səviyyəsi;
2.İllik infliyasiyanın səviyyəsi;
3.İqtisadi artım səviyyəsi;
4.Dövlət borcu;
5.Elm və təhsil xərcləri.

Əhalinin həyat səviyyəsi iqtisadi təhlükəsizliyin göstəricilərindən biri və ən əsasıdır.Demoqrafik vəziyyət əhalinin həyat səviyyəsini xarakterizə edən əsas və dəqiq göstəricilərdəndir.Ölkənin iqtisadi vəziyyəti onun hər bir bölgə əhalisinin həyat səviyyəsi ilə müəyyən olunur.

Beynəlxalq konvensiyaların müəyyənləşdirdiyi həyat səviyyəsi normalarına görə ölkədə minimum əmək haqqı istehlak səbətinin 70-75%-ini təşkil edirsə, bu normal qəbul edilir.

İnflyasiya səviyyəsi müxtəlif ölkələr üçün müxtəlif normativlər müəyyənləşdirilir.

İnkişaf etmiş ölkələr üçün illik inflyasiya səviyyəsi 5-6% normal qəbul edilir. İnflyasiya həddi 6-10% olan

ölkələrdə inflyasiyanın qarşısının alınması üçün xüsusi dövlət proqramları işlənilir və həyata keçirilir.

İnflyasiya səviyyəsi əgər hər hansıbir ölkədə illik 50 % tempini ötərsə bu zaman təcili iqtisadi inkişaf tədbirlərinə başlanılmalıdır.

İnflyasiya səviyyəsinin illik tempi 100% və ya daha çox olarsa bu hiperinflyasiya adlanır və milli valyuta öz funksiyasını itirmiş olur.Bu zaman ölkədə iqtisadiyyat çətin idarə olunur və sənaye kapitalının aktivliyi kəskin azalır.Bu şəraitdə strateji antiinfliyasiya tədbirlərinin hazırlanması və bu tədbirlərin dəqiqliklə həyata keçirilməsi tələb olunur.

İnkişaf etmiş ölkələrdə ÜDM-in illik artım tempi adətən 2,7-4% həddində olur. Zəif inkişaf etmiş və ya inkişaf etməkdə olan ölkələr üçün artım tempi 0,5-1,5% olarsa bu normal hesab edilə bilər.Belə ölkələrin iqtisadi təhlükəsizliyinin təmin olunması üçün bu rəqəmin daha yüksək olması vacibdir.

Dövlət borcu göstəricilərinin ümumi miqdarı ÜDM-in yekun dəyərindən 2,5 dəfədən artıq olarsa onda dövlətin iqtisadi təhlükəsizliyi artıq şübhə altındadır.

Beynəlxalq normalara görə ölkənin təhsil xərcləri ÜDM-in 5%-dən aşağıdırsa burada geriləmə prosesi baş verir.Bu göstərici 2%-i ötmürsə, bu cəmiyyət özü artıq məhv olmuş hesab olunur.

Ölkədə iqtisadi təhlükəsizliyin təmin olunması bir sıra amillərlə də xarakterizə olunur.Məsələn: idxal olunan qida məhsulu 30%-i, emal olunan sənaye məhsullarının payı 40%-dən az olmadıqda və ÜDM-in 2%-dən yuxarı

hissəsi elmə ayrılan ölkələr iqtisadi baxımdan təhlükəsiz hesab oluna bilər.

## 15.4. Ölkənin etibarlılıq və risk göstəriciləri

Ölkənin etibarlılıq göstəricisinin müəyyən edilməsi məqsədi ilə İngiltərənin "Euromoney" jurnalı hər altı aydan bir qiymətləndirmə aparır.Bu göstərici 0-dan 100-ə qədər olan intervalda ölçülməklə bərabər 9 əsas parametr üzrə ekspert üsulu ilə əldə edilən qiymətləndirmənin nəticəsi kimi dəyərləndirilir.Tədqiqat zamanı dünyanın müxtəlif ölkələrində siyasi,iqtisadi vəziyyət təhlil edilir.Burada hər bir göstərici müəyyən əhəmiyyət kəsb edir.

Bu göstəricilərdən biri iqtisadi səmərəlilik olub, ölkənin təsərrüfatının vəziyyətinə uyğun olaraq dəyərləndirilir.Burada eyni zamanda ümummilli məhsulun inkişaf dinamikası (%-lə) və iqtisadi səmərəlilik 0-25 bal şkalası ilə dəyərləndirilir.

Ölkənin etibarlılıq inteqral göstəricisi (EİG) ölkədə siyasi risk,dövlət borcu,bank kreditlərinin verilməsi qaydaları,qısamüddətli maliyyələşmə,uzunmüddətli ssuda kapitalı,fors-major halların baş verməsi ehtimalı,borcun vaxtında ödənilməsi və ya onun ləngidilməsi hallarının mümkünlüyü səviyyəsini özündə əks etdirir.

Hər bir göstəricinin qiymətinin hesabatında yuxarı və aşağı göstərici hədləri müəyyən edildikdən sonra, bu göstəricilər göstərilən intervalda bərabər paylanılaraq başqa ölkələr üçün də qiymətlər müəyyən edilir.

Borcun kompleks göstəriciləri Dünya bankının informasiyası əsasında tapılır.

Burada borcun miqdarı, daxili ticarət balansı və ümummilli məhsul nəzərə alınır. Borc göstəricisi şkalasının dərəcəsi 0-dan 10-a qədər həddə təyin olunur.

Borcun ödənilməsi və yaxud ləngidilməsi (BÖ) üzrə öhdəliklərin yerinə yetirilməsi (BÖYY) də öz növbəsində 0-10 ballıq şkala üzrə qiymətləndirilir.

Kredit qabiliyyətlilik (K) göstəricisinin ayrıca öz qiyməti var və bu göstərici də 0-10 bal arasında müəyyənləşdirilir.

Ölkənin beynəlxalq maliyyə ehtiyatlarından istifadə imkanları 4 amildən asılı hesablanır və bunların hər biri 5 balla qiymətləndirilir.

1.Bank kreditlərinin alınması imkanları (BKM);

2.Qısamüddətli maliyyələşmənin mümkünlüyü (QMM);

3.Uzunmüddətli ssuda kapitalının mümkünlüyü (USKM);

4.Fors-major halların baş verməsinin mümkünlüyü (FMM).

Yuxarıda qeyd olunanların hesablanması nümunəsini göstərək.Məsələn:Uzunmüddətli ssuda kapitalının mümkünlüyü göstəricisinin hesablanmsı qaydası.

10 bal -problem yoxdur.

8 bal -95% problem yoxdur.

6 bal - adətən problem yoxdur.

4 bal - şəraitdən asılı olaraq problem çoxdur.

2 bal – ssuda kapitalına problem çoxdur, az halda almaq mümkündür.

0 bal – ssuda kapitalı əldə etmək mümkün deyil.

Ölkə risklərinə gəldikdə isə bu amillər əsasən ölkənin siyasi, sosial-iqtisadi, idxal və ixracat tərəfdaşları, daxili və xarici iqtisadi amillərdən asılıdır. Ölkə riskinin qiymətləndirilməsi ən çox tətbiq olunan iki "Univers" və "Beri" firmalarının metodikalarıdır.

"Univers" firmasının risklərin qiymətləndirilməsi metodikası dünyanın 150 ölkəsi üçün tətbiqedilir və demək olar ki,standart kimi qəbul edilir.Metodikanın mahiyyəti bundan ibarətdir ki, istənilən risk qrupu 10-a yaxın amilin sayı ilə qeyd olunur.İstifadə olunan hər amil sosial-siyasi və iqtisadi vəziyyətin inkişafının konkret tərəfini, onun cari və proqnozlaşdırılan vəziyyətinin qiymətini, yəni kəmiyyət göstəricisini əks etdirir. Bu kəmiyyətin ən yaxşı və ən pisləri (1-dən 10-a) kimi qiymətləndirilir.Qiymətləndirmə sistemində hər bir risk qrupu göstəricisi onun qiymətinə uyğun gələn çəkiyə malikdir. Hər risk qrupu daxilində çəkilərin cəmi 1-ə bərabərdir. Göstəriciyə xas edilmiş kəmiyyət qiyməti (1-dən 10-a kimi ) ona uyğun çəkiyə (0-dan 1-ə kimi) vurulur və nəticə kimi hər göstəricinin baxılan risk qrupunda payı çıxış edir. Bütün risk qruplarında ümumiləşdirilmiş qiymət aşağıdakı kimi yazılır:

$$R=A*r$$

Burada:R-riskin ümumiləşdirilmiş qiyməti,A-çəki əmsalı, r-hər göstəricinin ballarla qiymətidir.

Qeyd olunan bu metodika rayonlar,bölgələr üçün də tətbiq oluna bilər.R-in ən böyük qiymətini yığan ölkə təhlükəli hesab edilir.

“Beri” metodikasında 100-dən artıq müxtəlif ölkələrin ekspertləri iştirak edir.Bu ekspertlər anonim olaraq anketin 15 qiymətləndirmə meyarı olmaqla onların hər biri ümumi 100 olan xüsusi çəkiyə malikdir.Hər bir sual bal-faiz şkalası üzrə aşağıdakı kimi qiymətləndirilir:

0 - qəbul edilməz
1 – pis
2 – kafi
3 – yaxşı
4 – çox yaxşı

Toplanmış balların sayının yüksəkliyi riskin aşağı olması deməkdir.Bu isə həmin dövlətin iqtisadi təhlükəsizliyinin yüksək olmasını bildirir.

## 15.5. Biznesin təhlükəsizliyinin təmin olunmasında dövlətin rolu

Biznesin təhlükəsizliyinin təmin olunması ilk növbədə dövlətin üzərinə düşür. Təbiidir ki, dövlət öz iqtisadiyyatını gücləndirmək və güclü iqtisadiyyata malik olmaq üçün ayrı-ayrı sahibkarların mənafeyini qorumalıdır.

Dövlətin bütün sahələrdə biznesin təhlükəsizliyini təmin etmək üçün əsas fəaliyyət istiqamətləri aşağıdakılardır:

1.İqtisadi qanunların işlənib hazırlanması və təsdiq olunması,yəni biznesin hüquqi bazasının yaradılması;

2.Azad rəqabətin təmin olunması.Antiinhisar qanununun işlənib hazırlanması və inhisarçılığın qarşısının alınması;

3.İnflyasiyanın qarşısının alınması və milli valyutanın beynəlxalq valyuta kursuna nisbətinin saxlanması;

4.Daxili bazarın qorunması istiqamətində fəaliyyətin təmin olunması;

5.Müxtəlif sahələrdə fəaliyyət göstərən iş adamlarına dövlət yardımının göstərilməsi;

6.Fors-major hallarda biznes sahələri ilə məşğul olan sahibkarların əmlaklarına və onların iqtisadi fəaliyyətinə dəyən ziyanın müxtəlif formada ödənilməsi;

7.Biznesmenlərin əmlakının və özünün kriminal ünsürlərdən qorunması;

8.Biznesdə yaranan müqayisələrin məhkəmə və prokurorluq orqanları vasitəsi ilə ədalətlə həll edilməsi.

Dövlət bütün səviyyələrdə ölkədə rüşvətxorluğun və korrupsiyanın qarşısının alınmasını təmin etməlidir.Ölkədə korrpusiyanın gücləndiyi,baş alıb getdiyi şəraitdə aşağıdakılar baş verir:

1. “Kölgə” iqtisadiyyatı güclənir;
2. Bazarda rəqabət rejimi pozulur;
3. Bazar iqtisadiyyatı şəraitində əhalinin dövlətə və hakimiyyətə qarşı inamı pozulur;
4. Qiymətlər korrupsiya “qaimə xərcləri”hesabına artır.

Dövlətin biznesin təhlükəsizliyini təmin etməsində hüquq-mühafizə orqanlarının da rolu böyükdür.

Biznesin təhlükəsizliyinin təmin olunmasında birbaşa iştirak edən hüquq-mühafizə orqanları aşağıdakılardır:

1.Daxili İşlər Nazirliyi;
2.Dövlət Təhlükəsizlik xidməti;
3.Respublika Baş Prokurorluğu;

4.Məhkəmə orqanları;

5.Dövlət Gömrük Komitəsi.

Yuxarıda adları qeyd olunan təşkilatların hər biri öz funksiya və vəzifələrinə uyğun olaraq ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasında yaxından iştirak etməli,biznes fəaliyyəti ilə məşğul olan vətəndaşların hüquq və mənafelərinin qorunmasını təmin etməlidirlər.

Biznesin təhlükəsizliyinin qorunmasında Dövlət Gömrük Komitəsi (DGK) daxili bazarın qorunması istiqamətində aparılan iqtisadi siyasətin icra orqanı kimi ölkəyə gətirilməsinə icazə olmayan malların idxalına və ölkədən xarici dövlətlərə ixrac olunan mallara nəzarəti həyata keçirir.

DGK tərəfindən ölkədən strateji məhsulların çıxarılmasının qarşısı alınır, eyni zamanda bu təşkilat ölkəyə qanunsuz daxil olan məhsulların ölkəyə gətirilməsinin qarşısını qanun əsasında almaqla daxili istehsalın artırılmasına və daxildə istehsal olunan əmtəələrin rəqabətə davam gətirməsinə yardım etmiş olur.

Biznesin təhlükəsizliyinin təmin olunmasında polis orqanlarının əsas vəzifəsi obyektlərin qorunması,biznesmen və sahibkarların mühafizəsi, yaxud onlara göstərilən təzyiqlərin qarşısının alınmasıdır.Polis orqanlarının digər vəzifəsi isə minimal ünsürlərə qarşı mübarizədir.

Prokurorluq və Təhlükəsizlik orqanları korrupsiya, rüşvətxorluq və s. məsələlərdə biznesmenlərin hüquqlarını təmin edirlər.

Müəyyən mübahisəli hallarda sahibkarların müraciəti əsasında məhkəmə orqanları tərəfindən hüquq çərçivəsində mübahisələrin həll olunması təmin edilir.

## Mündəricat

**Giriş................................................................................**
**Fəsil 1.Təhlükə anlayşı , onun yaranma səbəbləri və iqtisadi təhlükəsizlik.**
1.1.Təhlükə və təhlükəsizlik anlayışı.
1.2.Təhlükələrin yaranma səbəbləri və mənbələri.
1.3.İqtisadi təhlükəsizliyin mahiyyəti , milli və beynəlxalq təhlükəsizlik.
1.4.İqtisadi təhlükəsizliyə təsir edən amillər.
1.5.Beynəlxalq iqtisadi təhlükəsizlik.
**Fəsil 2. Biznesdə yaranan təhlükələrin əsas formaları.**
2.1. İqtisadi təhlükələr.
2.2. Sosial təhlükələr.
2.3. Hüquqi təhlükələr.
2.4. Siyasi təhlükələr.
2.5. Biznes fəaliyyətində baş verən digər təhlükələr.
**Fəsil 3. Biznesdə risklər və onların təsnifatı.**
3.1. Risk anlayışı və onun mahiyyəti
3.2. Risklərin  növləri.
3.3. Risklərin əsas cəhətləri.
3.4. Risklərin əsas mənbələri.
3.5. Siyasi və iqtisadi risklər.
**Fəsil 4. Risklərin idarə edilməsi.**
4.1. Risklərin idarə olunmasınının əsas prinsipləri.
4.2. Kəmiyyət və keyfiyyət amillərinin təhlili.
4.3. Risklərin idarə edilməsində statistik və ekspert üsullarının tətbiqi.
4.4. Riskin minimuma endirilməsi.
4.5. Riskin azaldılması mərhələləri və metodları.

**Fəsil 5. Biznes fəaliyyətində təhlükəsizlik xidmətinin təşkili.**
5.1. Təhlükəsizlik xidmətlərinin funksiyaları və vəzifələri.
5.2. Təhlükəsizlik xidmətinin funksional quruluşu.
5.3. Təhlükəsizlik xidməti rəhbərlərinin seçilməsi.
5.4. Təhlükəsizliyin idarə edilməsi
5.5. Müəssisənin təhlükəsizlik xidmətinin işinin dövlət orqanları ilə təşkili.
**Fəsil 6. Təhlükəsizliyin idarə edilməsində mühafizənin təşkili.**
6.1. Müəssisədaxili rejim və buraxılış rejimləri.
6.2. Mühafizəçilər və mühafizə rejimi.
6.3. Daşınmaz əmlakın mühafizəsinin təşkili.
6.4. Rəhbər heyətin və mühafizəsinə ehtiyac duyulan əməkdaşların mühafizəsinin təşkili.
6.5. Maliyyənin muhafizəsi və inkasasiya şöbəsinin vəzifələri.
**Fəsil 7. Kommersiya sirri və onun təhlükəsizliyinin təşkili.**
7.1. Kommersiya sirri və onun mahiyyəti.
7.2. Kommersiya sirri sayilan informasiyaların seçilməsi.
7.3. Kommersiya sirri sayılan informasiyaların “sizması” yolları.
7.4. Konfidensial informasiyalardan istifadə qaydaları.
7.5. Danışıqların aparılmasının təşkili qaydaları.
**Fəsil 8. Əks-kəşfiyyatın mahiyyəti , məqsədi və mərhələləri.**
8.1. Əks-kəşfiyyatın mahiyyəti , məqsədi və vəzifələri.
8.2. Əks-kəşfiyyatın elementləri.
8.3. Əks-kəşfiyyatın bölmələri.

8.4. Əks-kəşfiyyatın tskilləri.
8.5. Əks-kəşfiyyatın mərhələləri.

**Fəsil 9. İşgüzar kəşfiyyatın mahiyyəti, məqsədi, metodları və növləri.**

9.1. İşgüzar kəşfiyyatın mahiyyəti və vəzifələri.
9.2. Operativ sorğu kəşfiyyat metodu kimi.
9.3. Müxtəlif adlar altında müəssisələrə daxil olma yolları.
9.4. Sənaye kəşfiyyatın növləri.
9.5. Kəşfiyyatçı nələri bacarmalıdır?.

**Fəsil 10. Rəqabətdən yaranan təhlükələr və bu təhlükələrə qarşı dövlət tədbirləri.**

10.1. Rəqabət və onun formaları.
10.2. Dövlətin sağlam rəqabət mühitinin yaradılmasında rolu.
10.3. Rəqabətdən yaranan təhlükələr.
10.4. İnhisarcılıq və ona qarşı dövlət tədbirləri.
10.5. Daxili bazarın mühafizə olunması.

**Fəsil 11.Biznesin təhlükəsizliyinin təmin olunmasında bencmarkinqin rolu.**

11.1. Bencmarkinqin yaranma tarixi və inkişafı.
11.2. Bencmarkinqin mahiyyəti.
11.3. Bencmarkinqin elementləri və növləri.
11.4. Bencmarkinqin xüsusiyyətləri.
11.5. Bencmarkinqin mərhələləri.

**Fəsil 12.Müəssisənin müflisləşmə təhlükəsi və bu təhlükənin aradan qaldırılması istiqamətləri.**

12.1. Müəssisələrin qarşısında duran əsas vəzifələr.
12.2. Müəssisələrin müflisləşmə təhlükəsini müəyyənləşdirən əsas amillər.
12.3. Müəssisənin fəaliyyətində müflisləşmə təhlükəsinin

proqnozlaşdirilması.
12.4. Müəssisənin iqtisadi təhlükəsizliyinin əsas meyarları
12.5. Müəssisənin iqtisadi təhlükəsizliyinin təmin olunması
**Fəsil 13. Biznesin təhlükəsizliyinin təmin olunmasında yeni texnologiyalardan istifadə edilməsi.**
13.1. Biznesdə təhlükəsizlik avadanlıqlarından istifadə olunması.
13.2. Nəzarət kameralarından istifadə olunmasl qaydaları.
13.3. Elektron buraxılış sistemləri.
13.4. Tərəfdaşlarla aparılan danışıqlar zamanı mühafizənin təşkili.
13.5. Beynəlxalq yükdaşımalar və yükdaşımalara nəzarət.
**Fəsil 14. İstehsal prosesində insan sağlamlığına təsir edən təhlükələr və onlara qarşı qabaqlayıcı tədbirlər.**
14.1. İstehsal prosesində zədələnmə təhlükələri və onların əsas səbəbləri.
14.2. Elektrik cərəyanından zədələnmə təhlükəsindən mühafizə üsulları.
14.3. İstehsalat tozu və onun təhlükəli təsirindən mühafizə üsulları.
14.4. Yanğın təhlükələrinin qarşısının alınması tədbirləri.
14.5. Müxtəlif şüalanmalardan mühafizənin təşkili.
**Fəsil 15. Ölkənin iqtisadi təhlükəsizliyi və biznesin təhlükəsizliyində dövlətin rolu.**
15.1. Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi strategiyası.
15.2. Ölkənin iqtisadi təhlükəsizliyinin qiymətləndirilməsi metodları.

15.3. Ölkənin iqtisadi təhlükəsizliyini təmin edən əsas göstəricilər.
15.4. Ölkənin etibarlılıq və risk göstəriciləri.
15.5. Biznesin təhlükəsizliyinin təmin olunmasında dövlətin rolu.

# ƏDƏBİYYAT SİYAHISI


1.Azərbaycan Respublikasının Konstitusiyası. Bakı 1996.

2.“Milli Təhlükəsizlik haqqında” AR.Qanunu AR Qanunvericilik toplusu N8. 31 avqust 2004-cü il

3.“Əhalinin sağlamlığının qorunması haqqında” AR Qanunu , “Azərbaycan” qazeti 12 iyul 1997-ci il

4.”Əhalinin radiasiya təhlükəsizliyi haqqında” “Azərbaycan” qəzeti 1mart 1998-ci il

5.”Ekoloji Təhlükəsizlik haqqında”AR.Qanunu. “Azərbaycan “ qazeti 14 avqust 1999-cu il

6.“Ətraf mühütin mühafizəsi haqqında” AR.Qanunu “Azərbaycan” qazeti 10 avqust 1994-cu il

7. “Məşğulluq haqqında” AR.Qanunu. “Azərbaycan” qazeti 15 avqust 2001-ci il

8.“Korrupsiyaya qarşı mübarizə haqqında” AR. Qanunu. “Azərbaycan“ qazeti 4mart 2004-ci il

9. “Məşğulluq haqqında”AR.Qanunu. “Azərbaycan” qazeti 15avqust 2001-ci il

10. Л.М. Гончаренько.Экономическая безопасность личности (под.ред.Е.Ф.Е.А.Олейникова-Иванова.Изд-во Ивановскво.Гос. Ун-та. 1999.)

11.Основы экономической безопасности (государство регионов, предприятие, личность) Учебно-метиодическое пособие. Под ред. Е.А.Олейникова. Москва-1997.

12.Безопасность человека. Учебно-метиодическое пособие для образовательных учреждений.Под ред. А.С.Ширишнева Москва-1994

13. Qazet E.Stiqliz, “Qloballaşma və onun doğurduğu narazılıqlar” Bakı 2004-cü il.

14.Экономическая безопасность (Теория и практика) Под.ред. академика Е.А.Олейникова Москва-1999

15.Одинцов А.А.Защита коммерческой деятельности в условиях перехода к рыночным отношениям: Москва-1976.

16.Одинцов А.А «Криминальная конкуренчая в России» Бизнес и политика N6 1999.

17.Корнеев Л.А. «Промышленный шпионаж Москва-1970.

18. «Практика защиты коммерческой тайны в США: Руководство по защите деловой формации, Москва-1992.

19. Экономическая безопасность и инновоционная политика (страна, регион, фирма) вып.2. (Под.ред. Оленникова Е.А) Москва-2003.

20. S.V.Salahov. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri.Bakı 2004.

21.Экономическая безопасность. Производство-финансы-банки. Под.ред. В.К.Сенчакова Москва-1998

22.Гончаренко Л.П.Придпринимательские риски. Учебно-методическое пособие.Под.ред. О.И.Волкова 2-е изд.Москва-2003.

23.Экономика предприятия. Учебник под ред. О.И.Волкова 2-е изд Москва-1999.

24.Предпринимательство и безопасность. Специальное издание для руководителей Москва-1991

25.N.Məmmədov “Ölkənin iqtisadi təhlükəsizliyi” Bakı- 2005.

26.N.Məmmədov “İqtisadi təhlükəsizlik” Bakı 2006.

27.A.Abbasov “Biznesin əsasları” Bakı2005.

28.С.В.Калницкий «Управление безопасностю в бизнесе» Москва-2010.

29.»Основы экономической безопасности» Под. ред. Е.А.Олейникова Москва-2004.

30.»Экономическая и национальная безопасность» под.ред. Олейникова Е.А. Москва-2004.

31.Стратегия национальной безопасности «Независимая газета» 26 октябр 1994.

32. Технология безопасности бизнеса Р.И.Бяндин Москва-1996.

33.H.B.Allahverdiyev və başqaları “Milli iqtisadiyyatın dövlət tənzimlənməsi” Dərslik, Bakı 2007.

34. V.İ.Yaroçkin, Y.Y.Buzanova“Biznesin və sahibkarlığın təhlükəsizliyinin əsasları” Rus dilinən tərcümə. Bakı . İqtisad Universiteti 2008

35.Səmədzadə S.Ə. Bədəlov E.Ə, Əliyeva X.H. Qocayeva Z.B , “İqtisadi subyektlərin (müəssisələrin) iqtisadi təhlükəsizliyi. Bakı2009.

36. Ataşov B.X. “Ərzaq təhlükəsizliyinin problemləri”. Bakı 2005.

**Kavus Şahbaz oğlu Eyyubov**

# BİZNESİN TƏHLÜKƏSİZLİYİ

**Dərs vəsaiti. Bakı, 2017.**

**Redaktor:** **i.e.n. dos. Z.Məmmədova**
**Texniki redaktor:** **Ə.N.Bağırov**
**Kompüter tərtibatçısı:** **N.A.Hüseynzadə**

**Çapa imzalanıb: 11.05.2017**
**Kağız formatı: 60/84/1/16**
**Həcmi 14,5 ç/v**
**Tiraj: 500**

**"Bakı Biznes Universitetinin nəşriyyatı" Bakı, H.Zərdabi küç. 88^a^**